RƏSMİ DÖVLƏT QƏZETİ



# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 288 (8311) CÜMƏ AXŞAMI, 26 dekabr 2019-cu il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az



# Azərbaycan 2020-ci ildə daha böyük nailiyyətlər qazanacaq

Sonuna yaxınlaşdığımız 2019-cu ili hər dövlət fərqli ab-havada başa vurur. Bir qismi müharibələrin, terrorun ağrı-acısını, bəziləri siyasi və iqtisadi problemlərin çətinliklərini yaşayır. Azərbaycanda isə başa çatmaqda olan il sözün bütün mənalarında nailiyyətlərlə zəngin, uğurlarla əlamətdar növbəti dövr kimi tarixə qovuşur.

## Ölkəmiz üçün bu il uğurlu olmuşdur

Bu il regionda və dünyada cərəyan edən ziddiyyətli proseslər şəraitində Azərbaycan daxili sabitliyini qorumaqla, inkişafını təmin etməklə, iqtisadiyyatını müsbət artım dinamikasına kökləməklə və irimiqyaslı layihələri başa vurmaqla öz tarixinin yeni və möhtəşəm hadisələrinə imza atıb. Təbii ki, bütün bunlar və bu uğurlara mütənasib olan müstəqil xarici siyasət ölkəmizin beynəlxalq səviyyədəki nüfuzunu və qlobal miqyasda respublikamıza olan rəğbəti daha da artırıb.

Dekabrın 23-də yerli jurnalistlərə ilin yekunları ilə bağlı verdiyi geniş müsahibədə Prezident İlham Əliyev bütün bu məsələlərə hərtərəfli aydınlıq gətirib. Dövlət başçısının qeyd etdiyi kimi, 2019-cu il Azərbaycan üçün uğurlu olub və qarşıya qoyulan bütün vəzifələr həyatda öz əksini tapıb: *"2019-cu il sona yaxınlaşır və əlbəttə ki, il ərzində görülmüş işlər, ölkəmizdə və regionda baş vermiş hadisələr çox ciddi təhlil tələb edir. Bir şeyi tam dəqiqliklə deyə bilərəm ki, ölkəmiz üçün bu il uğurlu olmuşdur. İlin əvvəlində qarşımıza qoyduğumuz bütün vəzifələr həyatda öz əksini tapıb. Azərbaycan 2019-cu ildə uğurla inkişaf edib. Bu inkişaf imkan verir ki, biz gələcək illərdə də öz addımlarımızı düzgün ataq və 2020-ci il də ölkəmiz üçün uğurlu olsun".*

## Heç kimdən asılı deyilik

2019-cu ilin Azərbaycan üçün ən mühüm uğur göstəricilərindən biri ölkəmizin beynəlxalq münasibətlər sistemində mövqelərini möhkəmləndirməsi, bu sahədə tamamilə müstəqil siyasət yürüdərək öz milli maraqlarını layiqincə təmin etməsidir. Ulu Öndər Heydər Əliyevin başlatdığı və bu gün Prezident İlham Əliyevin həyata keçirdiyi siyasi kurs Azərbaycanın yerləşdiyi bölgənin liderinə, dünyada isə söz sahibinə çevrilməsini təmin edib. Bu siyasətin nəticəsidir ki, Azərbaycan dünya birliyinin fəal və qəbul edilən üzvü kimi beynəlxalq münasibətlərdə fəal iştirak edir. Rəsmi və işgüzar görüşlərində, müxtəlif beynəlxalq tədbirlər çərçivəsində Azərbaycanın milli və dövlət maraqlarını təmin edən Prezident İlham Əliyevin siyasi uzaqgörənliyi, diplomatik gedişləri ölkəmizin mövqelərini davamlı olaraq gücləndirir.

2019-cu il də bu baxımdan mühüm dövr kimi tarixə düşdü. Müsahibədə dövlət başçısının vurğuladığı kimi, bizim ənənəvi tərəfdaşlarla əlaqələrimiz daha da yüksək pilləyə qalxıb, ikitərəfli və üçtərəfli əməkdaşlıq formatlarında münasibətlər daha da inkişaf edib, bu il Azərbaycana 40-dan çox dövlət və hökumət başçısı səfər edib, Bakıda önəmli beynəlxalq tədbirlər keçirilib. Avropa İttifaqı ilə münasibətlərə, o cümlədən bu ilin gündəm mövzularından olan Aİ ilə üzərində iş gedən saziş layihəsinə, ölkəmizin Dünya Ticarət Təşkilatına üzvlüyünə, "Şərq tərəfdaşlığı" proqramı çərçivəsində əməkdaşlığa, bütövlükdə Azərbaycanın avrointeqrasiyasına münasibət bildirən Prezident bütün məsələlərə ölkəmizin milli, siyasi və iqtisadi maraqlarının təmini, mənəvi dəyərlərimizin qorunması prizmasından dərindən əsaslandırılmış şəkildə aydınlıq gətirdi. Və İlham Əliyev "Biz qürurlu ölkəyik, biz öz yolumuzla gedirik, heç kimə də bizim ehtiyacımız yoxdur, heç kimdən də asılı deyilik!" deməklə bu mövzularda gedən müzakirələrə nöqtə qoydu.

## Valyuta ehtiyatlarımız 50 milyard dollara çatıb

2019-cu il Azərbaycanın iqtisadi inkişafı baxımından da yaddaqalan dövrdür. Məlum olduğu kimi, bir neçə il əvvəl dünya bazarlarında neftin qiymətinin bir neçə dəfə aşağı düşməsi bir sıra ölkələrin iqtisadiyyatına ciddi təsir göstərmiş, hər birinin gəlirləri azalmışdı.

*Ardı 10-cu səh.*

# Azərbaycan dünyada idman ölkəsi kimi tanınır




Dekabrın 25-də Milli Olimpiya Komitəsində 2019-cu ilin idman yekunlarına həsr olunan mərasim keçirilib.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti, Milli Olimpiya Komitəsinin Prezidenti İlham Əliyev mərasimdə iştirak edib.

Dövlət başçısı tədbirdə nitq söylədi.

*Bax: səh. 2*

# Dünya azərbaycanlılarına

Əziz həmvətənlər!

Hörmətli soydaşlar!

Azərbaycan xalqının milli-mənəvi bütövlüyünü təcəssüm etdirən 31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü münasibətilə sizi ürəkdən təbrik edir, hər birinizə ən səmimi arzu və diləklərimi yetirirəm.

İlk dəfə Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə qeyd olunmuş bu tarixi gün xarici ölkələrdə məskunlaşıb yaşayan milyonlarla soydaşımızın azərbaycançılıq məfkurəsi ətrafında sarsılmaz birliyinin və Vətənə sədaqətinin rəmzi kimi hər il xalqımız tərəfindən ruh yüksəkliyi ilə bayram edilir.

Azərbaycan öz dövlət müstəqilliyini bərpa etdikdən sonra yaxın keçmişimizin bir çox tarixi sınaq anlarında mütəşəkkil birlik və həmrəylik nümayiş etdirərək, bütün sahələrdə böyük inkişafa və uğurlara nail olmuşdur.

Bu gün Azərbaycan dövləti müstəqil daxili və xarici siyasəti, artan beynəlxalq nüfuzu, iqtisadi, siyasi və hərbi gücü ilə yeni inkişaf mərhələsinə qədəm qoymuşdur. Bir çox qlobal transmilli və regional layihələrin təşəbbüskarı və iştirakçısı olan ölkəmiz dünyanın enerji təhlükəsizliyinə sanballı töhfələr verməklə, regionda mühüm tranzit və logistika mərkəzinə çevrilmişdir. Zəngin təbii resurslarımız və iqtisadi potensialımız Azərbaycanın geostrateji mövqelərinin daha da güclənməsinə etibarlı zəmin yaradır və biz bu istiqamətdə ardıcıl siyasətimizi davam etdirəcəyik.

Sosial-iqtisadi, siyasi-hüquqi sahələrdə və dövlət idarəetməsində həyata keçirilən sistemli islahatlar, milli müstəqillik ideallarına sadiq, müasir dünyagörüşlü gənclərimizin bu prosesə daha fəal cəlb edilməsi bizi inamla qarşıya qoyduğumuz inkişaf strategiyasının hədəflərinə yaxınlaşdırmaqdadır. Uğurlu siyasətin nəticəsidir ki, ölkədə möhkəm ictimai-siyasi sabitlik və milli-mənəvi həmrəylik təmin edilmiş, insanlarımızın maddi rifahı əhəmiyyətli dərəcədə yaxşılaşmışdır.

Dünyanın ayrı-ayrı bölgələrində mürəkkəb etno-siyasi proseslərin, din və məzhəb qarşıdurmalarının, humanitar fəlakətlərin baş verdiyi bir vaxtda Azərbaycan sabitliyin, etnik-dini tolerantlığın və multikultural ənənələrin qorunub saxlanıldığı unikal məkandır. Müasir dövrdə insanları narahat edən sülh və təhlükəsizlik məsələlərinin, sivilizasiyalararası dialoq problemlərinin müzakirə edildiyi bir çox mötəbər beynəlxalq tədbirlərə, o cümlədən Dünya dini liderlərinin II Sammitinə, Qoşulmama Hərəkatına üzv ölkələrin dövlət və hökumət başçılarının XVIII Zirvə Görüşünə evsahibliyi etməsi və növbəti üç ildə bu Hərəkata sədrliyin Azərbaycan Respublikasına keçməsi dövlətimizin beynəlxalq nüfuzunun bariz nümunəsidir. Təsadüfi deyil ki, bu gün dünyanın ən gözəl şəhərləri sırasında yer alan paytaxtımız Bakı qlobal miqyasda sülhün və əmin-amanlığın təminatı üçün önəmli çağırışlar mərkəzinə çevrilmişdir.

Dahi Azərbaycan şairi İmadəddin Nəsiminin 650 illik yubileyi münasibətilə Azərbaycanda "Nəsimi İli"nin elan edilməsi ictimai-mədəni həyatımızın builki əlamətdar səhifələrindən biridir. "Nəsimi İli" çərçivəsində ölkəmizdə və onun hüdudlarından kənarda keçirilmiş rəngarəng tədbirlər Azərbaycan mədəniyyətinin ümumbəşəri əhəmiyyətinin daha bir nümayişi olmuşdur.

Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin ədalətli həlli və ərazi bütövlüyümüzün bərpası taleyüklü bir vəzifə olaraq qarşıda durur. Dövlətimizin iqtisadi-hərbi qüdrəti, beynəlxalq aləmdə getdikcə güclənən mövqelərimiz və fəal siyasi-diplomatik səylərimiz bu ağrılı problemin Azərbaycanın milli maraqlarına uyğun həlli üçün səfərbər edilmişdir. Son illər ordumuzun cəbhədə qazandığı uğurlar da göstərir ki, əzəli və əbədi Azərbaycan torpağı Qarabağın düşmən tapdağından azad ediləcəyi və tarixi ədalətin zəfər çalacağı gün uzaqda deyildir.

Azərbaycan Respublikası hazırda özünün parlaq və davamlı inkişaf dövrünü yaşayır. Dünyanın müxtəlif guşələrində məskunlaşan, lakin qəlbi daim Azərbaycan eşqi ilə döyünən soydaşlarımız da bu tarixi prosesdən kənarda deyil və onların xalqımızın tərəqqisində, Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması işində təqdirəlayiq xidmətləri yüksək qiymətləndirilməlidir.

Ümidvaram ki, harada yaşamalarından asılı olmayaraq, soydaşlarımız məskunlaşdıqları ölkələrin həyatına inteqrasiya ilə yanaşı, öz milli kimliyini, mənəvi-əxlaqi dəyərlərini, tarixi Vətənlə bağlılığı qoruyacaq, Azərbaycanın bugünü və aydın sabahı naminə əməl və əqidə birliyi, sarsılmaz həmrəylik nümayiş etdirəcəklər. Xarici ölkələrdəki çoxsaylı diaspor təşkilatlarımızın gələcəkdə də əzmkar iradə və yüksək vətənpərvərliklə bu amallar uğrunda çalışacağına, xalqımızın və dövlətimizin şərəfli adını daim uca tutacağına inanıram.

Bu yolda hamınıza uğurlar, cansağlığı, ailələrinizə xoşbəxtlik və firavanlıq arzulayıram.

Bayramınız mübarək olsun!

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 25 dekabr 2019-cu il*

# Vacib olan diqqət və qayğıdır

Azərbaycan müasir dünya düzənində vətəndaşlarının sosial problemlərinin həllinə xüsusi diqqətlə yanaşan, bu istiqamətdə davamlı və mühüm layihələr həyata keçirən unikal dövlət imicini qazanmışdır. Bu baxımdan 2019-cu ilin son günlərində Azərbaycan Prezidentinin imzaladığı iki sərəncam və insanların sosial müdafiəsinin gücləndirilməsi ilə bağlı iştirak etdiyi iki tədbir mühüm əhəmiyyət kəsb edir.

Dekabrın 24-də Bakının Nizami rayonunda şəhid ailələri və Qarabağ müharibəsi əlilləri üçün inşa olunan yaşayış binasında mənzillərin, həmçinin Qarabağ müharibəsi əlillərinə və onlara bərabər tutulan şəxslərə avtomobillərin təqdim olunması mərasimi keçirilib.

Onu da xatırladaq ki, şəhid ailələri, Qarabağ müharibəsi əlilləri və onlara bərabər tutulan şəxslərin mənzil-məişət məsələlərinin həlli daim diqqət mərkəzində olmuşdur. 1997-ci ildən 2018-ci ilədək Qarabağ müharibəsi əlillərinə 4597, şəhid ailələrinə 1582, İkinci Dünya müharibəsi, Çernobıl və müharibə əlillərinə bərabər tutulan digər vətəndaşlara 475 mənzil və fərdi ev verilmiş, Qarabağ müharibəsi əlilləri və onlara bərabər tutulan şəxslər 1998-2018-ci illər ərzində 6155 avtomobillə təmin edilmişlər. Bu il isə daha 600 avtomobilin təqdim olunması nəzərdə tutulur. Yeni inşa olunan binada ümumilikdə bir, iki və üçotaqlı 96 mənzil var ki, onlardan 62-si Qarabağ müharibəsi əlilinə, 34-ü isə şəhid ailələrinə təqdim olunur. Bu qəbildən olan vətəndaşlara ilin əvvəlindən bəri 700 mənzil və fərdi ev verilib. İlin sonunadək isə 234 mənzil və fərdi evin təqdim olunması planlaşdırılır.

Dövlət başçısı mənzil və avtomobillə təmin olunan şəhid ailələri və Qarabağ müharibəsi əlillərinin bir qrupu ilə görüşərkən şəhid ailələrinə, Qarabağ müharibəsi əlillərinə yeni mənzillərin və minik maşınlarının verilməsinin məntiqi izahını belə ifadə etdi: "Vətən uğrunda şəhid olmuş insanların xatirəsi bizim üçün həmişə əzizdir. Azərbaycan xalqı şəhidlərimizin xatirəsini həmişə öz qəlbində yaşadır. Müharibədə vuruşmuş və əlil olmuş vətəndaşlar üçün şəraitin yaradılması bizim mənəvi borcumuzdur".

Sosial müdafiəsi zəif olan insanlara Azərbaycanda göstərilən qayğı dünya miqyasında nadir hallarda baş verən bənzərsiz xeyriyyə aksiyasıdır. Bu tədbirlər davamlı olaraq gələn il də həyata keçiriləcək və hətta verilən evlərin sayı builkindən iki dəfə çox olacaq.

*Ardı 9-cu səh.*

**İlə yekun vurulur**

# 2019-cu il icbari tibbi sığortaya keçidin son hazırlıq dövrü oldu



Bəlkə də əhalinin bunun qədər gözlədiyi hökumət qərarı olmamışdı. Səhiyyə sahəsində son dövrlər görülən işlər - təzə tibb ocaqlarının istifadəyə verilməsi, köhnələrinin əsaslı şəkildə yenidən qurulması, onların müasir avadanlıqlarla təchizatı, tibb personalının ixtisaslarını artırmaq üçün dünyanın aparıcı klinikalarına göndərilməsi, beynəlxalq simpoziumlarda iştiraklarının təşkili və s. onlarca belə tədbirlər həyata keçirilsə də, ölkə vətəndaşları sağlamlıqdan, həkim-pasiyent münasibətlərindən söz düşən kimi icbari tibbi sığortanın tətbiqinin vacibliyini önə çəkirdilər.

Heç kəs də qınanılası deyildi. Çünki dünyada ən bahalı "sərvət" sayılan insan sağlamlığının Azərbaycanda uzun zaman pulsuz keşiyində durulması nə dövlətin, nə də əhalinin uzun müddət çəkə biləcəyi yük idi. Elə tibb işçilərinin hər il artırılmasına baxmayaraq, çox da yüksək olmayan əməkhaqları ilə insan sağlamlığına cavabdehlik kimi məsuliyyətli bir işin öhdəsindən layiqincə gəlmələrini gözləmək də mümkün deyildi. Bu vacib problemlərin həllinin öhdəsindən isə artıq bütün dünyada neçə illərdir təcrübədən çıxmış icbari tibbi sığorta gələ bilərdi.

*Ardı 10-cu səh.*

# Demokratik və şəffaf seçki nümunəsi

## Bələdiyyə seçkiləri Azərbaycanın seçki demokratiyasının daha da təkmilləşməsinə öz töhfəsini verəcək

2019-cu il ölkəmizin ictimai-siyasi həyatında mühüm hadisələrlə yadda qaldı. Ötən dövrlərə nəzər salsaq, bu il ölkənin daxili, xarici siyasətində əldə olunan uğurlar nəticəsində Azərbaycanın siyasi, iqtisadi, sosial, mədəni və digər sahələrdə böyük nailiyyətlər qazanan ölkə kimi dünyada sürətli inkişaf nümunəsi göstərdiyinin şahidi oluruq.

Belə nümunələrdən biri də önəmli siyasi hadisə kimi dekabrın 23-də keçirilən sayca beşinci bələdiyyə seçkiləri oldu. Seçici hüququna malik ölkə vətəndaşları növbəti 5 il üçün yerli özünüidarəetmə orqanlarına üzv seçilmək istəyən namizədlərə etimad göstərdilər.

Seçki kampaniyasının başlanılmasına start verildiyi gündən Seçki Məcəlləsinin tələblərinə və MSK-nın təsdiq etdiyi Təqvim Planına uyğun qaydada bələdiyyə üzvlüyünə namizədlərin irəli sürülməsi və qeydə alınması prosesi, seçkilərə hazırlıq mərhələsi, qeydə alınmış namizədlərin təbliğat-təşviqat kampaniyası uğurla reallaşdı.

Səsvermə isə ölkə üzrə 7 seçki dairəsi (Ermənistan tərəfindən əraziləri işğal edilmiş rayonları əhatə edən 118 saylı Ağdam şəhər, 120 saylı Cəbrayıl-Qubadlı, 121 saylı Laçın, 122 saylı Xankəndi, 123 saylı Kəlbəcər, 124 saylı Şuşa-Ağdam-Xocalı-Xocavənd, 125 saylı Zəngilan-Qubadlı) istisna olmaqla, ümumilikdə 118 seçki dairəsi üzrə 5049 seçki məntəqəsində keçirildi. Ölkə üzrə səsvermədə iştirak edəcək seçicilərin sayı 4 milyon 972 min 356 nəfər idi.

Seçkilərdə bələdiyyə üzvü olmaq istəyən namizədlərin sayı 41 min 462 nəfər idi. Bu dəfə namizədlərin sayı 2014-cü ilin bələdiyyə seçkilərindən (37 min 77 nəfər) 4 min 385 nəfər çox idi. Namizədlərin bir qismi seçkidə öz təşəbbüsü ilə iştirak edirdi. Bir qisim namizəd isə 13 siyasi partiya tərəfindən irəli sürülmüşdü.

Bələdiyyə seçkilərini 17 beynəlxalq, 52 636 yerli müşahidəçi izlədi. Səsvermə prosesini müşahidə edən xarici qonaqların əksəriyyəti seçkilərin çox sakit və sərbəst şəkildə keçdiyini və heç bir xüsusi hal qeydə alınmadığını söylədilər.

*Ardı 9-cu səh.*

# Azərbaycan dünyada idman ölkəsi kimi tanınır

## Prezident İlham Əliyevin nitqi






- Əziz idmançılar, əziz dostlar.

Biz hər ilin sonunda idman nailiyyətlərinə yekun vururuq, idmançıları, idman mütəxəssislərini, veteranları mükafatlandırırıq. Bu il də istisna deyil. İlin sonunda bir daha görüşürük, eyni zamanda, gələcək planlar haqqında danışırıq, fikirlərimizi bölüşürük və beləliklə, Azərbaycanda idmanın inkişafı dayanıqlı xarakter alır.

Bu gün Azərbaycan dünyada idman ölkəsi kimi tanınır. Bizim idman nəticələrimiz, uğurlarımız, qələbələrimiz, eyni zamanda, idmana dövlət tərəfindən göstərilən dəstək, dövlət proqramlarının icrası, əlbəttə ki, beynəlxalq idman qurumları tərəfindən də yüksək qiymətləndirilir. Təsadüfi deyil ki, Beynəlxalq Olimpiya Komitəsi, Avropa Olimpiya Komitəsi, beynəlxalq federasiyalar bizim fəaliyyətimizə çox yüksək qiymət verirlər.

Ən əsas məsələ ondan ibarətdir ki, Azərbaycanda idmanın kütləviliyi təmin edilir, idmanla məşğul olmaq istəyən gənclərin sayı kəskin artır, biz bunu görürük, izləyirik. Biz buna görə görkəmli idmançılarımıza minnətdar olmalıyıq. Ümumiyyətlə, hesab edirəm ki, idman sahəsində görülən işlər gəncləri də həvəsləndirir. Azərbaycan gənclərinin idmana böyük maraq göstərməsi bizi sevindirir. Əlbəttə ki, görkəmli idmançılarımızın uğurları bizim idman şöhrətimizi daha da yüksəklərə qaldırır. Bu baxımdan bu il də əlamətdar il olmuşdur. Bizim idmançılarımız beynəlxalq idman yarışlarında 775 medal qazanmışlar, onlardan 271-i qızıl medaldır. Bu, onu deməyə əsas verir ki, idmançılarımız ölkəmizi beynəlxalq yarışlarda ləyaqətlə təmsil ediblər və Azərbaycanın Dövlət himnini dəfələrlə səsləndiriblər, bizim bayrağımızı yüksəklərə qaldırıblar.

İdman nailiyyətləri arasında şahmatçıların uğurlarını xüsusilə qeyd etmək istərdim. Çünki bu, onu göstərir ki, bizim gənclərimiz nəinki fiziki cəhətdən güclüdür, eyni zamanda, onların intellektual potensialı da çox yüksəkdir. Bizim görkəmli şahmatçımız Teymur Rəcəbov Dünya Kubokunun qalibi olmuşdur. Bu, tarixi hadisədir. On altı yaşadək yeniyetmələrdən ibarət şahmat komandamız Dünya Şahmat Olimpiadasının qalibi olmuşdur. Bu da onu təsdiqləyir ki, şahmata göstərilən diqqət, son illərdə rayonlarda şahmat məktəblərinin açılması öz nəticəsini verməkdədir. Mənim bölgələrə çoxsaylı səfərlərim çərçivəsində şahmat məktəblərinin açılışı da ənənəvi olaraq proqrama salınır. Demək olar ki, mən ölkəmizdə fəaliyyət göstərən əksər şahmat məktəblərinin açılışında iştirak etmişəm. Əfsuslar olsun ki, 1980-ci illərin sonlarında və 1990-cı illərin əvvəllərində bir çox şahmat məktəblərimizin təyinatı dəyişdirilmiş, o binalar özəlləşdirilmiş, orada ticarət obyektləri açılmışdır. Əlbəttə ki, bu, ovaxtkı rəhbərlik tərəfindən bizim intellektual potensialımıza vurulmuş böyük zərbə idi.

Ulu Öndər Heydər Əliyev hakimiyyətə qayıdandan sonra şahmat məktəblərinin yenidən açılması prosesi başlamışdır və son illərdə bu proses geniş vüsət almışdır. Mənim göstərişimlə rayonlarda yaradılmış gözəl şahmat məktəbləri fəaliyyət göstərir və beləliklə, gənc şahmatçılar yetişir.

Əlbəttə, şahmat çox məşhur, populyar idman növüdür, o idman növüdür ki, insanların, uşaqların intellektual potensialını gücləndirir. Məhz mənəvi dəyərlərimizə bağlı və böyük intellektual potensiala malik olan gənclər bizim gələcəyimizi, müstəqil Azərbaycanın uğurlu gələcəyini təmin edəcəklər. Ona görə gənclər fiziki cəhətdən güclü olmalıdırlar. Onların intellektual potensialı yüksək səviyyədə olmalıdır. Onlar milli dəyərlərə, vətənə bağlı olmalıdırlar. İdman vətənpərvərlik hisslərini böyük dərəcədə artırır. Hər bir idman qələbəsi, xüsusilə mötəbər beynəlxalq yarışlarda qazanılmış qələbə ölkəmizdə milli qüruru, milli ruhu yüksəldir. Ona görə idmanın hər bir ölkənin həyatında çox önəmli rolu var. Məhz buna görə son illər ərzində idmana çox böyük diqqət göstərilir. Mən Azərbaycan Milli Olimpiya Komitəsinin Prezidenti kimi 1997-ci ildə bu vəzifəyə ilk dəfə seçiləndən sonra Azərbaycanda idmanın inkişafı, idmanda kütləviliyin təmin edilməsi istiqamətində addımlar atmışam və bu addımlar bu gün özünü göstərir.

Aparıcı beynəlxalq idman qurumları Azərbaycanı idman ölkəsi kimi tanıyır. Bizim idman sahəsində ən böyük nailiyyətimiz keçən Yay Olimpiya Oyunlarında qazanılmış qələbədir. Medalların sayına görə Azərbaycan dünya miqyasında 14-cü yerə layiq görülmüşdür. Bu, tarixi qələbədir və bu, təsadüfi qələbə deyil. Çünki ondan bir il əvvəl - 2015-ci ildə Bakıda keçirilmiş Avropa Oyunlarında Azərbaycan komanda hesabında ikinci yerə qalxmışdır. Ona görə idman sahəsində qazandığımız uğurlar təsadüfi xarakter daşımır. Konseptual şəkildə ardıcıl işlər görülür, veteran idmançılara diqqət və qayğı göstərilir, onlar dövlət tərəfindən mükafatlandırılırlar. İdman mütəxəssisləri çox gözəl şəraitdə işləyirlər, idmançılar üçün də bütün şərait yaradılıb. Onların təlim-məşq toplanışları, beynəlxalq yarışlarda iştirakı və idmanla məşğul olmaları üçün yaxşı şərait yaradılıb. Hazırda bizim ancaq bölgələrdə 45 Olimpiya İdman Mərkəzimiz var. Bu il bir mərkəz Beyləqan şəhərində mənim iştirakımla açılıbdır. İki olimpiya idman mərkəzi açılışa hazırdır - Yardımlı və Tərtər rayonlarında. İki olimpiya mərkəzinin tikintisi davam etdirilir - Goranboy və Neftçala şəhərlərində. Yevlax şəhərində olimpiya mərkəzinin layihələndirmə işləri başa çatıb və əminəm ki, yaxın zamanlarda onun inşası başlanacaq. Beləliklə, biz demək olar ki, hər bir rayonda müasir idman kompleksi istifadəyə verərək idmançılar üçün şərait yaratdıq. Bu, həm gənc idmançıların idman bölmələrində hazırlıq keçmələri, həm də şəhər və rayon sakinləri üçün gözəl imkandır.

Mən tövsiyə edərdim ki, hər bir vətəndaş idmanla məşğul olsun. Özü də həftədə, ayda bir dəfə yox, müntəzəm olaraq. Bunun çox böyük xeyri var və əgər belə olarsa, hər bir insan öz həyatında bunu görəcəkdir. Mən ümid edirəm ki, biz buna nail olacağıq. Çünki başqa sahələrdə mənim tövsiyələrim artıq həyatda öz əksini tapır. Bəlkə də indi siz yaxşı xatırlayırsınız ki, rayon mərkəzlərində və kəndlərdə yeni xəstəxanaların, tibb ocaqlarının açılışı zamanı mən dəfələrlə eyni məsələyə qayıdıb tövsiyə edirdim ki, hər bir vətəndaş ildə bir dəfə tibbi müayinədən keçsin və bilsin, onun sağlamlığı, səhhəti nə yerdədir. Əgər hər hansı bir xəstəliyin ilkin təzahürləri varsa, dərhal müalicə alsın və sağalsın. Bütün şəhərlərdə, rayonlarda müasir, özü də ən yüksək dünya standartlarına cavab verən tibb mərkəzlərimiz yaradılandan sonra artıq bu prosesə daha çox meyil göstərilir. Ondan sonra biz bunu mütəşəkkil qaydada icra etməyə başladıq. Artıq bir neçə ildir ki, böyük maarifləndirmə və təbliğat işləri apararaq vətəndaşların pulsuz müayinədən keçmələri üçün imkanlar yaratdıq. Bu il 5 milyondan çox Azərbaycan vətəndaşı pulsuz tibbi müayinədən keçibdir. Orada müayinədən keçən vətəndaşların əgər hər hansı bir xəstəliyi olarsa, dərhal müalicə edilir. Əgər rayon şəraitində buna imkan yoxdursa, Bakıya göndərilir və beləliklə, insanlar öz səhhətini qoruyurlar. Biz buna nail olmuşuq və deyə bilərəm ki, Azərbaycan bəlkə də dünyada dövlət tərəfindən bütün vətəndaşlara tibbi müayinədən keçmək şəraitinin yaradıldığı nadir ölkələrdən biridir. Əminəm ki, mənim hər bir insanın fiziki imkanlarına uyğun olaraq idmanla məşğul olması barədə tövsiyəm də həyatda öz əksini tapacaq. Onda hər bir insan görəcək ki, bunun nə qədər böyük faydası var.

Bizim idman şöhrətimizi yüksəklərə qaldıran görkəmli idmançılarımıza da tövsiyə edirəm ki, onlar da bu maarifləndirmə işlərində fəal iştirak etsinlər. Gənclər və İdman Nazirliyi, Milli Olimpiya Komitəsi, idman cəmiyyətləri, klublar idmanın kütləviliyini təmin etsinlər. Bilirsiniz ki, çoxdandır mənim təşəbbüsümlə biz ictimai istirahət zonaları yaradırıq. Artıq parklar, bağlar şəhəri olan Bakı bu baxımdan dünyada qabaqcıl yerlərdədir. Baxın, son vaxtlar Bakı şəhərində nə qədər ictimai istirahət zonaları yaradılıb. Sovet vaxtından qalan bütün ənənəvi parklar ən yüksək səviyyədə yenidən quruldu. Vaxtilə dağılmış, guya fəaliyyət göstərən, əslində, ekologiyamıza ziyan vuran sənaye müəssisələrinin yerində bir çox yeni parklar salındı. Sonra mənim göstərişimlə bu ictimai parklarda açıq havada idman qurğuları quraşdırılmağa başlanmışdır. İndi "Abad həyət" proqramı icra edilir. Artıq Bakı şəhərində onlarla həyət abadlaşdırılıb. Orada idman meydançaları, o cümlədən trenajorlar quraşdırılıb. İndi hər bir insanın açıq havada idmanla məşğul olması üçün imkanlar var. Uşaqlar, böyüklər orada futbol, başqa oyunlar oynayırlar, trenajorlarda məşq edirlər. Bu, kütləvi xarakter almalıdır. O halda millətimiz sağlam olacaq.

Ona görə görkəmli idmançılara müraciət edərək onları bu işə dəvət edirəm. Bizim mətbuat orqanları gərək bu sahədəki fəaliyyətini gücləndirsinlər. Düzdür, bizim bəzi televiziya kanallarında aerobika, başqa fiziki fəallıqla bağlı verilişlər var. Bu verilişlərdə vətəndaşlara göstərilir ki, idmanın hansı növünü, hansı hərəkətləri ev şəraitində edə bilər. Amma hesab edirəm ki, bu, kifayət deyil. İdman kütləvi xarakter almalıdır, ona görə yox ki, biz daha çox medallar qazanmaq əzmindəyik, - halbuki bu da vacibdir, - ona görə ki, bizim millətimiz sağlam olsun, xəstələnməsin. İdmanla məşğul olan insanlar, buradakı idmançılar bunu öz həyatlarında görürlər. Baxmayaraq ki, iş qrafikim çox gərgindir, mən idmanla müntəzəm, fasiləsiz məşğul oluram. Bəlkə Azərbaycanda məndən çox işləyən adam yoxdur, ancaq buna baxmayaraq, vaxt tapıb idmanla müntəzəm məşğul oluram və bunun xeyrini görürəm. Ona görə mənim tövsiyəm budur. Əminəm ki, yaxın gələcəkdə mənim bu tövsiyələrim əsasında konkret təkliflər olacaqdır, idman kütləviliyi ilə bağlı geniş proqram tutulacaqdır.

İndi bizim böyük şəhərlərdə idman komplekslərimiz var, ancaq kənd yerində bu, yoxdur. Düzdür, bəzi kəndlər şəhərlərə yaxın yerləşir və orada yaşayan uşaqlar, yeniyetmələr idman komplekslərinə gedə bilirlər. Ancaq bəzi ucqar kəndlər var. Ona görə kənd idmanının inkişafı üçün xüsusi proqram tərtib edilməlidir, buna diqqət verilməlidir. Ucqar kəndlərdə yaşayan uşaqlar bəzi hallarda bilmirlər nə ilə məşğul olsunlar. Orada o bölgəyə uyğun olan formada idman qurğuları tikilməlidir, yarışlar keçirilməlidir, rayon yarışları. Nə üçün bizdə rayon yarışları keçirilmir? Hesab edirəm ki, bu, böyük boşluqdur, böyük qüsurdur. Rayon idman yarışları keçirilsin. Bu, həm idmanın inkişafına xeyir verər, həm də idmanın kütləviliyini təmin edər. Ona görə idmanla məşğul olan bütün qurumlara mənim tapşırığım bundan ibarətdir.

O ki qaldı gələcək fəaliyyətimizə, Azərbaycanda bundan sonra da beynəlxalq idman yarışları keçiriləcək. Bu baxımdan bu il əlamətdar il olmuşdur. Bir neçə dünya, Avropa çempionatı keçirilmişdir, gimnastika üzrə, digər idman növləri üzrə. O cümlədən Avropa Gənclər Olimpiya Festivalı keçirilmişdir. Bakı şəhərinə Avropanın bütün ölkələrindən yeniyetmələr, gənclər gəlmişlər. Bildirməliyəm ki, bizim gənclərimiz də yaxşı nəticə göstərmişlər, komanda hesabında 4-cü yerə layiq görülmüşlər. Bu il Bakıda daha bir əlamətdar idman yarışı keçirilib. Futbol üzrə Avropa Liqasının final oyunu ilk dəfə olaraq Azərbaycanda, Bakı Olimpiya Stadionunda keçirilibdir. Bütün təşkilati məsələlər ən yüksək səviyyədə öz həllini tapıb, bunu da mən xüsusilə qeyd etmək istəyirəm. Çünki minlərlə xarici tamaşaçı, xarici qonaq gəlmişdir. Minlərlə qonağın bir gün, iki gün ərzində gəlməsi, əlbəttə ki, bizim üçün müəyyən problemlər yarada bilərdi, ictimai nəqliyyatla, təhlükəsizliklə bağlı. Həmçinin hava limanında təyyarələrin, o cümlədən çarter təyyarələrin enişi ilə bağlı müəyyən problemlər ola bilərdi. Ancaq bütün müvafiq qurumlar, Təşkilat Komitəsi çox səmərəli işləyiblər. Ümumi rəyə əsasən, təşkilati məsələlərə görə Bakı Avroliqa final yarışı nümunə kimi göstərilir. Mən indi başqa şəhərlərdə buna oxşar yarışların keçirilməsi ilə bağlı bir söz demək istəmirəm, ancaq bizə gələn məlumata görə, hətta Çempionlar Liqasının final oyunları bəzi şəhərlərdə bu səviyyədə keçirilmir. Bizdə olan nizam-intizam, qayda-qanun, təşkilati məsələlər, könüllülərin fəaliyyəti, bütün aidiyyəti qurumların birgə fəaliyyəti bunu təmin edibdir.

Gələn il bizdə yenə də mötəbər idman yarışlarının keçirilməsi nəzərdə tutulur. Onların arasında bir nömrəli yarış futbol üzrə Avropa çempionatının dörd oyunudur, onlardan biri dörddəbir finaldır. Artıq tarixlər də bəllidir, hazırlıq işləri də aparılıb, xaricdən gələn çox böyük tamaşaçı auditoriyası olacaq. Əminəm ki, bu yarış da ən yüksək səviyyədə keçiriləcək və Azərbaycan öz imkanlarını, o cümlədən təşkilatçılıq qabiliyyətini bir daha göstərəcəkdir.

Ənənəvi olaraq "Formula-1" yarışı keçiriləcəkdir. Futbol üzrə Avropa çempionatının oyunları ilə "Formula-1" yarışı üst-üstə düşür. Ona görə təşkilati məsələlərlə məşğul olan bütün qurumların üzərinə əlavə məsuliyyət düşür. Gərək bütün bu işləri elə planlaşdıraq ki, bu iki önəmli tədbir bir-birinə maneçilik törətməsin. Ona görə indidən bütün işlər düzgün qurulmalıdır.

"Formula-1" yarışına gəldikdə, deyə bilərəm ki, bu yarışın ölkəmiz üçün çox böyük faydası var. Birincisi, "Formula-1" yarışını keçirən şəhərlər inkişaf etmiş ölkələrin ya paytaxt şəhərləri, ya da ki, böyük şəhərləridir. Onların arasında Bakı şəhərinin mövcudluğu bizim üçün böyük hadisədir. İkincisi, "Formula-1" yarışı ölkəmizə böyük iqtisadi dividendlər gətirir, necə ki, bütün başqa şəhərlərə. Əgər kimsə deyirsə, bu, bizə ziyan vurur, o, ya bilmir, ya da ki, qəsdən işləri təhrif etmək istəyir. Əgər, bu, bizə ziyan vurursa, onda yaxşı, bizimlə bərabər bu yarışı keçirən 20-yə yaxın şəhərə də ziyan vurur, onlar da ziyana işləyirlər? Əlbəttə ki, yox. "Formula-1" yarışının multiplikativ effekti çox böyükdür. Xaricdən gələn minlərlə qonaq burada pul xərcləyir. Bunun iqtisadi cəhətdən çox böyük səmərəsi var. Birinci "Formula-1"dən sonra Azərbaycana kütləvi turist axını başlamışdır. Mən bu tarixləri dəqiq xatırlayıram. Çünki hər ay, yaxud da ki, hər rüb mənə turistlərin gəlişi ilə bağlı məlumat verilib. Beləliklə, birinci yarış keçiriləndən sonra turistlərin sayı 24 faiz artmışdır. Ondan sonrakı il daha 22 faiz, ondan sonrakı il isə daha 5 faiz. Nəhayət, bu il, artıq on bir ayda 11 faiz artmışdır. Tarixdə ilk dəfədir ki, Azərbaycana 3 milyondan çox turist səfər etmişdir. Mən tapşırıq vermişəm, aidiyyəti qurumlar hesablayırlar ki, bu turistlər nə qədər pul xərcləyiblər. Əlbəttə ki, biz bunu həm ödəmə kartları vasitəsilə dəqiq biləcəyik, eyni zamanda, ehtimal olunan pul sərfiyatını da, - bunun da hesablama metodologiyası var, - hər halda bu, milyardlarla manat səviyyəsindədir. Budur, turistlərin gəlişinin ölkə iqtisadiyyatına verdiyi töhfə.

İş yerlərinin yaradılması, xidmət və nəqliyyat sektorlarının inkişafı - bütün bunlar turizmlə bağlıdır. İndi ən inkişaf etmiş ölkələr, hansıların ki, böyük sənaye, kənd təsərrüfatı potensialı var, onlar da hər turist uğrunda mübarizə aparırlar. İnkişaf etmiş ölkələrdə, xüsusilə mənzərəli yerləri çox olan ölkələrdə turistlərin sayı on milyonlarla ölçülür və bundan çox böyük fayda görürlər. Bəzi ölkələrin turizm sektoru aparıcı iqtisadi sektordur. Əlbəttə, bizdə elə deyil. Ancaq bu sektorun inkişafı üçün "Formula-1" yarışının xüsusi əhəmiyyəti vardır. Əlbəttə, Yay Olimpiya Oyunlarına az vaxt qalıb. Hazırlıq son mərhələdədir. Əminəm ki, Azərbaycan idmançıları Tokio Olimpiya Oyunlarında vətənimizi ləyaqətlə təmsil edəcəklər və bizim bayrağımız qaldırılacaq, himnimiz səslənəcək.

Mən bir daha bütün idmançıları, yüksək nəticələr qazanmış idmançıları nailiyyətləri münasibətilə təbrik edirəm. Azərbaycanın bütün idman ictimaiyyətinə yeni uğurlar, yeni qələbələr arzulayıram. Sağ olun.

*Ardı 3-cü səh.*









# Azərbaycan dünyada idman ölkəsi kimi tanınır










*Əvvəli 2-ci səh.*

Sonra Azərbaycanda bədən tərbiyəsinin və idmanın inkişafında xidmətləri olan və 2019-cu ildə yüksək nailiyyətlər qazanan idmançılara və idman mütəxəssislərinə mükafatlar təqdim olundu.

Dövlət başçısı ölkəmizdə idmanın inkişafında xidmətlərinə görə Alaverdi Culfayevə, Yavuz Eminbəyliyə və Ramiz Hacıyevə Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünün verilməsi haqqında sənədləri təqdim etdi.

Azərbaycanda idmanın inkişafında xidmətlərinə görə Paşa Əliyev, Tərlan Həsənov, Şahlar Mustafayev, Azər Həsənov, İqdam Ələkbərov, Tofiq Heydərov və Böyükağa Ağayev Əməkdar bədən tərbiyəsi və idman xadimi, idman səhiyyəsinin inkişafındakı xidmətlərinə görə Natiq Əliyev və Emiliya Hüseynovaya Əməkdar həkim, Rəşad Cavadova isə Əməkdar jurnalist fəxri adlarının vəsiqələri təqdim olundu.

Tədbirdə Pərviz Tağıyev, Ramiz Quliyev, Nazim Səmədov, Orxan Qəribov, Yalçın Qaralı, Şahin Mahmudov, Nadir Əzizov və Ramil Əhmədov Milli Olimpiya Komitəsi Prezidentinin fəxri fərmanları ilə təltif edildilər.

Prezident İlham Əliyev 2019-cu ildə yüksək nailiyyətlər göstərmiş bir qrup idmançıya və idman mütəxəssisinə - Salman Əlizadə, Bəhram Mürvətov, Qərib Əliyev, Rəşad Məmmədov, Ramiz Ramizzadə, Bəhruz Salehli, Səbinə Məmmədova, Elxan Süleymanov, Səid Quliyev, Əbülfəz Məmmədov, Rəşad Əbdürrəhmanov, Vladislav Qədirov, Anar Allahverdiyev, Xanım Balacayeva, Kərim Sərdarov, Emil Həsənov, Kamil Qafarov, Ceyhun Hüseynov, Asiman Qurbanlı, Cabbar Mustafayev, Faiq Quliyev, Şahbandlu Rəcəbzadə və Səməd Qurbanova yeni mənzillərin orderlərini təqdim etdi.

Daha sonra Milli Olimpiya Komitəsinin İcraiyyə Komitəsinin üzvü, Miniatür Kitab Muzeyinin təsisçisi və rəhbəri, Əməkdar incəsənət xadimi Zərifə Salahova Azərbaycan Prezidenti İlham Əliyevə xatirə hədiyyələri təqdim edərək dedi: Sizin fəaliyyətiniz və Birinci vitse-prezidentin fəaliyyəti respublikanın inkişafı ilə bağlıdır. Bundan qiymətli heç nə ola bilməz!

## Azərbaycan Respublikasında idmanın inkişafında xidmətləri olan bir qrup şəxsə fəxri adların verilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycanda idmanın inkişafında xidmətləri olan aşağıdakı şəxslərə Azərbaycan Respublikasının fəxri adları verilsin:

**"Əməkdar bədən tərbiyəsi və idman xadimi"**

Ağayev Böyükağa Məmməd oğlu
Ələkbərov İqdam Əli oğlu
Əliyev Paşa İbrahim oğlu
Heydərov Tofiq Mirhəsən oğlu
Həsənov Azər Camal oğlu
Həsənov Tərlan Əliheydər oğlu
Mustafayev Şahlar Gülməhəmməd oğlu
Sultanova Sara Oqtay qızı

**"Əməkdar həkim"**

Əliyev Natiq Avil oğlu
Hüseynova Emiliya Əşrəf qızı

**"Əməkdar jurnalist"**

Cavadov Rəşad Qəmərşah oğlu.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 19 dekabr 2019-cu il*

## Azərbaycan Respublikasının idman mütəxəssislərinə Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünün verilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq və "Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünün təsis edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 11 iyun tarixli 715 nömrəli Fərmanına uyğun olaraq **qərara alıram:**

1. Azərbaycanda idmanın inkişafında xidmətləri olan aşağıdakı şəxslərə Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdü verilsin:

Culfayev Alavərdi Abasoviç
Eminbəyli Yavuz İbrahimoviç
Hacıyev Ramiz Məmməd Kərim oğlu.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 19 dekabr 2019-cu il*

# Dinlərarası dialoqun inkişafı yolunda Azərbaycan beynəlxalq müstəvidə böyük səylər göstərir

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 25-də İsrailin ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Corc Dikin etimadnaməsini qəbul edib.**



AZƏRTAC xəbər verir ki, səfir Corc Dik fəxri qarovul dəstəsinin qarşısından keçdi.

Corc Dik etimadnaməsini Prezident İlham Əliyevə təqdim etdi.

Sonra Azərbaycan Prezidenti İlham Əliyev səfirlə söhbət etdi.

Corc Dik ölkəmizdə səfir təyin olunmasından məmnunluğunu ifadə edərək Azərbaycanda mövcud olan multikultural və tolerant mühitin onda dərin təəssürat yaratdığını diqqətə çatdırdı.

Prezident İlham Əliyev dinlərarası dialoqun inkişafı yolunda Azərbaycanın beynəlxalq müstəvidə böyük səylər göstərdiyini və uğurlu addımlar atdığını bildirərək bunun dünya birliyi tərəfindən yüksək qiymətləndirildiyini



vurğuladı. Dövlət başçısı Azərbaycanda bütün dinlərin və millətlərin nümayəndələrinin dinc və mehriban şəraitdə yaşadığını məmnunluqla qeyd etdi.

Görüşdə iqtisadi, ticarət, turizm, humanitar, kənd təsərrüfatı sahələrində əməkdaşlığa dair fikir mübadiləsi aparıldı.

# <u>*Salima ABDELHAK:*</u> "Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan xarici siyasət sahəsində uğurlar əldə edib"

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 25-də Əlcəzairin ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri xanım Salima Abdelhakın etimadnaməsini qəbul edib.**



AZƏRTAC xəbər verir ki, səfir Salima Abdelhak fəxri qarovul dəstəsinin qarşısından keçdi.

Səfir etimadnaməsini Prezident İlham Əliyevə təqdim etdi.

Sonra Azərbaycan Prezidenti İlham Əliyev səfirlə söhbət etdi. Əlcəzairin Azərbaycanda ilk qadın səfiri olduğunu deyən Salima Abdelhak Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın xarici siyasət sahəsində uğurlar əldə etdiyini bildirərək bu münasibətlə təbriklərini çatdırdı. O bildirdi ki, Bakının əsrarəngiz gözəlliyi buraya gələn turistləri valeh edir və buradakı çox böyük inkişaf prosesləri dərin təəssürat doğurur.

Səfir, eyni zamanda, Azərbaycanda mühüm beynəlxalq tədbirlərin də yüksək səviyyədə təşkil olunduğunu məmnunluqla qeyd etdi. Salima Abdelhak qadın səfir olaraq Azərbay-



can Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın Azərbaycanın inkişafı naminə fəaliyyətindən fəxr hissi keçirdiyini vurğuladı.

Görüşdə ölkələrimiz arasında iqtisadi, ticarət, turizm, elm-təhsil, tələbə mübadiləsi və digər sahələrdə əməkdaşlıq məsələləri ətrafında müzakirələr aparıldı.

## "Vəkil günü" peşə bayramının təsis edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Hər il dekabrın 28-i Azərbaycan Respublikasında "Vəkil günü" peşə bayramı kimi qeyd edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 25 dekabr 2019-cu il*

# Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Hörmətli cənab Prezident!

Ad gününüz münasibətilə Sizə ən səmimi təbriklərimi çatdırır, cansağlığı, ailə səadəti, ali dövləti fəaliyyətinizdə uğurlar arzulayıram.

Bu xoş fürsətdən istifadə edərək, Monteneqro ilə Azərbaycan arasında əməkdaşlıq əlaqələrinin inkişafına göstərdiyiniz diqqətə görə minnətdarlığımı bildirirəm.

Sizinlə gələcək görüşlərimizi səbirsizliklə gözləyir, müdrik rəhbərliyinizlə dost Azərbaycanın inkişafından məmnunluq duyuram.

Zati-aliləri, ən dərin ehtiramımı, səmimi təbriklərimi və salamlarımı qəbul etməyinizi xahiş edirəm.

*Hörmətlə,*

***Milo CUKANOVİÇ,***
***Monteneqronun Prezidenti***

❖ ❖ ❖

Hörmətli cənab Prezident, əziz dostum.

Doğum gününüz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edir və ən xoş arzularımı ifadə edirəm.

İnanıram ki, Bosniya və Herseqovina ilə Azərbaycan Respublikası arasında dostluq əlaqələri, qarşılıqlı maraq doğuran sahələrdə əməkdaşlığımız bundan sonra da inkişaf edəcək və genişlənəcəkdir.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik və fəaliyyətinizdə uğurlar arzulayıram.

*Dərin hörmətlə,*

***Şefik CAFEROVİÇ,***
***Bosniya və Herseqovinanın Rəyasət Heyətinin üzvü***

❖ ❖ ❖

Zati-aliləri!

Sizi doğum gününüz münasibətilə təbrik etməkdən, Zati-alinizə böyük uğurlar və firavanlıq arzulamaqdan şərəf duyuram.

Bu xoş fürsətdən istifadə edərək, son görüşümüzdə göstərdiyiniz qonaqpərvərliyə görə Sizə təşəkkür edirəm. Ümidvaram ki, gələcəkdə də xalqlarımıza fayda gətirəcək əməkdaşlığımızı davam etdirəcəyik.

Hörmətli cənab Prezident, xahiş edirəm, doğum gününüzlə əlaqədar xoş arzularımı və dərin ehtiramımı qəbul edin.

*Hörmətlə,*

***Milorad DODİK,***
***Bosniya və Herseqovinanın Rəyasət Heyətinin üzvü***

❖ ❖ ❖

Hörmətli cənab Prezident!

Doğum gününüz münasibətilə səmimi təbriklərimi və ən xoş arzularımı qəbul edin. Sizə və doğmalarınıza möhkəm cansağlığı, xoşbəxtlik, məsul dövləti fəaliyyətinizdə uğurlar arzulayıram.

Mən Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin İdarə Heyətinin üzvü kimi təşkilatın missiyasına göstərdiyiniz əvəzsiz dəstəyə və sadiqliyə görə Sizə öz minnətdarlığımı bildirmək istərdim. Nizami Gəncəvi Beynəlxalq Mərkəzi Sizin himayənizlə dünyada böyük nüfuz qazanıb. Siyasi arenada mühüm əhəmiyyət kəsb edən beynəlxalq təsisata çevrilmiş bu mərkəz Azərbaycanın dünyada ən yaxşı səfiridir.

Dünyanın qeyri-sabitlik və nizamsızlıq dövrünə qədəm qoyduğu ərəfədə təşkilatın sülh, tolerantlıq, dialoq və anlaşmanın təşviq olunması kimi nəcib missiyası həmişəkindən daha böyük əhəmiyyət kəsb edir. Biz birlikdə övladlarımız üçün vacib bildiyimiz sülh, tolerantlıq və anlaşma kimi dəyərlərə dəstək verməyə davam edəcəyik.

Sizə olan ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

*Hörmətlə,*

***Rosen PLEVNELİEV,***
***Bolqarıstan Respublikasının sabiq Prezidenti (2012-2017), Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin Qəyyumlar Şurasının üzvü***

❖ ❖ ❖

Zati-aliləri.

Ailəmiz doğum gününüz münasibətilə Sizə ən xoş arzularını çatdırır. Həyatınızın bütün illəri sevinc və müvəffəqiyyətlə dolu hadisələrlə yadda qalsın. Allahdan Sizə və ailənizin hər bir üzvünə möhkəm cansağlığı diləyirəm.

Ad gününüz mübarək!

*Hörmətlə,*

***Ukraynanın sabiq Prezidenti Viktor YUŞŞENKO və xanımı Katerina YUŞŞENKO,***
***Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin üzvləri***

❖ ❖ ❖

Möhtərəm cənab Prezident.

Heydər Əliyev ilə dostluq münasibətlərimiz 45 il bundan əvvəl yaranmışdı. Onun dövründə Azərbaycan çox şanlı inkişaf yolu keçdi. Azərbaycanın daha da firavanlaşmasının təməli qoyuldu.

Böyük sevinc hissi ilə qeyd etmək istəyirəm ki, onun oğlu, hazırkı Prezident İlham Əliyev bu fəaliyyəti uğurla davam etdirir. Onun dövründə Azərbaycan inkişaf etmiş dövlətə, həm regionda, həm də dünyada nüfuzlu qüvvəyə çevrilib. Buna ən yaxşı nümunələrdən biri Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin sürətlə genişlənən fəaliyyəti və artan nüfuzudur.

Doğum gününüz münasibətilə Sizi ürəkdən təbrik edir, cansağlığı və Azərbaycanı firavanlaşma yolu ilə irəli aparmaq üçün qüvvə arzulayıram.

*Hörmətlə,*

***Pyotr LUÇİNSKİ,***
***Moldovanın sabiq Prezidenti***

❖ ❖ ❖

Hörmətli cənab Prezident.

Zati-alinizi doğum günü münasibətilə təbrik etməkdən şərəf duyuram.

Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin üzvü olmaq böyük fəxrdir. Mərkəz sülh, tərəqqi və rifahın təşviqində mühüm rol oynayır. İnsanların həyat səviyyəsinin, təhsilinin yaxşılaşdırılmasına, tərəqqi və inkişaf üçün yeni imkanlar açılmasına dəstək verən Sizin kimi liderlərə dünyanın böyük ehtiyacı var.

Zati-aliləri, Siz sülh, tolerantlıq və geniş düşüncənin rəmzisiniz.

Biz Sizin nəcib təşəbbüslərinizin iştirakçısı olduğumuz üçün qürur duyur və Sizə davamlı uğurlar arzulayırıq.

***Şövkət ƏZİZ,***
***Pakistanın sabiq Baş Naziri (2004-2007), Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin üzvü***

❖ ❖ ❖

Zati-aliləri, möhtərəm Prezident İlham Əliyev.

Doğum gününüz münasibətilə Sizi təbrik edir, uzun ömür, möhkəm cansağlığı və firavan həyat arzulayıram.

Dövlət xadimi kimi, Siz üzərinizə öz xalqınızı irəli aparmaq, insanlığın təməl dəyərləri olan sülh və azadlığa nail olmaq kimi mühüm missiya götürmüsünüz.

Fürsətdən istifadə edərək Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin dünya miqyasında əldə etdiyi uğurlara görə Sizi səmimi-qəlbdən təbrik etmək istərdim.

Qadir Allah Sizi, ailənizi və böyük Azərbaycan xalqını qorusun.

*Dostunuz,*

***Ehud BARAK,***
***İsrailin sabiq Baş Naziri (1999-2001), Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin üzvü***

❖ ❖ ❖

Hörmətli cənab Prezident.

Doğum gününüz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edir, möhkəm cansağlığı, uğurlar və xoşbəxtlik arzulayıram.

Ölkənizin tolerantlıq diyarına çevrilməsi istiqamətində nümayiş etdirdiyiniz sadiqliyi və səyləri yüksək qiymətləndirirəm. Sizin müxtəlif millətlərin və dinlərin nümayəndələrinin sülh və dostluq şəraitində birgə yaşamasına dəstək göstərməyiniz və bunu təşviq etməyiniz dünya ölkələri üçün gözəl nümunədir. Siz həqiqətən də Nizami Gəncəvinin intellektual irsinin və təfəkkürünün layiqli davamçısısınız.

Sizə və ailənizə ən səmimi arzularımı qəbul etməyinizi xahiş edirəm.

*Səmimiyyətlə,*

***Peter MEDGYESSİ,***
***Macarıstanın sabiq Baş Naziri, Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin üzvü***

❖ ❖ ❖

Hörmətli cənab Prezident!

Doğum gününüz münasibətilə Zati-alinizə möhkəm cansağlığı, xoşbəxtlik, yeni-yeni uğurlar arzulayıram.

Dahi Azərbaycan şairi Nizami Gəncəvinin irsinin dünyada təbliği işinə verdiyiniz dəstəyə görə Sizə minnətdaram. Beynəlxalq mərkəzimizin bu istiqamətdə fəaliyyətinə verdiyiniz dəstəyi yüksək qiymətləndiririk. Sizin rəhbərliyinizlə Azərbaycanın və Bakının sürətlə dəyişdiyini görmək mənim üçün çox xoşdur.

Sizi doğum gününüz münasibətilə bir daha təbrik edirəm.

***İsmail SERAGELDİN,***
***Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri, Dünya Bankının vitse-prezidenti (1992-2000), Misirin İsgəndəriyyə Kitabxanasının sabiq direktoru***

❖ ❖ ❖

Hörmətli cənab Prezident!

Doğum gününüz münasibətilə Sizə ən xoş və səmimi arzularımı çatdırıram. Azərbaycanın daha da inkişaf etmiş, müasir, açıq və tolerant ölkəyə çevrilməsi istiqamətində gördüyünüz işlərin davamlı olmasını diləyir, İtaliya və Avropa ilə dostluğun daha da möhkəmlənməsi işində Sizə uğurlar arzulayıram.

Cənab Prezident, Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin Sizin himayənizlə keçirilən son iclası Azərbaycanın təşkilatımızla əlaqələrə sadiqliyini bir daha təcəssüm etdirdi.

***Linda LANZİLOTTA,***
***İtaliya Senatının vitse-spikeri (2013-2018), Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin üzvü***

❖ ❖ ❖

Hörmətli cənab Prezident!

Doğum gününüz münasibətilə Sizə təbriklərimi və xoş arzularımı çatdırıram. Tanrıdan Sizə möhkəm cansağlığı və Azərbaycanın daha da inkişafı naminə yorulmaz fəaliyyətinizdə uğurlar diləyirəm.

Cənab Prezident, Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin Roma şəhərində çox uğurla keçirilən yüksək səviyyəli görüşünə verdiyiniz dəstəyə görə Sizə minnətdarlığımı bildirirəm.

*Ən xoş arzularla,*

***Franko FRATTİNİ,***
***İtaliyanın sabiq xarici işlər naziri***

❖ ❖ ❖

Möhtərəm İlham Heydər oğlu.

Doğum gününüz münasibətilə ən səmimi təbriklərimi qəbul edin.

Sizin siyasi müdrikliyiniz və böyük həyat təcrübəniz, dərin bilikləriniz, rəhbər və dövlət xadimi istedadınız haqlı olaraq Sizə təkcə Azərbaycanda deyil, həm də bütün dünyada hörmət qazandırıb.

İcazə verin, fürsətdən istifadə edərək Böyük Vətən müharibəsinin xalqlarımızın tarixinə yazdığı qəhrəmanlıq və faciə səhifələri haqqında xatirənin qorunub saxlanması ilə bağlı çox mühüm məsələlərin həllində göstərdiyiniz köməyə və dəstəyə görə Sizə bir daha təşəkkürümü bildirim.

Möhtərəm İlham Heydər oğlu.

Sizə səmimi qəlbdən möhkəm cansağlığı, xoşbəxtlik və əmin-amanlıq, Azərbaycanın rifahı, ölkələrimizin xalqları arasında dostluq və əməkdaşlığın möhkəmlənməsi naminə səmərəli fəaliyyətinizdə yeni uğurlar diləyirəm.

*Hörmətlə,*

***Nikolay RIJKOV,***
***Rusiya Federasiyası Federal Məclisinin Federasiya Şurasının üzvü***

❖ ❖ ❖

Hörmətli İlham Heydər oğlu!

Doğum gününüz münasibətilə ürəkdən gələn ən səmimi təbriklərimi qəbul edin.

Sizə möhkəm cansağlığı, çoxmillətli Azərbaycanın inkişafı naminə ali dövləti vəzifənizdə uğurlar, Zati-alinizə və yaxınlarınıza firavanlıq, xoşbəxtlik diləyirəm.

*Dərin hörmətlə,*

***Ruslan AUŞEV,***
***Rusiya Federasiyası İnquş Respublikasının birinci Prezidenti, Sovet İttifaqı Qəhrəmanı***

❖ ❖ ❖

Əziz qardaşım, hörmətli İlham Əliyev!

Doğum gününüz münasibətilə ən səmimi təbriklərimi qəbul etməyinizi xahiş edirəm.

Sizin uzaqgörən və müdrik liderliyinizlə Azərbaycan Respublikasının sosial-iqtisadi sahədə islahatlar yolu ilə daim inkişaf etməsini arzu edirəm.

Cənab Prezident, 2019-cu ilin sentyabrında Nyu York şəhərində BMT-nin Baş Assambleyası çərçivəsində Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin Robert F.Kennedi İnsan Hüquqları Fondu ilə birgə təşkil etdiyi “Davamlı inkişaf problemi dövründə geosiyasət” mövzusundakı toplantısı məndə dərin təəssürat yaratdı.

Zati-aliləri, doğum gününüz münasibətilə Sizi bir daha səmimi-qəlbdən təbrik edirəm.

*Hörmətlə,*

***Kailaş SATYARHİ,***
***Kailaş Satyarhi Fondunun təsisçisi, Nobel Sülh mükafatı laureatı***

❖ ❖ ❖

Zati-aliləri, cənab Prezident!

Sizi doğum gününüz münasibətilə Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin üzvləri adından və şəxsən öz adımdan səmimi-qəlbdən təbrik edir, Sizə həyatın ən gözəl nemətləri olan möhkəm cansağlığı, tükənməz enerji, xoşbəxtlik və rifah diləyirəm. Tanrı Sizi və ailənizi daim qorusun. Xalqınızın və bəşəriyyətin rifahı və əmin-amanlığı naminə bütün nəcib təşəbbüslərinizin həyata keçməsini arzu edirəm.

İcazə verin, Nizami Gəncəvi Beynəlxalq Mərkəzinə və onun beynəlxalq fəaliyyətinə göstərdiyiniz davamlı dəstəyə görə Sizə dərin minnətdarlığımı bildirim.

*Hörmətlə,*

***Kerri KENNEDİ,***
***Robert F.Kennedi İnsan Hüquqları Fondunun prezidenti, Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin Qəyyumlar Şurasının üzvü***

❖ ❖ ❖

Möhtərəm İlham Heydər oğlu!

Doğum gününüz münasibətilə ən səmimi təbriklərimi qəbul edin.

Sizin çoxşaxəli fəaliyyətiniz müasir, suveren və çiçəklənən Azərbaycanın təşəkkülü üçün böyük əhəmiyyət kəsb edir. Siz aydın baxışınız və sarsılmaz iradəniz sayəsində müasir dövrün çoxsaylı siyasi və iqtisadi çağırışlarını dəf edərək milli birliyin, mənəvi dəyərlərin möhkəmlənməsində, ölkədə siyasi sabitliyin və davamlı iqtisadi inkişafın təmin edilməsində çox böyük uğurlar qazanmısınız. Sizin Azərbaycan xalqına sədaqətiniz və öz ölkənizə ləyaqətlə xidmət etməyiniz dahi atanız Heydər Əliyevin işinin davamıdır.

Bu əlamətdar gündə Zati-alinizə səmimi-qəlbdən möhkəm cansağlığı, Azərbaycan xalqının rifahı naminə fəaliyyətinizdə uğurlar, Sizə və yaxınlarınıza firavanlıq diləyirəm.

*Səmimi hörmətlə,*

***İlyas UMAXANOV,***
***Rusiya Federasiyası Federal Məclisinin Federasiya Şurası sədrinin müavini***

❖ ❖ ❖

Hörmətli İlham Heydər oğlu!

Ad gününüz münasibətilə səmimi təbriklərimi qəbul edin.

Siz beynəlxalq aləmdə ölçülüb-biçilmiş və konstruktiv qərarlar qəbul etməyi bacaran parlaq siyasətçi kimi yüksək nüfuz qazanmısınız. Rusiya ilə Azərbaycanı həmişə möhkəm dostluq və qarşılıqlı faydalı əməkdaşlıq telləri bağlayıb. Əminəm ki, ölkələrimiz strateji tərəfdaşlığın dərinləşməsi yolunu bundan sonra da davam etdirəcəklər.

Sizə Azərbaycan xalqının rifahı naminə fəaliyyətinizdə uğurlar, xoşbəxtlik, cansağlığı və firavanlıq arzu edirəm.

*Hörmətlə,*

***Sergey MİRONOV,***
***Rusiya Dövlət Dumasının “Spravedlivaya Rossiya” fraksiyasının rəhbəri***

❖ ❖ ❖

Hörmətli cənab Prezident!

Doğum gününüz münasibətilə səmimi təbriklərimi qəbul edin.

Sizə Azərbaycan xalqının rifahı naminə məsul və çoxşaxəli dövləti fəaliyyətinizdə, Rusiya-Azərbaycan əlaqələrinin bundan sonra da möhkəmlənməsində, ölkələrimizin regionları arasında qarşılıqlı faydalı uzunmüddətli əməkdaşlığın inkişaf etdirilməsində uğurlar arzulayıram.

Sizə möhkəm cansağlığı, sülh və firavanlıq diləyirəm.

*Dərin hörmətlə və ən xoş arzularla,*

***Andrey BOÇAROV,***
***Rusiya Federasiyası Volqoqrad vilayətinin qubernatoru***

❖ ❖ ❖

Zati-aliləri, cənab Prezident!

Doğum gününüz münasibətilə Türkdilli Ölkələrin Parlament Assambleyasının Katibliyi adından və şəxsən öz adımdan Sizə ən səmimi təbriklərimi çatdırmaqdan böyük şərəf duyuram. Həmçinin qarşıdan gələn Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il münasibətilə Zati-alinizə təbriklərimi və ən xoş arzularımı çatdırıram.

Sizin rəhbərliyiniz və yorulmaz səyləriniz sayəsində beynəlxalq aləmdə öz yerini tutmuş Azərbaycan siyasi, sosial-iqtisadi və mədəni sahələrdə uğurlu nailiyyətlər qazanaraq regionun aparıcı dövlətlərindən birinə çevrilmişdir. Multikulturalizmin və tolerantlığın örnək modelinin formalaşdığı Azərbaycan Assambleyamızda da fəal təmsil olunaraq regional əməkdaşlığa, eləcə də Avrasiya regionunda sülh və təhlükəsizliyə önəmli töhfəsini verməkdədir.

Türkdilli Ölkələrin Parlament Assambleyasının Katibliyinə daim göstərdiyiniz hərtərəfli diqqət və dəstəyinizə görə Sizə dərin minnətdarlığımı bildirirəm. Əminliklə qeyd etmək istərdim ki, Sizin məqsədyönlü fəaliyyətiniz türkdilli ölkələr arasında əməkdaşlığın dərinləşməsinə mühüm töhfəsini verməkdə davam edəcəkdir.

Bu xoş fürsətdən istifadə edərək, Sizə və ailənizə möhkəm cansağlığı, xoşbəxtlik və ali dövləti fəaliyyətinizdə uğurlar, qardaş Azərbaycan xalqına sülh, rifah və tərəqqi arzu edirəm.

*Yüksək hörmət və ehtiramla,*

***Altınbek MAMAYUSUPOV,***
***Türkdilli Ölkələrin Parlament Assambleyasının baş katibi***

❖ ❖ ❖

Hörmətli cənab Prezident!

İcazə verin, Ümumdünya Dağ Yəhudiləri Konqresi adından Sizi ad gününüz münasibətilə təbrik edim, Sizə hörmət və ehtiramımı, çox sevdiyimiz, əziz, gözəl ölkə olan Azərbaycan Respublikasının Prezidenti vəzifəsində fəaliyyətinizə heyran olduğumuzu bildirim.

Biz beynəlxalq səviyyədə dəfələrlə bəyan edirik ki, Azərbaycan tolerantlığın və dini dözümlülüyün əyani nümunəsidir, burada müxtəlif xalqların və dini konfessiyaların nümayəndələri əsrlər boyu sülh və həmrəylik şəraitində yaşayıblar və yaşayacaqlar. Dağ yəhudilərinin Azərbaycanla bağlı çoxəsrlik tarixi buna sübutdur. Bu gün Azərbaycan ilə dağ yəhudiləri arasındakı dostluq tellərini həqiqətən qardaşlıq adlandırmaq olar.

Konfessiyalararası münasibətlərin möhkəmlənməsi işində görkəmli xidmətlərinizə və səylərinizə görə Sizə təşəkkür edirik. Bütün Azərbaycan xalqı üçün bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, ailə səadəti, planlarınızın və ideyalarınızın həyata keçməsini arzulayırıq.

*Dərin hörmət və ehtiramla,*

***Akif HİLALOV,***
***Moskva şəhərindən Ümumdünya Dağ Yəhudiləri Konqresinin rəhbəri***

❖ ❖ ❖

Hörmətli İlham Heydər oğlu!

Doğum gününüz münasibətilə ən səmimi təbriklərimi və ən xoş arzularımı qəbul edin. Sizi uzun illərdir tanıyan Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunun bütün əməkdaşları da sevinclə mənim bu təbrikimə qoşulurlar.

Hörmətli İlham Heydər oğlu, Azərbaycan Respublikasının lideri kimi Sizin bütün xidmətləriniz ən yüksək qiymətə layiqdir. Sizi tanıyanların hamısı qeyd edir ki, Siz uzaqgörən dövlət xadimi, müdrik rəhbər, öz işinə ürəkdən sadiq olan, vətəndaşlarının rifahı üçün bütün varlığı ilə çalışan insansınız.

İcazə verin, ad gününüz münasibətilə Sizi bir daha təbrik edim. Sizə möhkəm cansağlığı, xoşbəxtlik, nəcib fəaliyyətinizdə sədaqətli məsləkdaşlar və etibarlı dostlar arzulayıram.

*Dərin hörmətlə,*

***Anatoli TORKUNOV,***
***Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunun rektoru, Rusiya Elmlər Akademiyasının akademiki***

❖ ❖ ❖

Hörmətli İlham Heydər oğlu!

Beynəlxalq Uşaq Fondları Assosiasiyası adından və şəxsən öz adımdan doğum gününüz münasibətilə ən səmimi təbriklərimi qəbul edin.

Sizə səmimi-qəlbdən möhkəm cansağlığı, firavanlıq, tükənməz enerji, xalqınızın və Azərbaycan uşaqlarının rifahı naminə bütün təşəbbüslərinizdə yeni uğurlar arzulayıram. Ümidvaram ki, uşaqların müdafiəsi istiqamətində səmərəli əməkdaşlığımız bundan sonra da davam edəcək.

*Hörmətlə,*

***Albert LİXANOV,***
***Beynəlxalq Uşaq Fondları Assosiasiyasının prezidenti, yazıçı, akademik***

❖ ❖ ❖

Möhtərəm İlham Heydər oğlu!

Doğum gününüz münasibətilə Rusiyanın TASS İnformasiya Agentliyi adından və şəxsən öz adımdan ən səmimi təbriklərimizi qəbul etməyinizi xahiş edirəm.

Siz həqiqətən müasir dövrün ən görkəmli xadimləri sırasına daxil olan, böyük siyasi istedada malik unikal və genişmiqyaslı şəxsiyyətsiniz. Uzun illərdir ki, Azərbaycan Sizin liderliyiniz və müdrikliyiniz sayəsində inkişaf edir və dünyada çox mühüm yer tutur.

Bu əlamətdar gündə Sizə və yaxınlarınıza firavanlıq, xoşbəxtlik, cansağlığı, müvəffəqiyyət və böyük uğurlar arzu edirəm. Sizə və Azərbaycan xalqına sülh və əmin-amanlıq diləyirəm.

*Hörmətlə,*

***Mixail QUSMAN,***
***TASS İnformasiya Agentliyinin baş direktorunun birinci müavini***

❖ ❖ ❖

Möhtərəm İlham Heydər oğlu!

Həmkarlar İttifaqlarının Ümumi Konfederasiyası adından və şəxsən öz adımdan Sizi ad gününüz münasibətilə ürəkdən təbrik edirəm.

Bu gün Azərbaycanda bütün sahələrdə müşahidə olunan sanballı nailiyyətlər istedadlı xalqınızın yaradıcı əməyinin bəhrəsi, ölkənin təbii sərvətlərinin regional miqyasda mənimsənilməsinin, istehsal və elmi potensialının daim təkmilləşdirilməsinin nəticəsidir. Azərbaycanın yeni uğurlara doğru inamla irəliləməsi Sizin işləyib hazırladığınız, XXI əsrin çağırışlarına cavab verən milli inkişaf strategiyasına uyğun olaraq həyata keçirilir.

Möhtərəm İlham Heydər oğlu, bu siyasi kurs Azərbaycan vətəndaşlarının Sizə Prezident və tanınmış lider kimi çox böyük etimadına əsaslanır.

Fürsətdən istifadə edərək, həmkarlar ittifaqları hərəkatının fəaliyyətinə göstərdiyiniz daimi dəstəyə görə Sizə bir daha dərin minnətdarlığımı bildirmək istərdim.

Möhtərəm İlham Heydər oğlu, xahiş edirəm, ən xoş arzularımı, möhkəm cansağlığı, xoşbəxtlik və firavanlıq diləklərimi qəbul edin.

*Dərin hörmətlə,*

***Vladimir ŞERBAKOV,***
***Həmkarlar İttifaqları Ümumi Konfederasiyasının baş katibi***

❖ ❖ ❖

Hörmətli İlham Heydər oğlu!

Ad gününüz münasibətilə ən xoş təbriklərimi qəbul edin. Azərbaycan Respublikasının sabitliyinin və iqtisadi inkişafının təmin edilməsi istiqamətində planlarınızın bundan sonra da uğurla reallaşması üçün Sizə tükənməz enerji, möhkəm cansağlığı, ətrafınızda daim etibarlı həmfikirlər və dostlar olmasını arzulayıram.

*Hörmətlə,*

***Vladimir LİSİN,***
***Beynəlxalq İdman Atıcılığı Federasiyasının prezidenti***

❖ ❖ ❖

Zati-aliləri, hörmətli Prezidentimiz!

Doğum gününüz münasibətilə Sizi “Mərmərə Qrupu” Strateji və Sosial Araşdırmalar Vəqfi adından və şəxsən öz adımdan səmimi-qəlbdən təbrik edirəm.

Sizə cansağlığı, xoşbəxtlik diləyir, Zati-alinizə və ailənizə ən dərin ehtiramımızı çatdırıram.

*Böyük hörmətlə,*

***Akkan SUVER,***
***Türkiyənin “Mərmərə Qrupu” Strateji və Sosial Araşdırmalar Vəqfinin sədri***

❖ ❖ ❖

Möhtərəm cənab Prezident!

İcazə verin, Sizi doğum gününüz və Dünya Azərbaycanlılarının Həmrəylik Günü münasibətilə Rusiya Notariuslar Assosiasiyası adından və şəxsən öz adımdan təbrik edim, Sizə möhkəm cansağlığı, xoşbəxtlik və doğma Azərbaycan naminə yeni uğurlar diləyim.

Bu gün həmvətənləriniz, dostlarınız və məsləkdaşlarınız Sizin çox gərgin fəaliyyətinizi böyük diqqət və nikbinliklə izləyir, Azərbaycan Respublikasının siyasi-iqtisadi sistemində həyata keçirdiyiniz islahatları hərtərəfli dəstəkləyirlər.

Bu mövzu həm də bizim peşə təşkilatımızın nümayəndələrinin Azərbaycandan olan, tarixi Vətənimizi ləyaqətlə təmsil edən və ədliyyə orqanlarının fəaliyyətinin müasir, yüksək səviyyədə təşkilini nümayiş etdirən həmkarlarımızla müxtəlif beynəlxalq forumlardakı görüşlərində maraqlı müzakirə predmetinə çevrilib.

Möhtərəm İlham Heydər oğlu!

Sizə çox çətin fəaliyyətinizdə yeni uğurlar diləyir və nəzərdə tutulan planların həyata keçməsini səmimi-qəlbdən arzulayıram.

Qoy qarşıdan gələn il Sizin üçün və doğma Azərbaycan üçün uğurlu, parlaq hadisələrlə, yeni xeyirxah işlər və nailiyyətlərlə zəngin olsun.

Sizə və yaxınlarınıza xoşbəxtlik və əmin-amanlıq, gözəl yeni il əhvali-ruhiyyəsi arzu edirəm.

*Dərin hörmətlə,*

***Natiq AĞAMİROV,***
***Rusiya Notariuslar Assosiasiyasının sədri, professor***

❖ ❖ ❖

Zati-aliləri!

Doğum gününüz münasibətilə “Mir” Dövlətlərarası Teleradio Şirkəti adından və şəxsən öz adımdan ən səmimi təbriklərimizi qəbul edin.

İzin verin, Sizə möhkəm cansağlığı, nikbinlik, tükənməz yaradıcı enerji, firavanlıq və Azərbaycan Respublikasının rifahı naminə bundan sonra da səmərəli fəaliyyət arzulayım.

Qoy doğmalarınız həmişə yanınızda olsunlar, qayğı və diqqətləri ilə Sizi sevindirsinlər. Sizə və yaxınlarınıza əmin-amanlıq diləyirəm.

*Səmimi hörmətlə,*

***Radik BATIRŞİN,***
***“Mir” Dövlətlərarası Teleradio Şirkətinin sədri***

❖ ❖ ❖

Əziz İlham Heydər oğlu!

Sizi doğum gününüz münasibətilə səmimi-qəlbdən təbrik edirəm. Sizə möhkəm cansağlığı, ailə səadəti, tükənməz həyat əzmi, ölkənizin və xalqınızın rifahı naminə ali dövləti fəaliyyətinizdə daha böyük uğurlar diləyirəm.

Biz, dostlarınız Sizin rəhbərliyinizlə Azərbaycanın istər ölkə daxilində, istərsə də beynəlxalq arenada qazandığı uğurları ilə səmimi-qəlbdən fəxr edirik.

Əziz İlham Heydər oğlu, Sizi bir daha əmin etmək istəyirik ki, bizə verilən hər hansı tapşırığı yerinə yetirməyə hazırıq.

İcazə verin, Sizə bir daha ən xoş diləklərimi çatdırım, planlarınızın və ideyalarınızın tezliklə həyata keçməsini arzu edim.

*Hörmətlə,*

***Yuri ÇAXUNAŞVİLİ,***
***“SOCAR Energy Georgia” MMC-nin baş direktorunun müşaviri***

# Gəncliyə nümunə və dəstək olan Lider

İnkişafın yazılmamış bir qanunauyğunluğu var: hər mərhələ kifayət qədər möhkəmlənməlidir ki, növbəti mərhələ üçün təməl ola bilsin. Bu proses iki cür irəliləyə bilir: üsyan və ya islahat. Birinci halda, bərkiməmiş, zəif postament üzərinə nə qədər sağlam bir mərhələ gəlirsə gəlsin, uçulmağa məhkum olur. Belə halda xalq dərin böhrana düşür, dövlətə, gələcəyə inamını itirir. Yaxud möhkəm təmələ aldananlar növbəti addıma zərurət görmür, nəticədə yenə də durğunluq yaranır, hərəkətverici qüvvə sərf olunmadan toplanır və cəmiyyətdə sıxılmış yay effekti formalaşmağa başlayır.



Məsələ burasındadır ki, növbəti addımın qarşısını almaq olmur, ən yaxşı halda onu gecikdirmək mümkündür. Nəticədə qüvvələr parçalanır, maraqlar toqquşur, qazanılanlar itirilir. Yəni növbəti mərhələ tənəzzülə uğrayır və inkişaf sıfırlanır. İkinci halda, hər uğur növbəti uğur üçün zəmin rolunu oynayır və proseslər zəncirvari şəkildə davam edir. Belə inkişafın başlıca amili dövlətin hərəkətverici qüvvəsi və güclü enerjisi olan gəncliyə düzgün nümunə olan və ona lazımi dəstək göstərən Liderdir. Mərhələlərin bir-birini əvəz etməsi isə islahatlar vasitəsilə baş verir. Bakı Dövlət Universitetinin yubileyində Prezident İlham Əliyev bunu çox böyük dəqiqliklə belə vurğulayır: “İslahatlar bizim şüurlu seçimimizdir. Elə fərz edə bilərik ki, nəyə lazımdır bu islahatlar? Onsuz da hər şey yolunda gedir, ölkə inkişaf edir, yeni müəssisələr açılır, abadlıq işləri görülür. Yox, struktur islahatları, siyasi islahatlar, iqtisadi islahatlar lazımdır”. İşin əhəmiyyətli məqamı məhz bundadır: gənclər qarşısında çıxış edən ölkə başçısı həm keçmişin təhlilini verir, həm özünü bir Lider kimi xarakterizə edir, həm də gənclərə uğurlu inkişafın yolunu göstərir.

## Gənclik - inkişafın yeni nəfəsi

Azərbaycan müstəqillik qazanandan sonra Ulu Öndərin sabit inkişaf üçün əhəmiyyətli addımlar atması, əsrə səs salan müqavilələr imzalaması gənc dövlət üçün kifayət qədər möhkəm və sağlam bir təməl oldu. Bunu nəzərdə tutan Ulu Öndər 2003-cü ildə Azərbaycan xalqına müraciətində deyir: “İlk növbədə dövlətçiliyimizin əsasını təşkil edən ictimai-siyasi sabitliyə nail olmuş, milli birlik və qanunların aliliyinə söykənən vətəndaş cəmiyyətinin təməlini qoymuşuq. İkincisi, hər bir dövlətin, onun yaşamasının qayəsini təşkil edən ölkə iqtisadiyyatını yenidən qurmuşuq, inkişaf yoluna çıxarmışıq. Üçüncüsü, Azərbaycan xalqının istək və arzularının ifadəsi olan, özünün bütün müvafiq təsisatlarına malik güclü, demokratik dövlətimizi qura bilmişik, onun müstəqilliyinin dönməzliyini təmin etmişik”. Bununla belə, müasir dövrün tələbləri, qloballaşmanın çağırışları, müharibə vəziyyəti artıq növbəti mərhələnin gəlməsini tələb edirdi. Təbii ki, bu güclü və sabit təməl üzərində başlanacaq növbəti mərhələ layiqli bir rəhbərlə başlamalı idi. Bir xalqa 34 il rəhbərlik etmiş, onun mənəvi dəyərlərini, potensialını, psixologiyasını gözəl bilən, “öz mənalı həyatının düz 60 ilini xalqının bu günü və sabahı ilə yaşamış” Ümummilli Lider növbəti mərhələdəki başçının kimliyinin, şəxsiyyətinin böyük əhəmiyyətini gözəl dərk edirdi və zəruri addımı atdı - estafeti daha gənc bir Liderə etibar etdi: “O, yüksək intellektli, praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən, enerjili və təşəbbüskar bir şəxsiyyətdir. Sizi əmin edirəm ki, həm İlham Əliyev, həm də Yeni Azərbaycan Partiyası bundan sonra da xalqımızın ən layiqli övladlarını öz ətrafında sıx birləşdirərək Azərbaycan dövlətinin inkişafı və xalqımızın firavanlığı yolunda çox işlər görəcəklər. İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri Sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm”. Bu müraciətdə həm xalqa, həm onun gələcək liderinə, həm də gənc dövlətin gələcəyinə inam var idi.

Cənab İlham Əliyevin müstəqil Azərbaycanın yeni mərhələsinin qurucusu olması özündə bir neçə missiyanı ehtiva edirdi: milli identikliyin təminatçısı olan mənəvi dəyərləri, tarixi kökü və ənənələri qorumaq, dövrün sərt tələblərinə cavab vermək üçün irəli getmək və bununla da növbəti mərhələnin zəminini hazırlamaq. Əslində bu işin ağırlığını Ulu Öndər özünün 13 oktyabr 2003-cü ildə Azərbaycan Respublikası Gənclərinin III Forumuna müraciətində vurğulamışdı: “XXI əsrdə müstəqil Azərbaycanın inkişafı naminə görüləcək bu əzəmətli işlərin həyata keçirilməsinin əsas ağırlığı və məsuliyyəti isə bugünkü gənclərin üzərinə düşür. İnanıram ki, zəngin və dərin mənəviyyata sahib, vətənpərvər gəncliyi olan xalqımızın daha böyük, daha parlaq gələcəyi var. Ona görə də Azərbaycanı, Azərbaycan dövlətçiliyini yaşatmaq, onu qüdrətli etmək üçün siz, yüksək amallı Azərbaycan gəncləri daim hazır olmalısınız”. Bu, gənc respublikanın ən güclü hərəkətverici qüvvəsinə - gənclərə və təbii ki, onların yeni Liderinə bir çağırış idi.

Azərbaycanın yeni mərhələsi iki istiqamətdə davam etdi: beynəlxalq aləmdə özünü etibarlı tərəfdaş kimi təsdiqləmək və özünün gələcək strategiyasını təyin etmək. Bir ölkənin gücü onun iqtisadiyyatı, siyasəti ilə yanaşı, həm də onun insan resurslarındadır və onun böyük faizini məhz gənclər təşkil edir. 2008-ci ildə mədəniyyətlər və sivilizasiyalar arasında səmərəli və effektiv dialoqun qurulması məqsədilə “Bakı Prosesi”nin əsası qoyuldu, 2012-ci ildə isə “Azərbaycan 2020: gələcəyə baxış” inkişaf konsepsiyası qəbul edildi. Əslində “gələcəyə baxış” ifadəsini gəncliyə baxış kimi də təhlil etmək olar. Çünki bu proseslərin aparıcı qüvvəsi gənclər, onların malik olduğu güclü enerjidir. İnkişaf konsepsiyasında belə bir ifadə var: “Elmin maliyyələşdirilməsinə dövlət büdcəsi resursları ilə yanaşı, digər mənbələrin də cəlb olunması stimullaşdırılacaq ki, bu da, son nəticədə, elmi fəaliyyətlə məşğul olan işçilərin, o cümlədən gənclərin sosial müdafiəsini gücləndirəcək və “beyin axını”nın qarşısını alacaqdır”. Hər gənc olduğu cəmiyyətin bir elementidir və malik olduğu potensial, ilk növbədə, öz vətənində reallaşmağa cəhd edir. Burada əhəmiyyətli bir məqam var ki, bəzən onun olduğu məkan bu potensiala sığışmır və o daha geniş üfüqlərin axtarışına çıxır, yəni gənc ya öz ölkəsini tərk etməyə meyilli olur, ya da dağıdıcı qüvvəyə çevrilməyə başlayır. Deməli, “beyin axını”nın qarşısını almaq, ilk növbədə, gənclərin potensialı üçün geniş imkanların yaradılmasını nəzərdə tutur. Təsadüfi deyil ki, inkişaf konsepsiyasında əsas prioritetlər sırasında “2020-ci ildə Azərbaycanı iqtisadi və siyasi cəhətdən inkişaf etmiş, rəqabətqabiliyyətli ölkəyə” çevirmək məsələsi də durur. Məsələ burasındadır ki, nə qədər güclü orqanizm olursa olsun, davamlı enerji itkisi onu acizləşdirir və düşmən qüvvələrin marağına səbəb olur. Bəli, Azərbaycan gənci savadlı və istedadlıdır və buna görə “beyin axını”na yol vermək olmaz. Xarici qüvvələrin də bu səbəbdən ilk hədəfi məhz gənclər olur. Artıq 2020-ci ilin astanasında ölkə Prezidenti İlham Əliyev gənclərə xaricdən gələn təhlükə barədə xəbərdarlıq edib deyir: “Onlar gəncləri əsas hədəf seçiblər və gəncləri yoldan çıxarmaq istəyirlər, onların beyinlərini zəhərləmək istəyirlər, onları xalqa qarşı, Vətənə qarşı, ənənəvi dəyərlərə qarşı qaldırmaq istəyirlər. Alınmır və alınmayacaq. Çünki Azərbaycan gəncləri vətənpərvərdir, Vətəni sevəndirlər, Vətənə bağlıdırlar”.

Azərbaycanın inkişafında növbəti mərhələnin astanasında ölkə rəhbəri təməlin kifayət qədər möhkəm qurulduğunu, “yeni mərhələnin başlanğıcında” gənclərin bu əhəmiyyətli addıma hazır olduğu ismarıcını verir. İlham Əliyev deyir: “Təcrübə, bilik və gənclərin dinamizmi, novatorluğu, yeniliyə, islahatlara meyilliliyi - bu sintez Azərbaycanda var. Həm cəmiyyətdə, həm iqtidarda var. Biz ənənəvi dəyərlər üzərində dövlət qururuq, böyük-kiçik var. Bunu biz qorumalıyıq, gənclər də məni eşitsinlər, daim böyük-kiçik məsələsinə fikir versinlər”. Bəli, növbəti mərhələ - növbəti uğurlu addımın qızıl qaydası yenə qorunur: milli ruha, kökə hörmət, bağlılıq, gənclərin potensialına güvən və onun reallaşması üçün yaradılan şərait. Prezident vurğulayır: “Mən bir dəfə demişəm, hələ Avropada o iqtisadi böhran baş alıb gedəndə dedim ki, biz haraya inteqrasiya etməliyik, böhrana? Haraya inteqrasiya etməliyik, “Stop islam!” deyənlərə? Haraya inteqrasiya etməliyik, qadınla kişi arasında fərq görməyənə? Mən artıq daha dərinə getmək istəmirəm. Biz qətiyyən oraya inteqrasiya etməyəcəyik. Ona görə Azərbaycanda yaşlı nəsil, gənc nəsil bir yerdə olmalıdır, necə ki, ali məktəblərdə. Baxın, indi Bakı Dövlət Universitetində minlərlə gənc var, müəllim var. Müəllimlər biliklərini bölüşürlər, gənclər öyrənirlər, sabah onların yerini tutacaqlar. Belə inkişaf etməliyik”. Lider mümkün təhlükəni digərlərindən tez görməklə kifayətlənmir, həm də irəliləmək üçün sağlam və əmin-aman yolu göstərir; yalnız kökə, ənənəyə bağlılığın əhəmiyyətini qeyd etmir, həm də dövrün tələblərinə cavab olaraq gəncləri irəli apara bilir.

## Bilik, təhsil - davamlı inkişafın təminatı

İnkişafının düzgün istiqamətini seçmək uğurun başlanğıcı və yüksək nailiyyətin təminatıdır. Təbii ki, bu yolda çətinliklər də olur, maneələr çıxıb ruhdan da salır, ancaq əldə olunan uğur bu maneələri keçməyə kömək edir, gücü daha da artırır. Bu istiqamətin seçimi iki cür olur: ya fərd yalnız öz şəxsi maraqlarını nəzərə alır və bütün xalqa məcburi şəkildə qəbul elətdirir, ya da xalqın potensialını, milli ruhun tarixi inkişaf yolunu nəzərə alır. Yəni birində mərkəz nöqtədə fərd durur və həmin yolun ömrü o fərdin hakimiyyəti illəri qədər olur. Növbəti mərhələdə başlanan yol artıq onun davamı ola bilmir və nəticədə xalq öz inkişafında az qala bir nəsil geri düşür, hətta sıfırdan başlamalı olur. Digərində isə mərkəzdə xalq və dövlət durur. Bu prosesin hərəkətverici qüvvəsi gənclər, onun uğurlu nəticəsinin təminatı isə Lider olur.

Əslində, gənclik kimi möhtəşəm potensialı, enerjini öz arxası ilə apara bilmək də böyük hünər və bacarıq tələb edir. Bu baxımdan, Liderliyin ilk və danılmaz göstəricisi öz şəxsiyyəti, təhsili və təcrübəsi ilə nümunə ola bilməkdir. Müasir Azərbaycanın uğurunun ən böyük göstəricisi məhz budur. Məsələ burasındadır ki, Lider yalnız öz xalqını tanımaqla onun gəncinə düzgün yol göstərə bilər; o, öz xalqı ilə eyni ruha sahib olmalıdır ki, xalq ona inansın, onun arxası ilə getməyə razı olsun. Bu baxımdan, ölkəmizin rəhbərinin üzünü məhz gənclərə tutub bu tövsiyələri verməsi bir zərurətdir və bu tövsiyədə xalqın kimliyinin ən vacib xüsusiyyətlərini vurğulayır: “Biz ənənəvi cəmiyyətdə yaşayırıq və yaşamalıyıq. Qadınlara hörmət etməliyik, biz onları qorumalıyıq, onları müdafiə eləməliyik. Onlar bizi yox, biz onları. Gender bərabərliyi var, biz də bunu qəbul edirik. Amma biz ənənəvi düşüncədən kənarda yaşaya bilmərik və gənc nəsil də bunu bilsin. Yaşlılara hörmət olunmalıdır, yaşına görə. İndi bəziləri istəyirlər ki, bizim lüğətimizdən “ağsaqqal”, “ağbirçək” sözləri çıxsın, necə ki, bəzi ölkələrdə. Onlara baxanda adam dəhşətə gəlir. Sonra da bizə deyirlər ki, gəlin bizə inteqrasiya edin”. Əslində, cənab İlham Əliyev bir neçə kəlmə ilə Azərbaycanın haradan gəlib hara getməli, hansı dəyərlərə xidmət etməli olduğunu, bir sözlə desək, uğur və bərəkəti harada axtarmağı göstərir.

Gənclərin öz ölkəsinə yararlı kadr kimi yetişməsi üçün, ilk növbədə, ona mükəmməl savad verilməlidir. Bu vacib amilə Ulu Öndər də önəm verib, müasir dövrün Lideri olan İlham Əliyev də. Məsələn, dövlət başçısının da verdiyi məlumata görə, Ulu Öndər “Azərbaycan gənclərinin Sovet İttifaqının aparıcı ali məktəblərində oxuması üçün böyük səylər göstərmişdi və bu, unikal xarakter daşıyırdı. Çünki sovet məkanında buna oxşar təcrübə yox idi. Hər il təqribən 800-ə yaxın Azərbaycan gənci Bakıda imtahanlar verməklə Sovet İttifaqının Moskva, Leninqrad və digər böyük şəhərlərindəki aparıcı ali məktəblərinə ezam edilmişdir. Beləliklə, Azərbaycanın gələcəyi üçün güclü kadr potensialı yaradılırdı”. Eyni ənənə bu gün də davam edir: “Tələbələrə də sözüm budur ki, bilikli olsunlar. ...Əgər bilik olmasa, savad olmasa, müasir dünyada bu, əhəmiyyətsiz bir şeydir. ...Bilik, savad - gənclərin yaxşı gələcəyini, təminatlı gələcəyini müəyyən edən budur”. Təbii ki, söhbət müəyyən ixtisas üzrə biliklərin alınması ilə yanaşı, həm də öz xalqının milli-mənəvi dəyərlərini, milli ruhunu tanımaqdan, tarixi kökünü və kimliyi dərk etməkdən gedir. Bunu yeni Liderin gənclərə xitabının bütünlüklə ruhunda sezmək mümkündür.

## Nəticə

Gənc bir xalqın hərəkətverici qüvvəsi, eyni zamanda, dövlət adlı imarətin kərpicidir. Bu kərpiclər nə qədər sağlam olarsa, bir o qədər qurulan divar, bina möhtəşəm və möhkəm olar. Burada ən vacib məqam budur ki, inkişaf, quruculuq dayanmamalıdır. Ölkə rəhbərinin qeyd etdiyi kimi, “Kadr islahatları gedir, bu da zərurətdir, durğunluq yarada bilmərik, sovet dövrünün durğunluğu hələ ki, yadımızdan çıxmayıb. Ona görə kadr islahatları aparılmalıdır, ancaq təkamül yolu ilə, təbii yolla, burada da heç bir əyintilərə yol vermək olmaz”. Lider qurucudur, rəhbərdir, nümunədir. Gəncləri öz nümunəsi əsasında yönləndirən də odur, inkişaf istiqamətini düzgün seçib onları hərəkətverici qüvvəyə çevirən də, hər mərhələni növbəti mərhələ üçün təməl kimi hazırlayan da.

***Könül BÜNYADZADƏ,***
***AMEA-nın müxbir üzvü***

# Unudulmaz əziz xatirə



Hər ilin bu günləri laçınlı məcburi köçkünlərin məskunlaşdıqları Ağcabədi rayonunun Taxta Körpü ərazisində - Laçın obalarında yüksək əhvali-ruhiyyə, bayram ovqatı müşahidə olunur. Əlbəttə, bu, səbəbsiz deyil. Laçın camaatının yaddaşına həkk olan və heç zaman unudulmayacaq bu əlamətdar hadisə artıq tarixə çevrilib.





Respublika Prezidenti İlham Əliyev 50 yaşının tamamında möhtəşəm büllur saraylara deyil, laçınlı məcburi köçkünlərin yanına, Taxta Körpü qəsəbəsinə səfər etmişdi. O zaman dövlət başçısı Laçın camaatının isti və doğma əhatəsində demişdi: “Mən demək istəyirəm ki, adətən öz ad günlərimi qeyd etmirəm. Ancaq bu il belə qərara gəldim ki, öz ailəmlə bunu qeyd edim və bu gün mən öz ailəmlə birlikdəyəm, mənim ailəm sizsiniz. Eyni zamanda mən çox şadam ki, bu günü hamımız üçün müqəddəs olan Qarabağ torpağında qeyd edirəm...”

O zamandan illər keçsə də, o hadisə uşaqdan böyüyə hər bir laçınlının yaddaşında heç bir zaman unudulmayacaq şirin xatirəyə, vətənini, xalqını, rəhbərini sevən hər kəsin haqlı qürur mənbəyinə çevrilib. Heç şübhəsiz bu şirin xatirəni tarixə çevirən, qədirbilən bir elin yaddaşına həkk edən Prezident İlham Əliyevin mənsub olduğu xalqa sonsuz məhəbbəti, böyük ehtiramıdır. Dövlət başçısı 50 yaşının tamamında laçınlı məcburi köçkünlər üçün inşa edilmiş 552 ailəlik yüksək rahatlığa, bütün infrastruktura malik yeni qəsəbənin açılış mərasimində iştirak etmişdi. Nə xoş ki, bu qayğı, bu doğma və isti münasibət bu gün də davam edir. Prezident İlham Əliyevin tapşırığı ilə inşa edilən üç qəsəbədə, bütövlükdə 645 ailəlik yeni yaşayış massivində artıq son tamamlama işləri görülür.

Yeni qəsəbələrin inşası üçün 155 hektar torpaq sahəsi ayrılmışdır. Vağazinda 256, Qarakeçdidə 245, Şeylanlıda 144 evdən ibarət qəsəbələr tikiləcək. Mənzillərin 62-si birotaqlı, 260-ı ikiotaqlı, 260-ı üçotaqlı, 63-ü isə dördotaqlıdır. Yeni qəsəbələrdə hər ev üçün 12 sot həyətyanı sahə ayrılmışdır. Əvvəlki layihələrdən fərqli olaraq hər ev üçün fərdi sanitar qovşağı inşa edilmiş, kombi istilik sistemləri quraşdırılmışdır.

Yeni qəsəbələrin ərazisində zəruri infrastruktur da yaradılmışdır. Ərazidə ikisi 192, biri 108 şagird yerlik olmaqla üç məktəb binası, eyni zamanda inzibati bina, tibb məntəqəsi də inşa edilmişdir. Yeni yaşayış massivi, içməli su, elektrik enerjisi, təbii qaz və rahat asfalt yollarla təmin edilmişdir.

Beləcə Prezident İlham Əliyevin qayğısı ilə tezliklə daha 645 laçınlı məcburi köçkün ailəsi rahat mənzillərlə təmin olunacaqdır. Mənzil rahatlığına qovuşacaq çoxsaylı ailələrdən birinin başçısı, Vağazin obasının sakini Mirzə Kərimovun dedikləri:

- Doğma yurdumuzdan, isti yuvamızdan perik salınıb, uzun illərdən bəri çətin günlər yaşasaq da, ağır məhrumiyyətlərə dözsək də, hər zaman qayğısını üzərimizdə hiss etdiyimiz, isti nəfəsini duyduğumuz dövlət yanımızda olub, bizə yaşamaq həvəsi verib. Hər bir laçınlının ürəyində Prezident İlham Əliyevə bir məhəbbət abidəsi var. Bu, xeyirxahlıqdan doğan, ali mərhəmət hissinin qarşılığında yaranan bir abidədir. Bu günlərdə yüzlərlə laçınlı ailə yeni və rahat mənzillərə köçəcəkdir. Onlardan biri də bizim ailə olacaqdır. Bütün səmimiyyətimlə dövlət başçısına təşəkkür edirəm. Sağ ol, əziz Prezidentim!

***Lazım QULİYEV,***
***“Azərbaycan”***

# "Tibbi sığorta haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 27-ci bəndini rəhbər tutaraq **qərara alır:**

"Tibbi sığorta haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 1, maddə 4; 2001, № 3, maddə 141; 2007, № 12, maddə 1212; 2008, № 11, maddə 960; 2014, № 4, maddə 331; 2015, № 4, maddə 352; 2016, № 3, maddə 419; 2018, № 4, maddə 651; 2019, № 1, maddələr 36, 47) aşağıdakı dəyişikliklər edilsin:

**1.** 1-ci maddə üzrə:

**1.1.** 1.0.1-ci maddədən "baza və əlavə hissələrdən ibarət olmaqla" sözləri çıxarılsın;

**1.2.** 1.0.2-ci, 1.0.3-cü, 1.0.11-ci və 1.0.12-ci maddələr ləğv edilsin;

**1.3.** 1.0.5-ci maddədə "vermək" sözü "etmək" sözü ilə əvəz edilsin;

**1.4.** 1.0.6-cı, 1.0.7-ci, 1.0.8-ci, 1.0.10-cu və 1.0.14-cü maddələr aşağıdakı redaksiyada verilsin:

"1.0.6. sığortalı - bu Qanunda nəzərdə tutulmuş hallarda öz adından və ya sığortaolunan adından sığorta haqqı ödəyən şəxs;

1.0.7. sığortaolunan - sağlamlığı icbari və ya könüllü qaydada sığortalanmış fiziki şəxslər;

1.0.8. sığorta ödənişi - sığorta hadisəsi baş verdikdə icbari tibbi sığortaya münasibətdə xidmətlər zərfinə və tariflərə, könüllü tibbi sığortaya münasibətdə isə könüllü tibbi sığorta müqaviləsinə uyğun olaraq bu Qanunla nəzərdə tutulmuş qaydada tibb müəssisəsinə və ya əczaçılıq fəaliyyəti ilə məşğul olan şəxsə ödənilən maliyyə vəsaiti;";

"1.0.10. sığorta hadisəsi - bu Qanuna əsasən sığorta ödənişinin ödənilməsi üçün əsas olan hadisə və ya yaranan hal (o cümlədən profilaktik tədbirlər);";

"1.0.14. tibbi ərazi bölməsi - müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən onun tabeliyinə verilən dövlət səhiyyə sistemində daxil olan tibb müəssisələrinin inzibati ərazi vahidləri üzrə qruplaşdırılması;";

**1.5.** 1.0.9-cu maddədə "sığorta ili" sözləri "təqvim ili" sözləri ilə əvəz edilsin;

**1.6.** 1.0.13-cü maddədə "maliyyələşdirilməsi" sözü "göstərilməsi" sözü ilə, "tibb təchizatçısı və ya tibbi ərazi bölməsi" sözləri "tibb müəssisəsi" sözləri ilə əvəz edilsin;

**1.7.** aşağıdakı məzmunda 1.0.15-ci və 1.0.16-cı maddələr əlavə edilsin:

"1.0.15. müştərək maliyyələşmə məbləği - sığorta hadisəsi nəticəsində yaranan itkilərin və dəyən zərərin icbari tibbi sığorta təminatı ilə əhatə olunmayan və sığortaolunan tərəfindən ödənilən hissəsidir;

1.0.16. tibb müəssisəsi - dövlət və ya qeyri-dövlət səhiyyə sistemində daxil olan və tibb fəaliyyətini həyata keçirən hüquqi şəxs.".

**2.** 2.1-ci maddədə ", "İcbari sığortalar haqqında" Azərbaycan Respublikasının qanunlarından" sözləri "Azərbaycan Respublikasının Qanunundan" sözləri ilə əvəz edilsin.

**3.** 2-1-ci maddədə ", tibb təchizatçıları və tibbi ərazi bölmələridir" sözləri "və tibb müəssisələridir" sözləri ilə əvəz edilsin.

**4.** 4.4-cü, 15-4.1.1-ci, 15-5.2.1-ci, 15-12.3-cü, 15-16.0.5-ci, 15-20.2-ci, 15-20.3-cü, 15-22-ci və 15-25.2-ci maddələr ləğv edilsin.

**5.** 5.3-cü maddədə "təchizatçılarına" sözü "müəssisələrinə" sözü ilə əvəz edilsin.

**6.** 6.1.1-ci maddədən "müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) müəyyən etdiyi qaydada" sözləri çıxarılsın.

**7.** 7.1.2-ci, 7.1.4-cü, 7.1.5-ci, 13.1.1-ci, 13.1.2-ci, 13.2.1-ci, 13.2.3-cü və 15-ci maddələrdə ismin müvafiq hallarında "tibb təchizatçısı və ya tibbi ərazi bölməsi" sözləri ismin müvafiq hallarında "tibb müəssisəsi" sözləri ilə əvəz edilsin.

**8.** 13.1.3-cü maddədə "tibb təchizatçısının, tibbi ərazi bölməsinin" sözləri "tibb müəssisəsinin" sözləri ilə əvəz edilsin.

**9.** 15-1.0.4-cü maddədə "sığorta haqlarının sığorta ödənişlərinə" sözləri "sığorta ödənişlərinin sığorta haqlarına" sözləri ilə əvəz edilsin.

**10.** 15-1.0.5-ci maddədən "sığortalılar tərəfindən" sözləri çıxarılsın.

**11.** 15-2-ci maddə aşağıdakı redaksiyada verilsin:

**"Maddə 15-2. İcbari tibbi sığorta üzrə sığortalı və sığortaolunanlar**

15-2.1. Azərbaycan Respublikasının vətəndaşları, Azərbaycan Respublikasında qaçqın statusu almış və BMT-nin Qaçqınlar üzrə Ali komissarının Azərbaycan Respublikasındakı nümayəndəliyi tərəfindən himayəyə götürülmüş əcnəbilər və vətəndaşlığı olmayan şəxslər sığortaolunan hesab edilir.

15-2.2. Sığortalılar aşağıdakı kateqoriyalara bölünürlər:

15-2.2.1. Azərbaycan Respublikasının Milli Məclisi, müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən vəzifəyə təyin olunan şəxslərə münasibətdə onların təyin olunduqları dövlət orqanı (qurumu), seçkili ödənişli vəzifə tutan şəxslərə münasibətdə isə onların seçildiyi dövlət və ya bələdiyyə orqanı (qurumu), Azərbaycan Respublikasının Əmək Məcəlləsinə uyğun olaraq bağlanmış və hüquqi qüvvəyə minmiş əmək müqaviləsinə əsasən işləyən şəxslərə (o cümlədən, digər əsaslara muzdlu işə cəlb olunan şəxslər) münasibətdə isə sığortalı qisminə işəgötürənlər (işə cəlb edən şəxslər) çıxış edir;

15-2.2.2. Azərbaycan Respublikasının Vergi Məcəlləsinə əsasən sahibkarlıq fəaliyyətinin və ya digər vergi tutulan əməliyyatlarının müvəqqəti dayandırıldığı hallar istisna olmaqla, vergi ödəyicisi kimi vergi uçotuna alınmış fiziki şəxslər (fərdi sahibkarlar, xüsusi notariuslar, vəkillər kollegiyasının üzvləri) sığortalı qismində özləri çıxış edirlər;

15-2.2.3. mülki-hüquqi müqavilələr əsasında işləri (xidmətləri) yerinə yetirən fiziki şəxslərə münasibətdə sığortalı qismində onları işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb edən şəxslər çıxış edir;

15-2.2.4. bu Qanunun 15-2.2.1-ci, 15-2.2.2-ci, 15-2.2.3-cü maddələrində nəzərdə tutulan şəxslərdən başqa digər sığortaolunanlar sığortalı qismində özləri çıxış edirlər.

15-2.3. Bu Qanun müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularına, həbs edilmiş şəxslərə, müəyyən müddətə azadlıqdan məhrumetmə və ömürlük azadlıqdan məhrum etmə növündə cəza çəkən şəxslərə (məntəqə tipli cəzaçəkmə müəssisələri istisna olmaqla), habelə bu Qanunun 15-2.1-ci, 15-2.2.1-ci, 15-2.2.2-ci, 15-2.2.3-cü maddələrində göstərilən şəxslərə aid olunduğu hallar istisna olmaqla, Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsinə əsasən Azərbaycan Respublikasında müvəqqəti olan, müvəqqəti və ya daimi yaşayan əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə şamil edilmir.".

**12.** 15-3-cü maddə üzrə:

**12.1.** adında "Tibbi ərazi bölmələrinin və tibb təchizatçılarının" sözləri "Tibb müəssisələrinin" sözləri ilə əvəz edilsin;

**12.2.** 15-3.1-ci maddədə "tibb təchizatçıları və ya tibbi ərazi bölmələri" sözləri "tibb müəssisələri" sözləri ilə əvəz edilsin;

**12.3.** 15-3.2-ci maddədə "tibb təchizatçılarının və ya tibbi ərazi bölmələrinin" sözləri "Tibb müəssisələrinin" sözləri ilə əvəz edilsin;

**12.4.** 15-3.3-cü maddədə "tibb təchizatçısı və ya tibbi ərazi bölməsi arasında tibbi xidmətlərin maliyyələşdirilməsi" sözləri "tibb müəssisəsi arasında tibbi xidmətlərin göstərilməsi" sözləri ilə əvəz edilsin.

**13.** 15-4-cü maddə üzrə:

**13.1.** 15-4.1.2-ci maddə aşağıdakı redaksiyada verilsin:

"15-4.1.2. bu Qanunun 15-3.1-ci və 15-28-ci maddələrinin müddəaları nəzərə alınmaqla tibb müəssisəsini, habelə həkimi seçmək və bu Qanunla nəzərdə tutulmuş qaydada xidmətlər zərfinə uyğun olaraq tibbi xidmətlərdən istifadə etmək;";

**13.2.** 15-4.1.3-cü, 15-4.1.5-ci (hər iki halda), 15-4.2.1-ci və 15-4.2.2-ci maddələrdə ismin müvafiq hallarında "tibb təchizatçısı və ya tibbi ərazi bölməsi" sözləri ismin müvafiq hallarında "tibb müəssisəsi" sözləri ilə əvəz edilsin.

**14.** 15-6-cı maddə üzrə:

**14.1.** adında "sığortalıların (sığortaolunanların)" sözləri "sığortaolunanların" sözü ilə əvəz edilsin;

**14.2.** 15-6.1-ci maddədən "sığortalı və" sözləri çıxarılsın;

**14.3.** 15-6.2-ci maddədə "15-2.3.1-ci, 15-2.3.2-ci, 15-2.3.4-cü və 15-2.3.5-ci" sözləri "15-2.2.1-ci, 15-2.2.2-ci və 15-2.2.3-cü" sözləri ilə əvəz edilsin və həmin maddədən "və sığortalıların" sözləri çıxarılsın;

**14.4.** 15-6.3-cü maddədən "Sığortalı və sığortaolunanlar" sözləri "Sığortaolunanların" sözü ilə əvəz edilsin;

**15.** 15-7-ci maddə üzrə:

**15.1.** adında "tibb təchizatçısının və ya tibbi ərazi bölməsinin" sözləri "tibb müəssisəsinin" sözləri ilə əvəz edilsin;

**15.2.** 15-7.1-ci və 15-7.2-ci maddələrdə "Tibb təchizatçısının və ya tibbi ərazi bölməsinin" sözləri "Tibb müəssisəsinin" sözləri ilə əvəz edilsin;

**15.3.** 15-7.2.1-ci və 15-7.2.2-ci maddələrdə "maliyyələşdirilməsi" sözü "göstərilməsi" sözü ilə əvəz edilsin;

**15.4.** 15-7.2.7-ci maddədə "maliyyələşdirilməsi" sözü "göstərilməsi" sözü ilə, "tibb təchizatçısı və ya tibbi ərazi bölməsi" sözləri "tibb müəssisəsi" sözləri ilə, "tibb təchizatçısına və ya tibbi ərazi bölmələrinə" sözləri "tibb müəssisəsinə" sözləri ilə əvəz edilsin.

**16.** 15-8-ci maddə üzrə:

**16.1.** 15-8.1.4-cü və 15-8.1.5-ci maddələrdə "maliyyələşdirilməsi" sözü "göstərilməsi" sözü ilə əvəz edilsin;

**16.2.** 15-8.1.4-cü, 15-8.1.5-ci (hər iki halda) və 15-8.2.3-cü maddələrdə ismin müvafiq hallarında "tibb təchizatçısı və ya tibbi ərazi bölməsi" sözləri ismin müvafiq hallarında "tibb müəssisəsi" sözləri ilə əvəz edilsin;

**16.3.** 15-8.2.6-cı maddəyə (birinci halda) "icbari tibbi" sözlərindən sonra "sığorta üzrə" sözləri əlavə edilsin.

**17.** 15-9-cu maddə üzrə:

**17.1.** 15-9.0-cı maddə 15-9.1-ci maddə hesab edilsin;

**17.2.** 15-9.1.1-ci maddəyə "sığorta haqları" sözlərindən sonra ", o cümlədən dövlət büdcəsinin vəsaiti hesabına ödənilən sığorta haqları" sözləri əlavə edilsin;

**17.3.** 15-9.1.2-ci, 15-9.1.5-ci, 15-9.1.7-ci maddələr ləğv edilsin;

**17.4.** 15-9.1.4-cü maddədə "investisiyaya yönəldilməsi" sözləri "idarə olunması" sözləri ilə əvəz edilsin;

**17.5.** 15-9.1.6-cı və 15-9.1.8-ci maddələr aşağıdakı redaksiyada verilsin:

"15-9.1.6. müştərək maliyyələşmə məbləği;";

"15-9.1.8. müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilmiş qaydada cəlb edilmiş borc;";

**17.6.** 15-9.1.10-cu maddəyə "cərimələrdən" sözündən sonra ", maliyyə sanksiyalarından" sözü əlavə edilsin;

**17.7.** aşağıdakı məzmunda 15-9.2-ci maddə əlavə edilsin:

"15-9.2. Bu Qanunun 15-2.2.1 - 15-2.2.3-cü maddələrində nəzərdə tutulmuş sığortalı tərəfindən bu Qanunun tələblərinin pozulmasına görə Azərbaycan Respublikasının Vergi Məcəlləsinə əsasən vergi orqanları tərəfindən tətbiq edilən maliyyə sanksiyası məbləğinin 50 faizi və sığorta haqqının ödənilməsinin gecikdirilməsinə görə hesablanan faiz məbləğinin 30 faizi müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) maddi-texniki bazasını və işçilərinin sosial müdafiəsini gücləndirmək məqsədilə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) hesabına köçürülür. Bu vəsaitlərin bölgüsü və onlardan istifadə qaydası müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən olunur.".

**18.** 15-10-cu və 15-11-ci maddələr aşağıdakı redaksiyada verilsin:

**"Maddə 15-10. İcbari tibbi sığorta üzrə sığorta haqları**

15-10.1. İcbari tibbi sığorta üzrə sığorta haqları aşağıdakı məbləğlərdə və dərəcələrdə müəyyən edilir:

15-10.1.1. bu Qanunun 15-2.1-ci maddəsində nəzərdə tutulmuş şəxslər üzrə - dövlət büdcəsinin vəsaiti hesabına tam təqvim ili üçün adambaşına 90 manat;

15-10.1.2. muzdla işləyən fiziki şəxslər, hərbi qulluqçular (müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları istisna olmaqla), Azərbaycan Respublikasının Milli Məclisi və ya müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən vəzifəyə təyin olunan şəxslər, seçkili ödənişli vəzifə tutan şəxslər üzrə - sığortalı tərəfindən işçinin əməkhaqqının 8000 manatadək olan hissəsindən 2 faiz, 8000 manatdan yuxarı olan hissəsindən 0,5 faiz, sığortaolunan tərəfindən əməkhaqqının 8000 manatadək olan hissəsindən 2 faiz, 8000 manatdan yuxarı olan hissəsindən 0,5 faiz;

15-10.1.3. bu Qanunun 15-2.2.2-ci maddəsində nəzərdə tutulmuş sığortaolunanlar üzrə - minimum aylıq əməkhaqqının 4 faizi;

15-10.1.4. bu Qanunun 15-2.2.3-cü maddəsində nəzərdə tutulmuş sığortaolunanlar üzrə - gəlirlərinin 8000 manatadək olan hissəsinin 2 faizi, 8000 manatdan yuxarı olan hissəsinin 1 faizi;

15-10.1.5. bu Qanunun 15-2.2.4-cü maddəsində nəzərdə tutulmuş sığortaolunanlar üzrə - minimum aylıq əməkhaqqının 48 faizi;

15-10.1.6. Azərbaycan Respublikasının ərazisində istehsal edilərək daxili istehlaka yönəldilən (topdan satılan) və Azərbaycan Respublikasının ərazisinə idxal olunan avtomobil benzininin, dizel yanacağının və maye qazın hər litrinə görə - 0,02 manat;

15-10.1.7. vergi ödəyiciləri tərəfindən araq (vodka), tündləşdirilmiş içkilər və tündləşdirilmiş içki materialları, likyor və likyor məmulatlarının hər litrinə görə tətbiq edilən aksiz dərəcəsinin 0,2 manatı, pivə (alkoqolsuz pivə istisna olmaqla) və pivə tərkibli digər içkilərin hər litrinə görə tətbiq edilən aksiz dərəcəsinin 0,05 manatı, siqarilla (nazik siqarlar) və tütündən hazırlanan siqaretlər və onun əvəzedicilərinin 1000 ədədinə görə tətbiq edilən aksiz dərəcəsinin 1,5 manatı və energetik içkilərin hər litrinə görə tətbiq edilən aksiz dərəcəsinin 0,1 manatı.

15-10.2. Bu Qanunun 15-10.1.1-ci maddəsində müəyyən olunmuş sığorta haqları 2021-ci il yanvarın 1-dən etibarən ildə bir dəfə ölkə üzrə istehlak qiymətləri indeksinin müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilən illik səviyyəsinə uyğun olaraq indeksləşdirilir və indeksləşdirilən sığorta haqları müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) rəsmi internet saytında yerləşdirilir.

**Maddə 15-11. İcbari tibbi sığorta haqlarının hesablanması, ödənilməsi və hesabatın təqdim olunması**

15-11.1. Bu Qanunun 15-9.1.6-cı maddəsində göstərilən maliyyə mənbələri istisna olmaqla, icbari tibbi sığortanın maliyyə mənbələri üzrə daxil olan vəsaitlər icbari tibbi sığorta fondunda cəmləşdirilir.

15-11.2. Bu Qanunun 15-10.1.1-ci maddəsində nəzərdə tutulan sığorta haqqı dövlət büdcəsinin vəsaiti hesabına müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən bu Qanunun 16-4.2-ci maddəsinin tələbləri nəzərə alınmaqla, hər ay üçün bərabər hissələrlə növbəti ayın 15-dən gec olmayaraq ödənilir.

15-11.3. Bu Qanunun 15-10.1.2-ci maddəsində nəzərdə tutulan sığorta haqqı sığortalı tərəfindən hər ay üçün hesablanır, müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilmiş forma üzrə bəyannamə təqdim edilir, əməkhaqqı ödənişləri ilə eyni vaxtda, lakin sonrakı ayın 15-dən gec olmayaraq tam məbləğdə ödənilir.

15-11.4. Bu Qanunun 15-10.1.3-cü maddəsində nəzərdə tutulan sığorta haqqı hər ay üçün hesablanır, müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilmiş forma üzrə bəyannamə təqdim edilir və sonrakı ayın 15-dən gec olmayaraq tam məbləğdə ödənilir.

15-11.5. Bu Qanunun 15-10.1.4-cü maddəsində nəzərdə tutulan sığorta haqqı hər ay üçün hesablanır, müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilmiş forma üzrə bəyannamə təqdim edilir və sonrakı ayın 15-dən gec olmayaraq tam məbləğdə ödənilir.

15-11.6. Bu Qanunun 15-10.1.5-ci maddəsində nəzərdə tutulan sığorta haqqı tam məbləğdə hər təqvim ili üçün yanvar ayının 15-dək icbari tibbi sığorta fonduna ödənilir.

15-11.7. Azərbaycan Respublikasının ərazisində benzinin, dizel yanacağının və maye qazın istehsalı və idxalı ilə məşğul olan vergi ödəyiciləri sığorta haqqını aylıq olaraq hesablayır, müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilmiş forma üzrə bəyannamə təqdim edir və hesabat ayından sonrakı ayın 20-dən gec olmayaraq ödəyirlər.

15-11.8. Bu Qanunun 15-10.1.7-ci maddəsində nəzərdə tutulan sığorta haqqı vergi ödəyicisi tərəfindən Azərbaycan Respublikası Vergi Məcəlləsinin 191.1-ci maddəsi ilə müəyyən edilən vaxtda ödənilir.

15-11.9. Bu Qanunun 15-10.1.1-ci maddəsində nəzərdə tutulan sığorta haqqının ümumi məbləğinin hesablanması qaydasını müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) müəyyən edir.

15-11.10. Bu Qanunun 15-2.2.4-cü maddəsində nəzərdə tutulan şəxslər tərəfindən sığorta haqqının ödənilməsi müddətləri pozulduqda, bu Qanunun 15-10.1.5-ci maddəsində müəyyən olunmuş sığorta haqqının 10 faiz həcmində əlavə sığorta haqqı ödəyirlər.

15-11.11. Bu Qanunun 15-11.10-cu maddəsində nəzərdə tutulan faizlər sığorta haqqının ödənilmədiyi bütün müddətə hər ay üçün, lakin bir ildən çox olmamaq şərtilə hesablanır. Ödənilməmiş sığorta haqları və əlavə sığorta haqları üzrə yaranmış borclar cari təqvim ili və əvvəlki son bir təqvim ili üçün hesablanır.

15-11.12. Bu Qanunun 15-2.2.4-cü maddəsində nəzərdə tutulan şəxslər tərəfindən sığorta haqqının ödəmək öhdəliyi təqvim ili ərzində yarandıqda, həmin şəxslər üçün sığorta haqqı 12-yə bölünməklə öhdəliyinin yarandığı ay da daxil olmaqla ilin sonunadək növbəti ayların sayına vurulmaqla hesablanır.".

**19.** 15-12.2-ci maddə aşağıdakı redaksiyada verilsin:

"15-12.2. İlkin səhiyyə xidməti, habelə təcili və təxirəsalınmaz tibbi yardım istisna olmaqla, sığorta haqları ödənilmədiyi hallarda xidmətlər zərfi çərçivəsində sığortaolunanlara tibbi xidmətlər onların öz vəsaiti hesabına göstərilir.".

**20.** 15-13-cü maddə aşağıdakı redaksiyada verilsin:

**"Maddə 15-13. İcbari tibbi sığorta şəhadətnaməsi**

15-13.1. İcbari tibbi sığorta şəhadətnaməsi sığortaolunanın icbari tibbi sığorta çərçivəsində göstərilən tibbi xidmətlərdən istifadə hüququnu təsdiq edən və müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) elektron informasiya sistemində yaradılan elektron sənəddir.

15-13.2. İcbari tibbi sığorta şəhadətnaməsinin nümunəvi forması müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilir.".

**21.** 15-14-cü maddədə "icbari tibbi sığorta müqaviləsinin qüvvədə olduğu müddət" sözləri "təqvim ili" sözləri ilə əvəz edilsin.

**22.** 15-15-ci maddə üzrə:

**22.1.** 15-15.1-ci maddədə "Xidmətlər zərfinin baza hissəsində nəzərdə tutulmuş ilkin" sözləri "İlkin" sözü ilə, "tibbi ərazi bölməsinə" sözləri "dövlət tibb müəssisəsinə" sözləri ilə əvəz edilsin;

**22.2.** 15-15.2-ci maddədə "tibbi ərazi bölməsinə" sözləri "dövlət tibb müəssisəsinə" sözləri ilə əvəz edilsin;

**22.3.** 15-15.3-cü maddə aşağıdakı redaksiyada verilsin:

"15-15.3. İlkin səhiyyə xidməti istisna olmaqla, xidmətlər zərfində nəzərdə tutulmuş digər tibbi xidmətlərin göstərilməsi üzrə sığorta ödənişləri xidmətlər zərfinin şərtlərinə və tariflərinə uyğun olaraq tibbi xidmətlərin göstərilməsi haqqında müqavilədə qeyd olunmuş həcmdə ödənilir.".

**23.** 15-16.0-cı maddədən "müqaviləsi" sözü çıxarılsın.

**24.** 15-17-ci maddə üzrə:

**24.1.** 15-17.2-ci maddə (15-17.2.1-15-17.2.5-ci maddələr istisna olmaqla) aşağıdakı redaksiyada verilsin:

"15-17.2. Xidmətlər zərfi aşağıdakıları ehtiva edir:";

**24.2.** 15-17.2.3-cü maddədə "azadolma" sözü "müştərək maliyyələşmə" sözləri ilə əvəz edilsin.

**25.** 15-18-ci maddə aşağıdakı redaksiyada verilsin:

**"Maddə 15-18. Müştərək maliyyələşmə məbləği**

15-18.1. Müştərək maliyyələşmə məbləği tibbi xidmətləri göstərmiş tibb müəssisəsinə birbaşa ödənilir.

15-18.2. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən tibb müəssisəsinə ödənilən sığorta ödənişinin məbləği müştərək maliyyələşmə məbləği həcmində azaldılır.

15-18.3. Müştərək maliyyələşmə məbləği xidmətlər zərfi ilə müəyyən olunur.".

**26.** 15-19-cu maddənin adında və mətnində "maliyyələşdirilməsi" sözü "göstərilməsi" sözü ilə əvəz edilsin.

**27.** 15-21-ci maddə üzrə:

**27.1.** 15-21.1.2-ci maddə aşağıdakı redaksiyada verilsin:

"15-21.1.2. sığorta ehtiyatlarının yaradılmasına;";

**27.2.** 15-21.1.3-cü maddənin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 15-21.1.4-cü maddə əlavə edilsin:

"15-21.1.4. müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən olunan digər məqsədlərə.";

**27.3.** 15-21.2-ci maddə ləğv edilsin;

**27.4.** 15-21.4-cü maddə aşağıdakı redaksiyada verilsin:

"15-21.4. İlin sonuna icbari tibbi sığorta fondunun istifadə olunmamış vəsaitləri sığorta ehtiyatlarına yönəldilir. Bu vəsait xərclərin maliyyələşdirilməsinə yönəldilə bilər.";

**27.5.** aşağıdakı məzmunda 15-21.5-ci maddə əlavə edilsin;

"15-21.5. Bu Qanunun 15-21.1.2-ci maddəsində nəzərdə tutulan sığorta ehtiyatlarının yaradılması və onlardan istifadə qaydası müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilir.".

**28.** 15-23.1-ci maddədə "müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən" sözləri "xidmətlər zərfi ilə" sözləri ilə əvəz edilsin.

**29.** 15-24.1-ci və 15-24.2-ci maddələr aşağıdakı redaksiyada verilsin:

"15-24.1. Bu Qanunun 15-2.2.1 - 15-2.2.3-cü maddələrində nəzərdə tutulmuş şəxslərə münasibətdə sığorta haqqının hesablanmasına və ödənilməsinə nəzarət, sığorta haqları üzrə hesabatın vaxtında təqdim edilməməsinə, hesablanmış sığorta haqlarının azaldılmasına və ya yayındırılmasına görə maliyyə sanksiyalarının tətbiqi, sığorta haqqı üzrə yaranmış borcların alınması, sığorta haqqının vaxtında ödənilməməsinə görə faizlərin hesablanması və artıq ödənilmiş sığorta haqqının qaytarılması müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən Azərbaycan Respublikasının Vergi Məcəlləsində müəyyən olunmuş qaydada həyata keçirilir.

15-24.2. Bu Qanunun 15-24.1-ci maddəsində qeyd olunan şəxslər istisna olmaqla, digər şəxslərə münasibətdə sığorta haqqının hesablanmasına və ödənilməsinə nəzarət müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilmiş qaydada həyata keçirilir.".

**30.** 15-26-cı maddə üzrə:

**30.1.** 15-26.2-ci maddədə "iqtisadi" sözü "tibbi-iqtisadi" sözləri ilə əvəz edilsin;

**30.2.** 15-26.3-cü maddə aşağıdakı redaksiyada verilsin:

"15-26.3. Tibbi-iqtisadi ekspertiza göstərilmiş tibbi xidmətin müddətlərinin və həcminin, o cümlədən tibb müəssisəsi tərəfindən hesablanmış sığorta ödənişi məbləğinin tibbi xidmətlərin göstərilməsi haqqında müqavilənin şərtlərinə, ilkin tibbi sənədlərə və tibb müəssisəsinin hesabat sənədlərinə uyğunluğunu müəyyən edir. Tibbi-iqtisadi ekspertizanın aparılması və nəticələrinin rəsmiləşdirilməsi qaydası, habelə ekspertizanı aparan ekspertlərə dair tələblər, ilkin tibbi sənədlərin siyahısı müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilir.".

**31.** 15-28-ci maddə üzrə:

**31.1.** 15-28.1-ci maddə aşağıdakı redaksiyada verilsin:

"15-28.1. Xidmətlər zərfində sığortaolunanın tibbi xidmətlərdən yararlanmaq üçün bilavasitə müraciət etmək hüququ nəzərdə tutulduğu hallar istisna olmaqla, sığortaolunanların ambulator-poliklinik, laborator, funksional-diaqnostik tibbi xidmətlərdən istifadəsinə ilkin səhiyyə xidmətlərini göstərən dövlət tibb müəssisəsinin göndərişinə əsasən yol verilir.";

**31.2.** 15-28.2-ci maddədə "zərfinin əlavə hissəsi" sözləri "zərfi" sözü ilə, "tibb təchizatçısının və ya tibbi ərazi bölməsinin" sözləri "tibb müəssisəsinin" sözləri ilə əvəz edilsin;

**31.3.** 15-28.3-cü maddə aşağıdakı redaksiyada verilsin:

"15-28.3. İlkin səhiyyə xidmətinə müraciət etmədən birbaşa ambulator-poliklinik, laborator, funksional-diaqnostik tibbi xidmətlərdən istifadə etdikdə sığortaolunan müştərək maliyyələşmə məbləği ödəməlidir.";

**31.4.** aşağıdakı məzmunda 15-28.4-cü maddə əlavə edilsin:

"15-28.4. Sığortaolunan icbari tibbi sığorta çərçivəsində tibbi xidmətlərdən istifadə etmək məqsədilə yönləndirildiyi tibbi ərazi bölməsindən kənar yerləşən dövlət tibb müəssisəsinə müraciət etdikdə müştərək maliyyələşmə məbləği ödəməlidir.".

**32.** 15-29-cu maddə aşağıdakı redaksiyada verilsin:

**"Maddə 15-29. Gözləmə müddəti**

Xidmətlər zərfində nəzərdə tutulduğu təqdirdə, xidmətlər zərfinə daxil olan tibbi xidmətlərin göstərilməsinə gözləmə müddəti tətbiq edilir. Gözləmə müddətinin tətbiq edildiyi tibbi xidmətlər və gözləmə müddətinin hesablanması qaydası xidmətlər zərfi ilə müəyyən edilir.".

**33.** 16-cı maddə üzrə:

**33.1.** 16.1-ci maddədə "müqaviləsinin bağlanılmasından imtina edilməsi, sığorta haqlarının hesablanması üçün məbləğlərin gizlədilməsi və ya aşağı salınması," sözləri "üzrə sığorta haqlarının gizlədilməsi və ya" sözləri ilə əvəz edilsin;

**33.2.** 16.2-ci maddədə "təchizatçısı" sözü "müəssisəsi" sözü ilə əvəz edilsin;

**33.3.** 16.3-cü maddədə "təchizatçıları" sözü "müəssisələri" sözü ilə əvəz edilsin.

**34.** 16-1.1-ci və 16-1.2-ci maddələrdə "tibb təchizatçıları və tibbi ərazi bölmələri" sözləri "tibb müəssisələri" sözləri ilə əvəz edilsin.

**35.** aşağıdakı məzmunda 16-4-cü maddə əlavə edilsin:

**"Maddə 16-4. Keçid müddəaları**

16-4.1. İcbari tibbi sığorta ölkənin inzibati ərazi vahidləri üzrə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilmiş ardıcıllıq nəzərə alınmaqla, 2020-ci ildə tamamlanmaq şərtilə mərhələli şəkildə tətbiq olunur.

16-4.2. Bu Qanunun 16-4.1-ci maddəsinə əsasən müəyyən edilmiş mərhələlərə uyğun olaraq, bu Qanunun 15-10.1.1-ci maddəsində nəzərdə tutulan sığorta haqqının ödənilməsi qaydası müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilir.

16-4.3. Bu Qanunun 15-10.1.2-ci maddəsində nəzərdə tutulan əməkhaqqının 8000 manatadək hissəsindən ödənilən sığorta haqqının məbləğinə neft-qaz sahəsində fəaliyyəti olmayan və qeyri-dövlət sektoruna aid edilən sahələr üzrə 2021-ci il yanvarın 1-dək 50 faiz güzəşt tətbiq edilir. Bu maddənin məqsədləri üçün neft-qaz sahəsində fəaliyyətin və qeyri-dövlət sektorunun meyarları Azərbaycan Respublikasının Vergi Məcəlləsinə və "Sosial sığorta haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş qaydada müəyyən edilir.

16-4.4. Bu Qanunun 15-9.1.6-cı, 15-10.1.2-ci, 15-10.1.3-cü, 15-10.1.4-cü, 15-10.1.6-cı, 15-17.2.3-cü, 15-18-ci maddələri, habelə müştərək maliyyələşmə məbləğinə aid hissələrdə 15-28.3-cü və 15-28.4-cü maddələri 2020-ci il aprelin 1-dən qüvvəyə minir.

16-4.5. Bu Qanunun 15-10.1.5-ci maddəsi 2023-cü il yanvarın 1-dən qüvvəyə minir.

16-4.6. Bu Qanun (16-4.4-cü və 16-4.5-ci maddələrdə nəzərdə tutulan maddələr istisna olmaqla) 2020-ci il yanvarın 1-dən qüvvəyə minir.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 3 dekabr 2019-cu il*

# "İcbari sığortalar haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" 2018-ci il 28 dekabr tarixli 1442-VQD nömrəli və "İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" 2018-ci il 28 dekabr tarixli 1443-VQD nömrəli Azərbaycan Respublikası qanunlarının ləğv edilməsi haqqında

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 16-cı və 27-ci bəndlərini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** "İcbari sığortalar haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 28 dekabr tarixli 1442-VQD nömrəli Qanunu (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 1, maddə 48) ləğv edilsin.

**Maddə 2.** "İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 28 dekabr tarixli 1443-VQD nömrəli Qanunu (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 1, maddə 49) ləğv edilsin.

**Maddə 3.** Bu Qanun 2020-ci il yanvarın 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 3 dekabr 2019-cu il*

## “Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında Sadələşdirilmiş Gömrük Dəhlizi haqqında” Anlaşma Memorandumunun təsdiq edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 4-cü bəndini rəhbər tutaraq **qərara alır:**

“Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında Sadələşdirilmiş Gömrük Dəhlizi haqqında” 2019-cu il oktyabrın 11-də Ankara şəhərində imzalanmış Anlaşma Memorandumu təsdiq edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 3 dekabr 2019-cu il*

## “Tibbi sığorta haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2019-cu il 3 dekabr tarixli 1718-VQD nömrəli Qanununun tətbiqi və “Tibbi sığorta haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2018-ci il 28 dekabr tarixli 1441-VQD nömrəli Qanununun tətbiqi və “Tibbi sığorta haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 30 dekabr tarixli 241 nömrəli Fərmanının ləğv edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 31 yanvar tarixli 502 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, “Tibbi sığorta haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2019-cu il 3 dekabr tarixli 1718-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. “Tibbi sığorta haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2018-ci il 28 dekabr tarixli 1441-VQD nömrəli Qanununun tətbiqi və “Tibbi sığorta haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 30 dekabr tarixli 241 nömrəli Fərmanının ləğv edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 31 yanvar tarixli 502 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 1, maddə 92) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 1.1.3 - 1.1.6-cı, 1.1.9-cu, 1.2.2-ci, 1.2.4-cü, 1.3.3-cü, 1.3.4-cü, 1.3.6-cı yarımbəndlər, 2-ci, 3-cü və 4-cü hissələr, 5.1.1 - 5.1.4-cü, 5.1.6-cı yarımbəndlər ləğv edilsin;

1.2. 1.1.7-ci yarımbənddə “maliyyələşdirilməsi” sözü “göstərilməsi” sözü ilə əvəz edilsin;

1.3. 1.3.1-ci yarımbənddə “tibb təchizatçıları və ya tibbi ərazi bölmələri” sözləri “tibb müəssisələri” sözləri ilə əvəz edilsin;

1.4. 1.3.2-ci yarımbənddən “statistik məlumatların təqdim edilməsi və” sözləri çıxarılsın;

1.5. 1.3.5-ci yarımbənddə “tibbi ərazi bölməsinə” sözləri “dövlət tibb müəssisəsinə” sözləri ilə əvəz edilsin;

1.6. 1.3.7-ci yarımbənddə “iqtisadi” sözü “tibbi-iqtisadi” sözləri ilə əvəz edilsin;

1.7. 6.1-ci, 6.2-ci, 6.3-cü, 6.8-ci, 6.9-cu, 6.10-cu, 6.12-ci və 6.13-cü bəndlər aşağıdakı redaksiyada verilsin:

“6.1. “Tibbi sığorta haqqında” Azərbaycan Respublikası Qanununun 1.0.5-ci, 1.0.13-cü, 1.0.14-cü, 7.2-ci, 15-2.2.1-ci, 15-3.1- 15-3.3-cü, 15-4.1.6-cı, 15-5.1.1-ci, 15-6.1-ci, 15-6.2-ci, 15-6.3-cü, 15-7.1.3-cü, 15-7.1.4-cü, 15-7.2.4-cü, 15-7.2.5-ci, 15-9.1.8-ci, 15-9.1.11-ci maddələrində, 15-9.2-ci maddəsinin birinci (hər iki halda) və ikinci cümlələrində, 15-10.1.2-ci, 15-10.2-ci (hər iki halda), 15-11.2-ci, 15-11.3-cü, 15-11.4-cü, 15-11.5-ci, 15-11.7-ci, 15-11.9-cu, 15-13.1-ci, 15-13.2-ci, 15-14-cü, 15-15.1-ci, 15-15.2-ci, 15-16.0-cı, 15-17.3-cü, 15-17.4-cü, 15-18.2-ci, 15-19-cu, 15-20.1-ci, 15-21.1.3-cü, 15-21.1.4-cü maddələrində, 15-21.3-cü maddəsinin birinci və ikinci cümlələrində, 15-21.5-ci, 15-23.2-ci, 15-24.1-ci, 15-24.2-ci, 15-25.1-ci, 15-26.1-ci maddələrində, 15-26.3-cü və 15-26.4-cü maddələrinin ikinci cümlələrində, 15-27.1-ci, 15-27.2-ci, 16-1.1-ci, 16-1.2-ci maddələrində, 16-3-cü maddəsinin birinci (hər üç halda) və ikinci cümlələrində, 16-4.1-ci və 16-4.2-ci maddələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

6.2. həmin Qanunun 15-2.2.1-ci, 15-9.1.11-ci, 15-10.1.2-ci, 15-21.1.4-cü maddələrində və 15-21.3-cü maddəsinin ikinci cümləsində “orqan (qurum)” dedikdə Azərbaycan Respublikasının Prezidenti nəzərdə tutulur;

6.3. həmin Qanunun 15-3.1-ci, 15-6.3-cü, 15-9.1.8-ci, 15-11.9-cu, 15-13.2-ci, 15-15.1-ci, 15-15.2-ci, 15-17.3-cü, 15-17.4-cü, 15-19-cu, 15-21.5-ci, 15-23.2-ci, 15-24.2-ci, 15-25.1-ci maddələrində, 15-26.3-cü və 15-26.4-cü maddələrinin ikinci cümlələrində, 15-27.2-ci, 16-4.1-ci və 16-4.2-ci maddələrində “orqan (qurum)” dedikdə Azərbaycan Respublikasının Nazirlər Kabineti nəzərdə tutulur;”;

“6.8. həmin Qanunun 15-11.2-ci maddəsində “orqan (qurum)” dedikdə Azərbaycan Respublikasının Maliyyə Nazirliyi nəzərdə tutulur;

6.9. həmin Qanunun 15-11.3-cü, 15-11.4-cü, 15-11.5-ci, 15-11.7-ci və 15-24.1-ci maddələrində “orqan (qurum)” dedikdə Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi nəzərdə tutulur;

6.10. həmin Qanunun 15-6.2-ci maddəsində “orqan (qurum)” dedikdə Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi (həmin Qanunun 15-2.2.1-ci maddəsinə münasibətdə) və Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi (həmin Qanunun 15-2.2.2-ci və 15-2.2.3-cü maddələrinə münasibətdə) nəzərdə tutulur;”;

“6.12. həmin Qanunun 1.0.5-ci, 1.0.13-cü, 15-3.2-ci, 15-3.3-cü, 15-4.1.6-cı, 15-5.1.1-ci, 15-6.1-ci, 15-7.1.3-cü, 15-7.1.4-cü, 15-7.2.4-cü, 15-7.2.5-ci, 15-10.2-ci (ikinci halda), 15-13.1-ci, 15-14-cü, 15-16.0-cı, 15-18.2-ci, 15-20.1-ci, 15-21.1.3-cü maddələrində, 15-21.3-cü maddəsinin birinci cümləsində, 15-26.1-ci, 15-27.1-ci, 16-1.1-ci və 16-1.2-ci maddələrində “orqan (qurum)” dedikdə İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi nəzərdə tutulur;

6.13. həmin Qanunun 1.0.14-cü maddəsində “orqan (qurum)” dedikdə tabeliyindəki Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi qismində İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi nəzərdə tutulur;”;

1.8. 6.4-cü və 6.7-ci bəndlərdə “Respublikası Prezidentinin Xüsusi” sözləri “Respublikasının Xüsusi” sözləri ilə əvəz edilsin;

1.9. aşağıdakı məzmunda 6.14 - 6.17-ci bəndlər əlavə edilsin:

“6.14. həmin Qanunun 15-9.2-ci maddəsinin ikinci cümləsində “orqan (qurum)” dedikdə vəsaitin bölgüsü hissəsində Azərbaycan Respublikasının Prezidenti, vəsaitdən istifadə qaydası hissəsində isə Azərbaycan Respublikasının Prezidenti (Azərbaycan Respublikası Prezidentinin Administrasiyasında, Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsində və Azərbaycan Respublikasının Xüsusi Tibb Xidmətində işləyən dövlət qulluqçularına münasibətdə) və Azərbaycan Respublikasının Nazirlər Kabineti (Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin və İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin işçilərinə münasibətdə) nəzərdə tutulur;

6.15. həmin Qanunun 15-9.2-ci maddəsinin birinci cümləsində (ikinci halda) “orqan (qurum)” dedikdə Azərbaycan Respublikası Prezidentinin Administrasiyası, Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi və İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi nəzərdə tutulur;

6.16. həmin Qanunun 15-9.2-ci maddəsinin birinci cümləsində “orqanın (qurumun) maddi-texniki bazası” dedikdə Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin və İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin maddi-texniki bazaları nəzərdə tutulur;

6.17. həmin Qanunun 15-9.2-ci maddəsinin birinci cümləsində “orqanın (qurumun) işçiləri” dedikdə Azərbaycan Respublikası Prezidentinin Administrasiyasında, Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsində, Azərbaycan Respublikasının Xüsusi Tibb Xidmətində işləyən dövlət qulluqçuları, Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin və İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin işçiləri nəzərdə tutulur.”.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. “Tibbi sığorta haqqında” Azərbaycan Respublikası Qanununun 15-17.4-cü maddəsinə uyğun olaraq, xidmətlər zərfini on gün müddətində müəyyən etsin;

2.2. həmin Qanunun 16-4.1-ci maddəsinə uyğun olaraq, icbari tibbi sığortanın ölkənin inzibati ərazi vahidləri üzrə tətbiqi ardıcıllığını üç gün müddətində müəyyən etsin;

2.3. üç ay müddətində:

2.3.1. həmin Qanunun 7.2-ci maddəsində nəzərdə tutulmuş “orqan (qurum)” ilə bağlı təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2.3.2. həmin Qanunun 15-6.3-cü maddəsinə uyğun olaraq, sığortaolunanların fərdi uçotunun aparılması qaydasını müəyyən etsin;

2.3.3. həmin Qanunun 15-9.1.8-ci maddəsinə uyğun olaraq, borcun cəlb edilməsi qaydasını müəyyən etsin;

2.3.4. həmin Qanunun 15-13.2-ci maddəsinə uyğun olaraq, icbari tibbi sığorta şəhadətnaməsinin nümunəvi formasını müəyyən etsin;

2.3.5. həmin Qanunun 15-15.1-ci maddəsinə uyğun olaraq, şəxslərin dövlət tibb müəssisəsinə təhkim olunması qaydasını müəyyən etsin;

2.3.6. həmin Qanunun 15-17.3-cü maddəsinə uyğun olaraq, tibbi xidmətlərin xidmətlər zərfinə daxil edilməsi və ya tibbi xidmətlərin xidmətlər zərfindən çıxarılması meyarları və qaydasını müəyyən etsin;

2.3.7. həmin Qanunun 15-21.5-ci maddəsinə uyğun olaraq, sığorta ehtiyatlarının yaradılması və onlardan istifadə qaydasını müəyyən etsin;

2.3.8. həmin Qanunun 15-23.2-ci maddəsinə uyğun olaraq, icbari tibbi sığorta çərçivəsində göstərilən tibbi xidmətlərin tariflərinin hesablanması qaydasını müəyyən etsin;

2.3.9. həmin Qanunun 15-24.2-ci maddəsinə uyğun olaraq, sığorta haqqının hesablanmasına və ödənilməsinə nəzarət qaydasını müəyyən etsin;

2.3.10. həmin Qanunun 16-4.2-ci maddəsinə uyğun olaraq, dövlət büdcəsinin vəsaiti hesabına sığorta haqqının mərhələli şəkildə ödənilməsi qaydasını müəyyən etsin;

2.4. “Tibbi sığorta haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının Qanunundan irəli gələn digər məsələləri həll etsin;

2.5. bu Fərmanın 2.1 - 2.3-cü bəndlərində (2.3.1-ci yarımbənd istisna olmaqla) nəzərdə tutulan tapşırıqların icrası barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin.

3. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Fərmanın 2.2-ci bəndi ilə müəyyən ediləcək icbari tibbi sığortanın ölkənin inzibati ərazi vahidləri üzrə tətbiqi ardıcıllığına uyğun olaraq əhalinin sayına müvafiq hesablanmış sığorta haqqının, habelə “Tibbi sığorta haqqında” Azərbaycan Respublikası Qanununun 16-4.1-ci maddəsinə əsasən icbari tibbi sığortanın mərhələli tətbiqini nəzərə alaraq icbari tibbi sığorta ilə əhatə olunmayan inzibati ərazi vahidlərinin səhiyyə xərclərinin dövlət büdcəsində bu məqsədlər üçün nəzərdə tutulmuş vəsait hesabına maliyyələşdirilməsini təmin etsin.

4. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi “Tibbi sığorta haqqında” Azərbaycan Respublikası Qanununun 15-11.3-cü, 15-11.4-cü, 15-11.5-ci və 15-11.7-ci maddələrinə uyğun olaraq, bəyannamənin formasını İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi ilə razılaşdırmaqla bir ay müddətində müəyyən etsin.

5. İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi:

5.1. “Tibbi sığorta haqqında” Azərbaycan Respublikası Qanununun 1.0.14-cü maddəsinə uyğun olaraq, tibbi ərazi bölmələrinin formalaşdırılmasını bir ay müddətində təmin etsin;

5.2. “Tibbi sığorta haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının Qanunundan irəli gələn digər məsələləri həll etsin.

6. Bu Fərmanın 1-ci hissəsi 2020-ci il yanvarın 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 24 dekabr 2019-cu il*

## “Aqrar sahədə yeni subsidiya mexanizminin yaradılması haqqında” Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 27 iyun tarixli 759 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

“Aqrar sahədə yeni subsidiya mexanizminin yaradılması haqqında” Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 27 iyun tarixli 759 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 6, maddə 1050) 3.2-ci bəndində “Subsidiya” sözü “Elektron kənd təsərrüfatı” sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 23 dekabr 2019-cu il*

## “Azərbaycan Respublikasının Hərbi-Dəniz bayraqları haqqında” və “Azərbaycan Respublikası Dövlət bayrağının istifadəsi qaydaları haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 18-ci bəndini rəhbər tutaraq **qərara alır:**

1. “Azərbaycan Respublikasının Hərbi-Dəniz bayraqları haqqında” Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 2, maddə 62) aşağıdakı dəyişikliklər edilsin:

1.1. həmin Qanunla təsdiq edilmiş 1 nömrəli əlavə - “Azərbaycan Respublikasının Hərbi-Dəniz bayraqları haqqında Əsasnamə”nin 8-ci hissəsindən “və Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Ali komandanlığına” sözləri çıxarılsın;

1.2. həmin Qanunla təsdiq edilmiş 2 nömrəli əlavə - “Azərbaycan Respublikasının Hərbi-Dəniz bayraqlarının Təsviri”nin 4-cü hissəsi ləğv edilsin;

1.3. “Şəkil 4. Azərbaycan Respublikasının Silahlı Qüvvələrinin Ali Baş Komandanının bayrağı” ləğv edilsin.

2. “Azərbaycan Respublikası Dövlət bayrağının istifadəsi qaydaları haqqında” Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 7, maddə 515; 2005, № 10, maddə 874; 2010, № 4, maddə 276; 2013, № 11, maddə 1303; Azərbaycan Respublikasının 2019-cu il 8 oktyabr tarixli 1674-VQD nömrəli Qanunu) 8.2-ci maddəsinə “digər dövlətlərin” sözlərindən əvvəl “Azərbaycan Respublikası Silahlı Qüvvələri Ali Baş Komandanının bayrağı,” sözləri əlavə edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 3 dekabr 2019-cu il*

## “Ətraf mühitə təsirin qiymətləndirilməsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 20-ci bəndini rəhbər tutaraq, “Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikasının 2019-cu il 9 aprel tarixli 1561-VQD nömrəli Qanununun tətbiqi ilə əlaqədar **qərara alır:**

“Ətraf mühitə təsirin qiymətləndirilməsi haqqında” Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 7 (I kitab), maddə 1397; 2019, № 6, maddə 991) aşağıdakı dəyişikliklər edilsin:

1. Aşağıdakı məzmunda 5.5-ci maddə əlavə edilsin:

“5.5. ƏMTQ üzrə qiymətləndirici tərəfindən ƏMTQ sənədinə yalan məlumatların daxil edilməsinə yol verilmir.”.

2. 8.8-ci maddəyə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

“ƏMTQ üzrə qiymətləndirici tərəfindən SEQ sənədinə yalan məlumatların daxil edilməsinə yol verilmir.”.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 3 dekabr 2019-cu il*

## “2 oktyabr 2009-cu il tarixində imzalanmış Azərbaycan Respublikası Hökuməti və Qazaxıstan Respublikası Hökuməti arasında vətəndaşların qarşılıqlı vizasız gediş-gəlişi haqqında Sazişə dəyişikliklər edilməsi barədə” Protokolun təsdiq edilməsi haqqında

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 4-cü bəndini rəhbər tutaraq **qərara alır:**

“2 oktyabr 2009-cu il tarixində imzalanmış Azərbaycan Respublikası Hökuməti və Qazaxıstan Respublikası Hökuməti arasında vətəndaşların qarşılıqlı vizasız gediş-gəlişi haqqında Sazişə dəyişikliklər edilməsi barədə” 2019-cu il oktyabrın 14-də Bakı şəhərində imzalanmış Protokol təsdiq edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 3 dekabr 2019-cu il*

## Ümumdünya Poçt İttifaqının Ümumi Reqlamentlərinə Birinci Əlavə Protokola qoşulmaq haqqında

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 4-cü bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikası Ümumdünya Poçt İttifaqının 2016-cı il oktyabrın 6-da İstanbul şəhərində qəbul edilmiş Ümumdünya Poçt İttifaqının Ümumi Reqlamentlərinə Birinci Əlavə Protokola qoşulsun.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 3 dekabr 2019-cu il*

## Azərbaycan Respublikasında kənd təsərrüfatının inkişafında xidmətləri olan bir qrup şəxsin təltif edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasında kənd təsərrüfatının inkişafında xidmətləri olan aşağıdakı şəxslər təltif edilsinlər:

**1-ci dərəcəli “Əmək” ordeni ilə**

Abbasov Vaqif Qurban oğlu
Qədimov Fuad Tahir oğlu
Qurbanov Mürsəl Bakir oğlu
Mustafayev Mehman Xancan oğlu
Soltanov Şakir Soltan oğlu

**2-ci dərəcəli “Əmək” ordeni ilə**

Abasov Qurban İsmayıl oğlu
Babaşov Qurbanəli Şahvələd oğlu
Cəfərov Arif Məmməd oğlu
Fərzəliyev Hatif Şahsuvar oğlu
Hüseynov İsrayıl İsa oğlu
İbrahimov İlyas Aslan oğlu
Qurbanov İlkin Fərman oğlu
Mahmudov Mahmud Bayram oğlu
Məmmədov Əmir Əli oğlu
Mürşüdov İsa Əli oğlu
Nağıyev Muxran Engilis oğlu

**3-cü dərəcəli “Əmək” ordeni ilə**

Cavadov Ərşah Cavad oğlu
Dadayeva Ayparə Şaban qızı
Əhmədov Etibar Lətif oğlu
Əliyev Afiq Rəcəb oğlu
İsayev Qalib Baləhməd oğlu
Məmmədov Nizami Qulu oğlu
Mustafayev Şahin Mirzərəhim oğlu
Poladov Mövlan Qadaş oğlu
Salmanov İsa Ələkbər oğlu
Tağıyev Elqam Qənbər oğlu
Yusifov Asif Adıgözəl oğlu.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 25 dekabr 2019-cu il*

## Mingəçevir şəhəri ərazisində avtomobil yollarının əsaslı təmirinə dair tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Mingəçevir şəhəri ərazisində ümumi uzunluğu 11,9 kilometr olan, “Günəşli”, “Bağlar”, “Üçxoz” və “Tingçilik” yaşayış massivlərini şəhərlə birləşdirən avtomobil yollarının əsaslı təmiri məqsədilə Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondundan Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə 2,5 milyon (iki milyon beş yüz min) manat ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 25 dekabr 2019-cu il*

## Salyan şəhərinin su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması ilə bağlı tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Salyan şəhərinin su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması işlərinin davam etdirilməsi məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 15 yanvar tarixli 890 nömrəli Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsində digər layihələr üzrə dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü”nün 1.7.7-ci yarımbəndində göstərilmiş məbləğin 3,0 (üç) milyon manatı “Azərsu” Açıq Səhmdar Cəmiyyətinə ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 25 dekabr 2019-cu il*

# Azərbaycan Respublikasının Ailə Məcəlləsində dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 14-cü bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** Azərbaycan Respublikasının Ailə Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 3 (I kitab), maddə 126; 2002, №12, maddə 702; 2004, № 7, maddə 505; 2006, № 2, maddə 66, № 11, maddə 923, № 12, maddələr 1005, 1006; 2007, № 1, maddə 4, № 8, maddə 745, № 11, maddə 1053, № 12, maddə 1218; 2008, № 7, maddə 602; 2010, № 2, maddə 70, № 3, maddə 171, № 5, maddə 380, № 7, maddə 578; 2011, № 7, maddələr 585, 620, № 12, maddə 1110; 2014, № 12, maddə 1515; 2019, № 2, maddə 185, № 5, maddə 800) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 52-ci maddənin üçüncü cümləsində "bilər" sözü ", habelə qərar qəbul edərkən 7 yaşına çatmış uşağın fikrini öyrənə və nəzərə ala bilər" sözləri ilə əvəz edilsin;

1.2. 65.2-ci maddədə "ərizəsinə," sözündən sonra "müvafiq icra hakimiyyəti orqanının," sözləri əlavə edilsin;

1.3. 74.4-cü və 79.2-ci maddələrdə "tərbiyə, müalicə, əhalinin sosial müdafiəsi müəssisələrində və digər analoji müəssisələrdə" sözləri "sosial xidmət müəssisələrində" sözləri ilə əvəz edilsin;

1.4. 114-cü maddə üzrə:

1.4.1. 114.1-ci maddədə "tərbiyə, müalicə və əhalinin sosial müdafiəsi müəssisələrində və digər analoji müəssisələrdən" sözləri "sosial xidmət müəssisələrindən" sözləri ilə əvəz edilsin;

1.4.2. 114.2-ci maddə aşağıdakı redaksiyada verilsin:

"114.2. Valideyn himayəsindən məhrum olmuş uşaqlar aşkar edildikdən sonra müvafiq icra hakimiyyəti orqanı valideyn himayəsindən məhrum olmağın konkret hallarını nəzərə almaqla 1 (bir) ay müddətində həmin uşaqların bu Məcəllənin 116.1-ci maddəsinə uyğun olaraq yerləşdirilməsini (övladlığa vermə istisna olmaqla) təmin edir.";

1.5. 115-ci maddə üzrə:

1.5.1. adından "və uçotu" sözləri çıxarılsın;

1.5.2. 115.3-cü maddədə "tərbiyə, müalicə, əhalinin sosial müdafiəsi və digər analoji müəssisələrin" sözləri "sosial xidmət müəssisələrinin" sözləri ilə əvəz edilsin;

1.5.3. 115.4-cü maddə aşağıdakı redaksiyada verilsin:

"115.4. Müvafiq icra hakimiyyəti orqanı valideyn himayəsindən məhrum olmuş uşaqları aşkar etdikdən və bu Məcəllənin 114.1-ci maddəsində göstərilmiş məlumatları aldıqdan sonra həmin uşaq haqqında bu Məcəllənin 119.2.1-ci və 119.2.3-cü maddələrində göstərilən məlumatları dərhal müvafiq icra hakimiyyəti orqanının Mərkəzləşdirilmiş elektron informasiya sisteminə (bundan sonra - elektron informasiya sistemi) daxil edirlər.";

1.5.4. 115.5-ci və 115.6-cı maddələr ləğv edilsin;

1.5.5. 115.7-ci maddədə "115.5-ci" sözləri "115.4-cü" sözləri ilə əvəz edilsin;

1.6. 116.1-ci maddədə "və ya yetim uşaqlar üçün nəzərdə tutulmuş tərbiyə, müalicə, əhalinin sosial müdafiəsi müəssisələrinə və digər analoji müəssisələrə verilə bilərlər" sözləri "uşaqlar üçün sosial xidmət müəssisələrinə verilirlər" sözləri ilə əvəz edilsin;

1.7. 117-ci maddə üzrə:

1.7.1. 117.5-ci maddədə "uşaqların," sözündən sonra ", habelə Azərbaycan Respublikasının vətəndaşı olmayan, lakin bu Məcəlləyə uyğun olaraq vahid uçota alınmış uşaqların," sözləri əlavə edilsin;

1.7.2. 117.6-cı maddəyə "Uşaqlar" sözündən sonra "(bu Məcəllənin 117.6-1-ci maddəsində göstərilən hal istisna olmaqla)" sözləri əlavə edilsin və həmin maddədə "115.5-ci" sözləri "119.1-ci" sözləri ilə, "ümumi uçota götürüldüyü" sözləri "vahid uçota alındığı" sözləri ilə əvəz edilsin;

1.7.3. aşağıdakı məzmunda 117.6-1-ci maddə əlavə edilsin:

"Azərbaycan Respublikasının vətəndaşı olmayan, lakin bu Məcəllənin 119.1-ci maddəsinə uyğun olaraq vahid uçota alınmış uşaqların Azərbaycan Respublikasının hüdudlarından kənarda yaşayan Azərbaycan Respublikası vətəndaşlarına, uşaqların qohumu olmayan əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə övladlığa verilməsinə 1 (bir) il müddət keçdikdən sonra yol verilir.";

1.7.4. 117.7-ci maddə ləğv edilsin;

1.8. 118-ci və 119-cu maddələr aşağıdakı redaksiyada verilsin:

"Maddə 118. Övladlığa götürmə qaydası

118.1. Övladlığa götürmə üç mərhələdə həyata keçirilir:

118.1.1. övladlığa götürmək istəyən şəxsin (şəxslərin) uçota alınması;

118.1.2. övladlığa götürmənin uşağın mənafeyinə uyğunluğunun müəyyən edilməsi;

118.1.3. övladlığa götürmə barədə məhkəmə qərarının qəbul edilməsi.

118.2. Övladlığa götürmək istəyən şəxsin (şəxslərin) uçota alınması bu Məcəllənin 119-cu maddəsinə uyğun olaraq həyata keçirilir.

118.3. Övladlığa götürmənin uşağın mənafeyinə uyğunluğu müvafiq icra hakimiyyəti orqanı tərəfindən 1 (bir) ildən çox olmayan müddətdə aşağıdakı qaydada müəyyən edilir:

118.3.1. övladlığa götürmək istəyən şəxslə (şəxslərlə) müsahibə aparılması;

118.3.2. övladlığa götürmək istəyən şəxslərin təlimlərə cəlb edilməsi;

118.3.3. övladlığa götürmək istəyən şəxsə uyğun uşağın, övladlığa götürülən uşağa uyğun valideynin seçilməsi;

118.3.4. övladlığa götürülən uşaqla övladlığa götürmək istəyən şəxsin (şəxslərin) uşağın yerləşdiyi müəssisədə görüşünün təşkili;

118.3.5. övladlığa götürülən uşağın sınaq müddətində uşağı övladlığa götürmək istəyən şəxsin (şəxslərin) evində yerləşdirilməsi.

118.4. Valideyn himayəsindən məhrum olmuş uşaqların övladlığa götürülməsi, o cümlədən Azərbaycan Respublikasının vətəndaşı olan uşaqların əcnəbilər və vətəndaşlığı olmayan şəxslər tərəfindən övladlığa götürülməsi qaydası müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

118.5. Müvafiq icra hakimiyyəti orqanı övladlığa götürmənin məqsədləri, övladlığa götürmək istəyən şəxsin (şəxslərin) həyat şəraiti, ailə tərkibi, ailə üzvlərinin övladlığa götürməyə münasibətini öyrənmək məqsədilə elektron informasiya sistemində uçota alınma ardıcıllığına uyğun olaraq seçilmiş övladlığa götürmək istəyən şəxslə (şəxslərlə) müsahibə keçirir, habelə bu Məcəllənin 118.4-cü maddəsində nəzərdə tutulmuş qaydaya uyğun olaraq həmin şəxsin (şəxslərin) maddi-məişət şəraitinin müayinəsini aparır.

118.6. Öz ölkələrində övladlığa götürmə ilə bağlı təlim keçmiş əcnəbilər və vətəndaşlığı olmayan şəxslər istisna olmaqla, müsahibədən keçmiş övladlığa götürmək istəyən şəxs (şəxslər) müvafiq icra hakimiyyəti orqanı tərəfindən övladlığa götürmə ilə bağlı 30 (otuz) gündən çox olmayan müddətdə təlimlərə cəlb edilir. Öz ölkəsində övladlığa götürmə ilə bağlı təlim keçməsi barədə təsdiqedici sənəd (sertifikat) təqdim edən əcnəbilər və vətəndaşlığı olmayan şəxslər təlimlərə cəlb edilmirlər.

118.7. Təlimin nəticələri bu Məcəllənin 118.4-cü maddəsində nəzərdə tutulmuş qayda ilə müəyyən edilən meyarlara əsasən müvafiq icra hakimiyyəti orqanı tərəfindən qiymətləndirilir.

118.8. Təlimin nəticələri müsbət qiymətləndirildikdə, müvafiq icra hakimiyyəti orqanı, övladlığa götürmək istəyən şəxsin (şəxslərin) və valideyn himayəsindən məhrum olmuş uşağın istək və mənafeyini nəzərə almaqla, övladlığa götürülən uşağa uyğun valideyn və övladlığa götürmək istəyən şəxsə (şəxslərə) uyğun uşaq seçir və uşağın yerləşdiyi müəssisədə sosial işçinin iştirakı ilə onların görüşünü (görüşlərini) təşkil edir.

118.9. Bu Məcəllənin 118.8-ci maddəsində nəzərdə tutulmuş görüşün (görüşlərin) nəticəsinə dair sosial işçinin hesabatı nəzərə alınmaqla, müvafiq icra hakimiyyəti orqanı uşağın övladlığa götürmək istəyən şəxsin (şəxslərin) ailəsində sınaq müddəti ilə yerləşdirilib-yerləşdirilməməsi barədə qərar qəbul edir. Uşaq övladlığa götürmək istəyən şəxsin (şəxslərin) ailəsində müvafiq icra hakimiyyəti orqanı və övladlığa götürmək istəyən şəxs (şəxslər) arasında bağlanmış müqavilə əsasında yerləşdirilir.

118.10. Uşaq Azərbaycan Respublikasının hüdudlarından kənarda yaşayan övladlığa götürmək istəyən şəxsin (şəxslərin), o cümlədən əcnəbilər və vətəndaşlığı olmayan şəxslərin ailəsində sınaq müddətində həmin şəxslərin Azərbaycan Respublikasında mülkiyyətində yaşayış sahəsi olduğu hallarda həmin yaşayış sahəsində, əks halda Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsinə uyğun olaraq olduqları yer üzrə qeydiyyata alındıqdan sonra həmin yerlərdə yerləşdirilir.

118.11. Sosial işçi uşağın övladlığa götürmək istəyən şəxsin (şəxslərin) ailəsində sınaq müddətində yerləşdirilməsinin monitorinqini aparır. Monitorinqin nəticəsi mənfi olduqda uşaq sosial xidmət müəssisəsinə qaytarılır və müvafiq icra hakimiyyəti orqanı tərəfindən bu Məcəllənin 118.4-cü maddəsində nəzərdə tutulmuş qaydaya uyğun olaraq reabilitasiya tədbirləri görülür.

118.12. Müvafiq icra hakimiyyəti orqanı uşağın övladlığa götürmək istəyən şəxsin (şəxslərin) ailəsində sınaq müddətində yerləşdirilməsinin nəticələrinə əsasən övladlığa götürmənin uşağın mənafeyinə uyğunluğu barədə rəy verir.

118.13. Müvafiq icra hakimiyyəti orqanının uşağın övladlığa götürülməsi ilə bağlı rəyi müsbət olduqda, uşağı övladlığa götürmək istəyən şəxs (şəxslər) həmin rəylə birlikdə Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsinə uyğun olaraq ərizə ilə məhkəməyə müraciət edir. Məhkəmənin müvafiq qərarı qəbul edilənədək, habelə məhkəmə tərəfindən uşağın övladlığa verilməsi barədə müsbət qərar qəbul edildikdə, bu Məcəllənin 118.9-cu maddəsi ilə müəyyən edilmiş sınaq müddəti həmin qərarın qanuni qüvvəyə mindiyi günədək uzadılır. Müvafiq icra hakimiyyəti orqanının uşağın övladlığa verilməsi ilə bağlı rəyi mənfi olduqda və ya məhkəmə uşağın övladlığa verilməsindən imtina olunması barədə qərar qəbul etdikdə uşaq yerləşdiyi müəssisəyə qaytarılır və müvafiq icra hakimiyyəti orqanı tərəfindən bu Məcəllənin 118.4-cü maddəsində nəzərdə tutulmuş qaydaya uyğun olaraq reabilitasiya tədbirləri görülür.

118.14. Müvafiq icra hakimiyyəti orqanının övladlığa götürmənin övladlığa götürülən uşağın mənafeyinə uyğunluğu haqqında rəyi mənfi olduqda, uşağı övladlığa götürmək istəyən şəxs (şəxslər) bu Məcəllənin 118.3-cü (bu Məcəllənin 118.3.1-ci maddəsi istisna olmaqla) maddəsi ilə müəyyən edilmiş prosedurları təkrar keçməlidirlər.

118.15. Uşaq yaxın qohumlar (bacı-qardaş, nənə-baba, valideynlərinin bacıları, qardaşları, onların övladları) tərəfindən övladlığa götürüldükdə, bu Məcəllənin 118.1.1-ci və 118.3.1-ci maddələrinin tələbləri həmin şəxslərə də şamil edilir.

118.16. Uşaq ögey ata, ögey ana tərəfindən övladlığa götürüldükdə (hər iki valideynin vəfat etdiyi hallar istisna olmaqla) bu Məcəllənin 118.3-cü maddəsinin tələbləri onlara şamil olunmur.

118.17. Azərbaycan Respublikası vətəndaşı olan uşaqlar əcnəbilər və vətəndaşlığı olmayan şəxslər tərəfindən övladlığa götürüldükdə, uşağı övladlığa götürmək istəyən şəxsə (şəxslərə) hüquqi yardım akkreditə edilmiş orqan tərəfindən həyata keçirilir.

118.18. Akkreditə edilmiş orqan müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

118.19. Övladlığa götürmək istəyən şəxsin (şəxslərin) və övladlığa götürülən uşaqların hüquq və vəzifələri məhkəmənin uşağın övladlığa götürülməsinin müəyyən olunması barədə qətnaməsinin qanuni qüvvəyə mindiyi gündən yaranır.

118.20. Məhkəmə uşağın övladlığa götürülməsi barədə qətnamənin qüvvəyə mindiyi gündən 3 (üç) gün müddətində bu qətnamədən çıxarışı müvafiq icra hakimiyyəti orqanına göndərməyə borcludur.

118.21. Uşağın övladlığa götürülməsi vətəndaşlıq vəziyyəti aktlarının dövlət qeydiyyatı üçün müəyyən olunmuş qaydada qeydiyyata alınır.

118.22. Övladlığa götürmə barədə qərar məhkəmə tərəfindən uşağı övladlığa götürmək istəyən şəxsin (şəxslərin), Azərbaycan Respublikasının vətəndaşı olan uşaq əcnəbilər və ya vətəndaşlığı olmayan şəxslər tərəfindən övladlığa götürüldüyü zaman isə övladlığa götürmək istəyən şəxs (şəxslərin) və ya onların müraciəti əsasında akkreditə edilmiş orqanın ərizəsi əsasında qəbul edilir. Övladlığa götürmə barədə ərizəyə müvafiq icra hakimiyyəti orqanının iştirakı ilə mülki prosessual qanunvericilikdə nəzərdə tutulmuş xüsusi icraat qaydasında baxılır.

118.23. Ögey ata (ögey ana) tərəfindən övladlığa götürülmə zamanı məhkəmə prosesində müvafiq icra hakimiyyəti orqanının iştirakı tələb olunmur.

118.24. Ər-arvaddan biri əcnəbi olan nikahda olan şəxs (yaxın qohumlar (bacı-qardaş, nənə-baba, valideynlərinin bacıları, qardaşları, onların övladları) istisna olmaqla) tərəfindən övladlığa götürmə əcnəbilər və vətəndaşlığı olmayan şəxslər tərəfindən övladlığa götürməyə bərabər tutulur.";

"Maddə 119. Valideyn himayəsindən məhrum olmuş və övladlığa götürülən uşaqların və övladlığa götürmək istəyən şəxslərin uçotu

119.1. Müvafiq icra hakimiyyəti orqanı valideyn himayəsindən məhrum olmuş və övladlığa götürülən uşaqların və övladlığa götürmək istəyən şəxsin (şəxslərin) vahid informasiya bazasını yaratmaq məqsədilə elektron informasiya sistemində "e-sosial" internet portalı üzərindən dövlət orqanlarının (qurumlarının) apardığı elektron informasiya ehtiyatlarından (məlumat bazaları, məlumat-axtarış sistemləri, reyestrlər və digər informasiya resursları) istifadə etməklə onların vahid uçotunu bu maddənin tələbləri nəzərə alınmaqla elektron formada aparır.

119.2. Bu Məcəllənin 119.1-ci maddəsində göstərilən vahid informasiya bazasında aşağıdakı məlumatlar əks olunmalıdır:

119.2.1. valideyn himayəsindən məhrum olmuş və övladlığa götürülən uşaq və övladlığa götürmək istəyən şəxs barədə fərdi məlumatlar;

119.2.2. valideyn himayəsindən məhrum olmuş və övladlığa götürülən uşağın və övladlığa götürmək istəyən şəxsin sağlamlıq vəziyyəti barədə məlumatlar;

119.2.3. valideyn himayəsindən məhrum olmuş və övladlığa götürülən uşağın aşkar olunma şəraitinə dair məlumatlar, valideynləri (olduqda), valideyn himayəsindən məhrum edilmə səbəbləri barədə məlumatlar;

119.2.4. əvvəllər övladlığa götürülüb-götürülməməsi barədə məlumatlar;

119.2.5. övladlığa götürmək istəyən şəxsin təhsili (peşəsi), iş yeri, vəzifəsi barədə məlumatlar;

119.2.6. övladlığa götürmək istəyən şəxsin məhkumluğu barədə məlumatlar;

119.2.7. övladlığa götürmək istəyən şəxsin yaşayış şəraiti, gəlirləri və öhdəlikləri barədə məlumatlar;

119.2.8. övladlığa götürmək istəyən şəxsin əvvəllər övladlığa götürən şəxs olub-olmamasına dair məlumatlar.

119.3. Azərbaycan Respublikası vətəndaşı olan uşağı övladlığa götürmək istəyən əcnəbilər və vətəndaşlığı olmayan şəxslər bu Məcəllənin 119.2.1-119.2.2-ci və 119.2.5-119.2.8-ci maddələrində qeyd olunan məlumatları bilavasitə və yaxud akkreditə edilmiş orqan vasitəsilə kağız və ya elektron daşıyıcılarda müvafiq icra hakimiyyəti orqanına təqdim etdikdən sonra uçota alınırlar.

119.4. Yaxın qohumlar (bacı-qardaş, nənə-baba, valideynlərinin bacıları, qardaşları, onların övladları) tərəfindən övladlığa götürmə zamanı bu Məcəllənin 119.1-ci maddəsində göstərilən vahid informasiya bazasında övladlığa götürən şəxslərə dair yalnız onların məhkumluğu və sağlamlıq vəziyyəti haqqında məlumatlar əks olunur.

119.5. Bu Məcəllənin 119.2-ci maddəsində göstərilən məlumatlar müvafiq icra hakimiyyəti orqanının elektron informasiya sisteminə inteqrasiya olunan dövlət orqanlarının (qurumlarının) apardığı elektron informasiya ehtiyatlarından (məlumat bazaları, məlumat-axtarış sistemləri, reyestrlər və digər informasiya resursları) istifadə etməklə əldə edilir və müvafiq icra hakimiyyəti orqanı tərəfindən həmin məlumatların mütəmadi yenilənməsi təmin edilir. Bu mümkün olmadıqda həmin məlumatlar "İnzibati icraat haqqında" Azərbaycan Respublikası Qanununun 30.5-ci maddəsinə uyğun olaraq əldə edilir.

119.6. Bu Məcəllənin 119.2.1-119.2.2-ci maddələrində və 119.2.5-119.2.8-ci maddələrində göstərilən məlumatlar övladlığa götürmək istəyən şəxs tərəfindən təqdim edildiyi halda həmin məlumatlar 6 (altı) ay müddətində etibarlıdır.

119.7. Uşağı övladlığa götürmək istəyən şəxs (şəxslər) bu Məcəllənin 119.2.1-119.2.2-ci və 119.2.5-119.2.8-ci maddələrində məlumatların düzgünlüyünə görə məsuliyyət daşıyırlar. Bilə-bilə təhrif olunmuş və ya düzgün olmayan məlumat təqdim etmiş övladlığa götürmək istəyən şəxs (şəxslər) müvafiq icra hakimiyyəti orqanı tərəfindən 1 (bir) il müddətində övladlığa götürmənin bu Məcəllənin 118.1.2-ci maddəsində nəzərdə tutulan mərhələsindən kənarlaşdırılırlar.

119.8. Müvafiq icra hakimiyyəti orqanı övladlığa götürmənin uşağın mənafeyinə uyğunluğunun müəyyən edilməsi mərhələsində bu Məcəllənin 119.2-ci maddəsində göstərilən məlumatların monitorinqini aparmaq hüququna malikdir.".

119.9. Bu Məcəllənin 119.1-ci maddəsində göstərilən vahid informasiya bazasında uçota alınmış valideyn himayəsindən məhrum olmuş və övladlığa götürülən uşaqlar aşağıdakı hallarda uçotdan çıxarılırlar:

119.9.1. vəfat etdikdə;

119.9.2. 18 yaşına çatdıqda;

119.9.3. "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq valideyn himayəsindən məhrum olmuş uşaq hesab olunmadıqda.

119.10. Uşağı övladlığa götürmək istəyən şəxs (şəxslər) aşağıdakı hallarda müvafiq icra hakimiyyəti orqanı tərəfindən uçotdan çıxarılır:

119.10.1. vəfat etdikdə;

119.10.2. bu Məcəllənin 118.3.1-ci maddəsinə uyğun olaraq müsahibədən övladlığa götürmənin məqsədlərinin uşağın mənafeyinə uyğun olmadığı səbəbindən keçmədikdə;

119.10.3. bu Məcəllənin 120.1.6-cı maddəsində göstərilən cinayət əməllərinin törədilməsinə görə məsuliyyətə cəlb edildikdə;

119.10.4. bu Məcəllənin 120.2-ci maddəsi ilə müəyyən edilən xəstəliklərdən birinə tutulduqda;

119.10.5. barəsində cinayət təqibi üzrə icraat aparılan şəxslər, cinayət təqibi müddətində.

119.11. Bu Məcəllənin 119.9.2-ci maddəsinə əsasən uçotdan çıxarılan şəxslər, bu Məcəllənin 119.1-ci maddəsinə uyğun olaraq 1 (bir) ildən sonra təkrar uçota alınırlar.

1.9. aşağıdakı məzmunda 119-1-ci maddə əlavə edilsin:

"Maddə 119-1. Övladlığa götürmədən sonra monitorinq

119-1.1. Müvafiq icra hakimiyyəti orqanı övladlığa götürülən uşaq 18 yaşına çatanadək uşağın ailədəki vəziyyəti, əqli, fiziki, psixoloji və psixi sağlamlıq vəziyyətinin öyrənilməsi məqsədilə övladlığa götürmənin birinci ilində rübdə bir dəfə, növbəti illərdə ildə bir dəfədən az olmayaraq olaraq monitorinq aparır.

119-1.2. Bu Məcəllənin 119-1.1-ci maddəsində nəzərdə tutulan monitorinqin aparılması qaydası bu Məcəllənin 118.4-cü maddəsində nəzərdə tutulmuş qayda ilə tənzimlənir.";

1.10. 120-ci maddə üzrə:

1.10.1. 120.1-ci maddədə "yetkinlik yaşına çatmış şəxslər" sözləri "bu Məcəllənin 121.1-ci və 121.2-ci maddələri ilə müəyyən edilən tələblərə cavab verən şəxs (şəxslər)" sözləri ilə əvəz edilsin;

1.10.2. 120.1.5-ci maddənin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 120.1.6-120.1.8-ci və 120.4-120.6-cı maddələr əlavə edilsin:

"120.1.6. məhkumluğun götürülməsi və ödənilməsi nəzərə alınmadan, sülh və insanlıq, ictimai təhlükəsizlik və ictimai mənəviyyat əleyhinə, həyat və sağlamlıq, şəxsiyyətin azadlığı və ləyaqəti, şəxsiyyətin cinsi toxunulmazlığı və cinsi azadlığı əleyhinə, yetkinlik yaşına çatmayanlar və ailə münasibətləri əleyhinə qəsdən törədilən ağır və ya xüsusilə ağır cinayətlərə görə məhkum olunmuş şəxslər və bu cinayətləri törətdiyinə görə barəsində cinayət təqibinə bəraətverici əsaslar olmadan xitam verilmiş şəxslər;

120.1.7. barəsində cinayət təqibi üzrə icraat aparılan şəxslər, cinayət təqibi müddətində;

120.1.8. ailədə adambaşına düşən orta aylıq gəliri ailə üzvlərinin hər biri üçün (övladlığa götürüləcək uşaq da nəzərə alınmaqla) ölkə üzrə müəyyən olunmuş yaşayış minimumunun məbləğindən (Azərbaycan Respublikası vətəndaşı olan uşaqları övladlığa götürmək istəyən əcnəbilər və vətəndaşlığı olmayan şəxslər üçün yaşadıqları ölkə üzrə orta aylıq əməkhaqqının 2 (iki) mislindən) az olan şəxslər (ögey ata (ögey ana) və yaxın qohumlar (bacı-qardaş, nənə-baba, valideynlərinin bacıları, qardaşları, onların övladları) istisna olmaqla).";

1.10.3. aşağıdakı məzmunda 120.4-120.6-cı maddələr əlavə edilsin:

"120.4. Nikahda olmayan əcnəbilər və vətəndaşlığı olmayan şəxslər (yaxın qohumları olan uşağın övladlığa götürülməsi istisna olmaqla) tərəfindən uşaqların övladlığa götürülməsinə yol verilmir.

120.5. Azərbaycan Respublikası vətəndaşı olan uşağı övladlığa götürmək istəyən əcnəbilər və vətəndaşlığı olmayan şəxslərin mülkiyyətində, orada yaşayan hər bir şəxs nəzərə alınmaqla yerləşdiyi ölkənin müvafiq qanunvericiliyinə əsasən minimum normadan az olmayan yaşayış sahəsi olmalıdır.

120.6. Bu Məcəllənin 120.1.6-cı, 120.1.7-ci və 120.2-ci maddələrində qeyd olunan tələblər eyni zamanda uşağı övladlığa götürmək istəyən şəxslə (şəxslərlə) birgə yaşayan (ümumi ev təsərrüfatına malik) şəxslərə münasibətdə də tətbiq edilir.";

1.11. 121-ci maddə aşağıdakı redaksiyada verilsin:

"Maddə 121. Övladlığa götürmək istəyən şəxsə (şəxslərə) dair yaş tələbləri

121.1. Ögey ata (ögey ana), habelə yaxın qohumlar (bacı-qardaş, nənə-baba, valideynlərinin bacıları, qardaşları, onların övladları) istisna olmaqla, övladlığa götürmək istəyən nikahda olan şəxslərdən biri (ər-arvad) üçün aşağı yaş həddi 25, nikahda olmayanlar üçün 30 yaşdır.

121.2. Ögey ata (ögey ana), habelə yaxın qohumlar (bacı-qardaş, nənə-baba, valideynlərinin bacıları, qardaşları, onların övladları) istisna olmaqla, övladlığa götürmək istəyən nikahda olmayan şəxslə (şəxslərlə) övladlığa götürülən uşağın yaş fərqi 18-dən az olmamalıdır.

121.3. Uşağın övladlığa verilməsi zamanı bu Məcəllənin 121.1-ci və 121.2-ci maddələrinin tələbləri nəzərə alınmaqla, nikahda olan şəxslərə (azı 3 il (yaşı 35-dən yuxarı olan ər-arvad üçün 1 (bir) il) müddətində nikahda olan Azərbaycan Respublikasının vətəndaşlarına və azı 5 (beş) il müddətində nikahda olan əcnəbilər və vətəndaşlığı olmayan şəxslərə), habelə yuxarı yaş həddi 55-dək olan şəxslərə üstünlük verilir.

121.4. Məhkəmə tərəfindən üzrlü hesab edilən hallarda, bu Məcəllənin 121.1-ci maddəsində müəyyən edilən yaş həddi və 121.2-ci maddəsində müəyyən edilən yaş fərqi azaldıla bilər.";

1.12. 122-ci maddə üzrə:

1.12.1. 122.1-ci maddənin ikinci cümləsində ikinci halda "razılığı" sözü "rəyi" sözü ilə əvəz edilsin, üçüncü cümləsindən ", valideyn himayəsindən məhrum olmuş uşağın yerləşdiyi müəssisənin rəhbəri və ya övladlığa götürmənin həyata keçdiyi yer, yaxud valideynlərin yaşadığı yer üzrə qəyyumluq və himayə orqanı tərəfindən" sözləri çıxarılsın;

1.12.2. 122.4-cü maddə ləğv edilsin;

1.13. 124-cü maddə üzrə:

1.13.1. 124.1-ci maddədə "qəyyumların (himayəçilərin)" sözləri "bu Məcəllənin 124.3-cü maddəsi istisna olmaqla qəyyumlarının (himayəçilərin) notariat qaydasında təsdiq olunmuş" sözləri əlavə edilsin;

1.13.2. 124.3-cü maddə aşağıdakı redaksiyada verilsin:

"124.3. Sosial xidmət müəssisələrində yerləşdirilmiş uşaqların övladlığa götürülməsi zamanı müəssisə rəhbərlərinin həmin uşaqlarla bağlı fikri öyrənilir.";

1.13.3. 124.4-cü maddədə "onun" sözü "müvafiq icra hakimiyyəti orqanının rəyi əsasında uşağın" sözləri ilə əvəz edilsin;

1.13.4. 124.5-ci maddəyə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"7 yaşına çatmış uşaq övladlığa götürüldükdə, məhkəmələr tərəfindən onun fikri pedaqoji işçinin və ya psixoloqun iştirakı ilə öyrənilir və nəzərə alınır.";

1.14. 125.3-cü maddəyə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"125.3. Övladlığa götürülən 7 yaşına çatmış uşağın soyadı, ata adı, habelə öz adının dəyişdirilməsi barədə fikri öyrənilir.";

1.15. Aşağıdakı məzmunda 126.4-cü maddə əlavə edilsin:

"126.4. 10 yaşından yuxarı övladlığa götürülmüş uşağın doğulduğu yerin dəyişdirilməsinə yalnız onun razılığı ilə yol verilir.";

1.16. 128-ci maddənin adında və mətnində "Tərbiyəçi" sözü "Uşağı faktiki tərbiyə edən şəxs" sözləri ilə əvəz edilsin;

1.17. 130-cu maddə aşağıdakı redaksiyada verilsin:

"Maddə 130. Övladlığa götürmənin gizli saxlanması

130.1. Övladlığa götürmənin sirri qanunla mühafizə olunur. Bu Məcəllənin 130.4 və 130.5-ci maddələrində nəzərdə tutulmuş hallar övladlığa götürmə sirrinin pozulması hesab olunmur.

130.2. Bu Məcəllənin 130.5-ci maddəsində nəzərdə tutulmuş hal istisna olmaqla, övladlığa götürənlərin, onlar öldükdə isə müvafiq icra hakimiyyəti orqanının razılığı olmadan övladlığa götürmə haqqında hər hansı məlumat vermək, habelə vətəndaşlıq vəziyyəti aktlarının qeydiyyat kitablarından bu barədə çıxarışlar vermək qadağan edilir.

130.3. Övladlığa götürənin razılığı olmadan övladlığa götürmə sirrini yaymış şəxslər qanunla müəyyən edilmiş qaydada məsuliyyətə cəlb olunurlar.

130.4. Müvafiq icra hakimiyyəti orqanı uşağı övladlığa götürən şəxslərə 4-6 yaşında olan övladlığa götürülən uşağa psixoloqun və müvafiq icra hakimiyyəti orqanının nümayəndəsinin iştirakı ilə onun övladlığa götürüldüyü barədə məlumat verməsini tövsiyə etmək hüququna malikdir.

130.5. Övladlığa götürülmüş uşaq 10 yaşına çatdıqda onun arzusu ilə müvafiq icra hakimiyyəti orqanı onun övladlığa götürülməsi ilə bağlı məlumatları ona təqdim edir.";

1.18. 131-ci maddə üzrə:

1.18.1.131.2-ci maddədə "qəyyumluq və himayə orqanının və" sözləri çıxarılsın;

1.18.2. 131.4-cü maddə aşağıdakı redaksiyada verilsin:

"131.4. Məhkəmə övladlığa götürmənin ləğv olunması barədə qətnamə qüvvəyə mindikdən sonra 3 (üç) iş günü müddətində həmin qətnamədən çıxarışı "Elektron məhkəmə" informasiya sisteminə daxil edir və müvafiq icra hakimiyyəti orqanlarına göndərir.";

1.19. 134.2-ci maddədə "münasibətdə" sözündən sonra "bu Məcəllənin 129-cu maddəsində nəzərdə tutulan hallar istisna olmaqla" sözləri əlavə edilsin;

1.20. 134.6-cı maddə ləğv edilsin;

1.21. 138-ci maddə üzrə:

1.21.1. adında "Tərbiyə, müalicə və əhalinin sosial müdafiəsi müəssisələrində" sözləri "Sosial xidmət müəssisələrində" sözləri ilə əvəz edilsin;

1.21.2. 138.1-ci maddədə "tərbiyə, müalicə və əhalinin sosial müdafiəsi müəssisələrində" sözləri "sosial xidmət müəssisələrində" sözləri ilə əvəz edilsin;

1.22. 140-cı maddə üzrə:

1.22.1. adında "Tərbiyə, müalicə və əhalinin sosial müdafiəsi müəssisələrində" sözləri "Sosial xidmət müəssisələrində" sözləri ilə əvəz edilsin;

1.22.2. 140.1-ci maddədə "tərbiyə, müalicə və əhalinin sosial müdafiəsi müəssisələrində və digər analoji müəssisələrdə" sözləri "sosial xidmət müəssisələrində" sözləri ilə əvəz edilsin;

1.23. 145.1-ci maddədə "tərbiyə, müalicə, əhalinin sosial müdafiəsi müəssisələrində və bunlara bənzər müəssisələrdə" sözləri "sosial xidmət müəssisələrində" sözləri ilə əvəz edilsin;

1.24.155.2-ci maddədə "117-119-cu və 122-124-cü" sözləri "117-135-ci" sözləri ilə əvəz edilsin.

**Maddə 2. Keçid müddəa**

2019-cu il noyabr ayının 1-dək məhkəmələr tərəfindən icraata qəbul edilmiş övladlığa götürmə ilə bağlı işlər üzrə övladlığa götürmənin uşağın mənafeyinə uyğunluğu barədə rəy verilməsi zamanı Azərbaycan Respublikasının Ailə Məcəlləsinin 118.2-ci maddəsinin müddəaları övladlığa götürən şəxslərə şamil edilmir.

**Maddə 3.** Bu Qanun 2019-cu il noyabr ayının 1-dən tətbiq edilir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 3 dekabr 2019-cu il*

# “Son səfər” povestinin təqdimatı keçirilib

Dekabrın 24-də Milli Kitabxanada Mədəniyyət Nazirliyi və Milli Kitabxananın birgə təşkilatçılığı ilə yazıçı-publisist, professor Hüseynbala Mirələmovun böyük Azərbaycan şairi İmadəddin Nəsiminin 650 illik yubileyinə həsr olunmuş “Son səfər” povestinin təqdimatı keçirildi. Həmçinin Milli Kitabxananın “Azərbaycanın görkəmli şəxsiyyətləri” seriyasından nəşr etdiyi “İmadəddin Nəsimi. Biblioqrafiya” kitabı və “İmadəddin Nəsimi-650” Elektron məlumat bazası ictimaiyyətə təqdim olundu.





Tədbiri giriş sözü ilə açan Azərbaycan Milli Kitabxanasının direktoru, professor Kərim Tahirov təqdimatı keçirilən kitabın əlamətdar günə, Prezident İlham Əliyevin doğum gününə təsadüf etdiyini söyləyərək ölkə rəhbərinə xoş arzularını ifadə etdi. İmadəddin Nəsiminin ədəbi irsinin dövlətimiz tərəfindən yüksək qiymətləndirildiyini söyləyən Kərim Tahirov Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə 1973-cü ildə UNESKO səviyyəsində Nəsiminin 600 illik yubileyinin, Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə 2017-ci ildə, Parisdə UNESKO-nun baş qərargahında Nəsiminin vəfatının 600 illiyinin, 2018-ci ildə Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə ölkəmizdə ilk dəfə Nəsimi İncəsənət Festivalının, o cümlədən 2019-cu ildə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müvafiq sərəncamlarına əsasən respublikamızda və onun hüdudlarından kənarda Nəsiminin 650 illik yubileyinə və “Nəsimi ili”nə həsr olunmuş genişmiqyaslı tədbirlərin keçirilməsinin mühüm əhəmiyyət daşıdığını, böyük mütəfəkkir İmadəddin Nəsiminin Azərbaycan şairi kimi dünyada tanıdılmasında xüsusi rolu olduğunu bildirdi.

Prezident İlham Əliyevin doğum günündə belə təqdimatın keçirilməsini yüksək qiymətləndirən Mədəniyyət naziri Əbülfəs Qarayev dedi ki, dövlət başçısının uğurlu daxili və xarici siyasəti nəticəsində Azərbaycan dünya səviyyəsində nümunəyə çevrilib. Ölkəmiz regionun qabaqcıl dövlətləri sırasındadır. Tədbir iştirakçıları adından ölkə rəhbərini təbrik edən nazir 2019-ci ilin “Nəsimi ili” elan olunmasını bütövlükdə mədəniyyətimizin uğuru kimi dəyərləndirdi.

Ölkə rəhbərliyi səviyyəsində Nəsimi yaradıcılığına daim diqqət göstərildiyini deyən nazir qeyd edib ki, Ümummilli Liderin qətiyyəti sayəsində Bakıda Nəsiminin heykəli ucaldılıb, bədii film çəkilib, adına metrostansiya açılıb və rayon verilib, onun əsərləri ana dilində kütləvi çap olunub. Müstəqillik dövründə isə Prezident İlham Əliyevin imzaladığı sərəncamların şairin əsərlərinin çapında, dünyada təbliğində mühüm rol oynadığını söyləyən Mədəniyyət naziri ölkə rəhbərliyinin təşəbbüsü ilə Nəsimi irsinin daha geniş şəkildə tədqiq və təbliğ olunduğunu söyləyib.

Əbülfəs Qarayev dedi ki, “Nəsimi ili” çərçivəsində silsilə tədbirlər davam edir. “Nəsimi ili”nə töhfə olan daha bir incəsənət layihəsi dekabrın 27-də təqdim olunacaq. Həmin gün Heydər Əliyev Sarayında görkəmli bəstəkar, Xalq artisti, professor Firəngiz Əlizadənin “Nasimi passion” əsəri əsasında vokal-xoreoqrafik tamaşanın nümayişi nəzərdə tutulub. Nazir qeyd etdi ki, bu il Nəsimi ilə bağlı çap olunan əsərlər içərisində tanınmış yazıçı Hüseynbala Mirələmovun “Son səfər” povesti xüsusi yer tutur.

Daha sonra İmadəddin Nəsimi haqqında film nümayiş etdirildi.

AMEA-nın Əlyazmalar İnstitutunun direktoru, akademik Teymur Kərimli çıxışında bildirdi ki, “Nəsimi ili” çərçivəsində təkcə AMEA-da 30-a yaxın kitab çap olunub və həmin kitablarda Nəsiminin yaşadığı dövr və özündənsonrakı nəsillərə nüfuz edən fəlsəfi ideyaları öz əksini tapıb. Akademik çıxışında onu da qeyd edib ki, Azərbaycan xalqının ölməz humanist şairi İmadəddin Nəsimiyə həsr olunmuş bu kitablar gələcək nəsillərə ərmağandı və nə qədər ki Azərbaycan xalqı var, Nəsimi də yaşayacaq.

Azərbaycanda Atatürk Mərkəzinin direktoru, akademik Nizami Cəfərov çıxışında İmadəddin Nəsiminin zəngin yaradıcılığından söhbət açaraq, onun yaradıcılığında həm özünün şəxsiyyəti, ideologiyası, həm də dili və milli-mənəvi mənliyinin dayandığını qeyd etdi. Akademik bildirdi ki, Azərbaycan, fars və ərəb dillərində çoxsaylı əsərlərin müəllifi olan Nəsiminin yaradıcılığı dilçilik, eləcə də Azərbaycan türkcəsinin tarixini öyrənmək baxımından xüsusi əhəmiyyətə malikdir.

Nizami Cəfərov bildirdi ki, Xalq şairi Qabilin “Nəsimi” poemasından, Xalq yazıçısı İsa Hüseynovun “Məhşər” romanından sonra “Son səfər” povesti Nəsimi ilə bağlı Azərbaycan ədəbiyyatında yer alan dəyərli əsərlərdən biridir. Şairin Şamaxı ilə bağlılığını təsdiq edən bu əsərdə Nəsimiyə tamamilə yeni ideya-estetik mövqedən yanaşmaq təşəbbüsü özünü göstərir. Əsərdə müəllif şair-mütəfəkkirin taleyinə, əgər belə demək mümkünsə, adi bir insan olaraq nəzər salmağın təcrübəsini təqdim edib. Bütövlükdə Hüseynbala Mirələmovun istedadlı qələmi Nəsimi haqqındakı təsəvvürlərimizi xeyli genişləndirən yeni bir ədəbi abidə yaratmaqla dahi şəxsiyyəti mənsub olduğu xalqa daha da yaxınlaşdırır, doğmalaşdırır.

Milli Məclisin komitə sədri, professor Hadi Rəcəbli bildirdi ki, hörmətli yazıçımız Hüseynbala Mirələmovun “Son səfər” povesti İmadəddin Nəsimi ilə əlaqədar yeni tarixi mərhələnin ilk parlaq bədii əsəri kimi əhəmiyyətlidir. Əsərdə İmadəddin Nəsimi danışığından tutmuş rəftarına, insanlarla münasibətlərinə, həyəcanlarına və narahatlığına qədər sevgisi və nifrəti ilə zəngin mənəviyyata malik sadə və müdrik bir insan qismində təqdim olunmuşdur.

Hadi Rəcəbli onu da qeyd etdi ki, Hüseynbala Mirələmov povestdə Şahxəndanın da bədii obrazını yaratmaqla Şamaxı qəbiristanlığında məqbərəsi ucalan bu şəxsiyyətə həyat vəsiqəsi vermişdir. Əsərdə Şahxəndanın dünyagörüşü, ayıq-sayıq olması haqqındakı hadisələr həm də Nəsimilər şəcərəsinin ümumi səviyyəsi, xüsusən də Seyid Əli İmadəddin Nəsiminin hansı mühitdə yetişib formalaşması barədə daha aydın qənaətlərin yaradılmasına xidmət edir.

“Azərbaycan” qəzetinin baş redaktoru, Milli Məclisin deputatı Bəxtiyar Sadıqov dedi ki, hələ 50 il əvvəl Ulu Öndər Heydər Əliyevin sayəsində Nəsiminin 600 illik yubileyi dünya səviyyəsində qeyd edildi. Bu il isə möhtərəm Prezident İlham Əliyevin təşəbbüsü ilə böyük şairin 650 illik yubileyi Azərbaycanda və dünyada qeyd olunur. 2019-cu ilin “Nəsimi ili” elan edilməsi Prezident İlham Əliyevin ədəbi və milli dəyərlərimizə yüksək ehtiramının növbəti təcəssümüdür. Eyni zamanda bu, Nəsimi irsinin həm daha dərindən öyrənilməsi, həm də dünyada təbliği baxımından mühüm əhəmiyyət kəsb etdi. Dünya bir daha gördü ki, Azərbaycanda hələ neçə əsr bundan əvvəl dahi mütəfəkkirlər, öz əqidəsi uğrunda ölümün gözünə dik baxan insanlar yaşayıblar.

Bəxtiyar Sadıqov dedi ki, “Nəsimi ili”ndə çoxsaylı, rəngarəng və bir-birindən maraqlı tədbirlərin keçiriləcəyi, görkəmli şairimizin əsərlərinin yenidən çap olunacağı, həmçinin Nəsimiyə həsr olunmuş yeni əsərlərin yazılacağı məlum idi. Bu sırada yazıçı Hüseynbala Mirələmovun “Son səfər” povesti onun “Nəsimi ili”nə verdiyi qiymətli ədəbi-bədii töhfədir. Diqqətə çatdırıldı ki, Hüseynbala Mirələmov Nəsiminin Şamaxıdakı həyatı ilə bağlı qələmə aldığı bu povesti tamamladıqdan sonra ilk olaraq yanvar ayında “Azərbaycan” qəzetinin redaksiyasına təqdim etmişdi. Çox yerinə düşən bu gözəl əsərin oxucular tərəfindən maraqla qarşılanacağı nəzərə alınıb hissə-hissə “Azərbaycan”ın səhifələrində dərc edildi. Əsərdə Şamaxı mühiti, Nəsiminin həyatının bu şəhərlə bağlı hissəsi olduqca gözəl bədii lövhələrlə göstərilib.

Yazıçılar Birliyinin katibi, “525-ci qəzet”in baş redaktoru Rəşad Məcid, AMEA-nın Z.Bünyadov adına Şərqşünaslıq İnstitutunun şöbə müdiri, filologiya üzrə fəlsəfə doktoru Səadət Şıxıyeva, Nəsimi adına Dilçilik İnstitutunun direktoru, akademik Möhsün Nağısoylu və professor Rüstəm Kamal çıxış edərək İmadəddin Nəsiminin zəngin ədəbi irsindən geniş söhbət açdılar, onun böyük söz sənətkarı və mütəfəkkiri olaraq, bir çox türk xalqlarının ədəbiyyatına və poeziya dilinə güclü təsir göstərdiyini söylədilər. Bildirildi ki, yazıçı Hüseynbala Mirələmov “Son səfər” povestində şair-mütəfəkkir Nəsimini hər şeydən əvvəl XX əsrin ikinci yarısının ədəbiyyatında yaradılmış ideal insandan daha çox təbii və kamil insan kimi təsvir edib. Bu mənada “Son səfər” povesti Nəsimi ilə bağlı yeni tarixi mərhələnin ilk parlaq bədii nümunəsi kimi olduqca əhəmiyyətlidir. Hüseynbala Mirələmovun Nəsimi mövzusuna ənənəvi yanaşmadan fərqli olaraq azərbaycançılıq mövqeyindən müraciət etməsi, böyük sənətkarı hər cür dini-ideoloji baxışdan uzaq, həyati şəkildə, təbii insan obrazı kimi oxuculara çatdırması əsərin yüksək bədii məziyyətləri kimi təqdir olundu. Gənc şair Sevindik Nəsiboğlu isə İmadəddin Nəsimiyə həsr etdiyi şeiri oxudu.

Sonda Hüseynbala Mirələmov çıxış edərək bildirdi ki, 2019-cu ilin “Nəsimi ili” elan olunması Nəsimi sözünə, onun öz poetik inciləri ilə inkişaf etdirdiyi ana dilimizə, bu iki cahan günəşinin təlqin etdiyi bəşəri ideyalara verilən yüksək dəyərdir. “Nəsimi ili” həm də söz mülkünün bu qüdrətli sultanını dərindən anlamaq, anlayıb təlqinlərinə əməl etmək, əməl edib onun bələdçiliyi ilə kamilliyə doğru yola çıxmaq üçün bir fürsət ilidir.

Yazıçının sözlərinə görə, uzun dövrlər ərzində qalaqlanaraq yığılmış qeydlərini ötən ilin oktyabrında toplayaraq “Son səfər” povesti üzərində çalışmağa başlayıb və bu ilin əvvəlində əsəri başa çatdırıb. “Bundan bir neçə gün sonra isə 2019-cu ilin Prezident tərəfindən “Nəsimi ili” elan edilməsini eşidəndə sevindim” deyən Hüseynbala Mirələmov qeyd etdi ki, bu əsər onun “Nəsimi ili”nə verdiyi ədəbi töhfə oldu.

Hüseynbala Mirələmov kitabın təqdimatına görə Mədəniyyət Nazirliyinə və Milli Kitabxananın kollektivinə təşəkkürünü bildirdi.

***Rəşad CƏFƏRLİ,***
***Ağaəli MƏMMƏDOV (foto),***
***“Azərbaycan”***

# Qəbələnin Vəndam qəsəbəsində 360 şagird yerlik yeni məktəb binası istifadəyə verilib

Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il bayramı ərəfəsində, dekabrın 25-də Qəbələ rayonunun Vəndam qəsəbəsində 2 saylı tam orta məktəb üçün Təhsil Nazirliyinin sifarişi ilə dövlət vəsaiti hesabına inşa edilmiş 360 şagird yerlik yeni tədris binası qapılarını şagirdlərin üzünə açıb.





Bu münasibətlə keçirilən mərasimdə Təhsil naziri Ceyhun Bayramov, Milli Məclisin deputatı, Respublika Ağsaqqallar Şurasının sədri Fəttah Heydərov, Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayev, rayon təhsil şöbəsinin müdiri Arifə Bayramova, ziyalılar, ictimaiyyət nümayəndələri və məktəbin kollektivi iştirak ediblər.

AZƏRTAC xəbər verir ki, nazir və mərasim iştirakçıları binada yaradılmış şəraitlə yaxından tanış olublar.

Bildirilib ki, ikimərtəbəli, 360 şagird yerlik yeni məktəb binasında 15 sinif otağı, kimya, fizika və biologiya laboratoriyaları, məktəbəqədər, hərbi hazırlıq, tibb, kompüter, texnologiya otaqları, 162 yerlik akt zalı, 100 yerlik yeməkxana, kitabxana, idman zalı yerləşir. Məktəb binasında videomüşahidə, yanğın əleyhinə siqnalizasiya sistemləri quraşdırılıb.

Hazırda məktəbdə 360 şagird təhsil alır. Onların təlim-tərbiyəsi ilə 51 müəllim məşğul olur. 2018-2019-cu tədris ilində məktəbi bitirən məzunlardan 14 nəfər ali məktəblərə qəbul edilib.

Məktəblə tanışlıqdan sonra Təhsil naziri Ceyhun Bayramov məktəbin akt zalında gənc müəllimlərlə görüşüb.

# Təhsil naziri Qəbələdə gənc müəllimlərlə görüşüb





Təhsil naziri Ceyhun Bayramov dekabrın 25-də Qəbələ rayonunun Vəndam qəsəbəsində yeni istifadəyə verilmiş 2 saylı tam orta məktəbin akt zalında Azərbaycan Gənc Müəllimlər Assosiasiyasının üzvləri ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, görüşdə nazir Ceyhun Bayramov təhsilin keyfiyyətinin yüksəldilməsində müəllimin mühüm rolundan danışıb. Nazir bildirib ki, son illər müəllim peşəsinin nüfuzu daha da yüksəlib, müəllim olmaq istəyənlərin sayı xeyli artıb. Müəllimi gələcək cəmiyyətin memarı adlandıran Ceyhun Bayramov vurğulayıb ki, müəllimin əsas vəzifəsi cəmiyyət üçün layiqli vətəndaş yetişdirməkdir. Müəllim yalnız tədris fəaliyyəti ilə deyil, obrazı, davranışı ilə də şagirdlərə nümunə olmalıdır.

Azərbaycan Gənc Müəllimlər Assosiasiyasının fəaliyyətini yüksək qiymətləndirən Təhsil naziri deyib ki, bu qurum müəllimlərin inkişafına stimul verir, onları daha səmərəli işləməyə həvəsləndirir. Diqqətə çatdırılıb ki, assosiasiyanın fəaliyyəti çərçivəsində gənc müəllimlər üçün online platforma istifadəyə veriləcək. Müəllimlər həmin platforma vasitəsilə fəaliyyətlərinə dair məlumatları, yenilikləri paylaşa biləcəklər.

Görüşün sonunda gənc müəllimləri maraqlandıran suallar cavablandırılıb.

# Ermənistan silahlı qüvvələri snayperlərdən də istifadə etməklə atəşkəs rejimini 21 dəfə pozub

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində snayper tüfənglərindən də istifadə etməklə sutka ərzində atəşkəs rejimini 21 dəfə pozub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Ermənistan Respublikası Noyemberyan və İcevan rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Qazax rayonunun Bala Cəfərli kəndində və adsız yüksəkliklərdə, Berd rayonunun Çinari kəndində yerləşən mövqelərdən Tovuz rayonunun Əsrik Cırdaxan kəndində yerləşən mövqelərimiz atəşə tutulub.

Füzuli rayonunun işğal altında olan Qaraxanbəyli, Kürdlər, Horadiz, Xocavənd rayonunun Kuropatkino, Cəbrayıl rayonunun Nüzgar və Mehdili kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər və Ağdam rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

# Demokratik və şəffaf seçki nümunəsi

***Əvvəli 1-ci səh.***

Çünki istənilən seçki məntəqəsi bütün zəruri avadanlıqla, seçki bülletenləri, gözlə görünməyən mürəkkəb və bu mürəkkəbi oxumaq, yeni nəsil şəxsiyyət vəsiqələrini tanımaq üçün xüsusi cihazlarla təmin edilmişdi. Vətəndaşlar sərbəst şəkildə məntəqələrə gəlib istədikləri namizədin bələdiyyə üzvlüyünə seçilməsi üçün səs verdi. Seçki məntəqələri bağlanarkən isə səsvermədə iştirak etmiş seçicilərin sayı 1 milyon 627 min 64 nəfər və yaxud ümumi seçicilərin 32,72 faizini təşkil etdi.

Elə xarici KİV də ölkəmizdə keçirilən bələdiyyə seçkilərinə geniş yer verdi. Seçkilərin azad və ədalətli keçirilməsi üçün görülən işlərdən, səsvermənin şəffaflığının təmin edilməsi məqsədilə həyata keçirilən tədbirlərdən bəhs edən Türkiyə KİV yazır ki, bütün məntəqələr seçicilərin öz siyasi iradələrini azad şəkildə ifadə etmələri üçün zəruri şəraitlə təmin olunmuşdu.

Seçici fəallığı, səsvermənin izlənilməsi üçün kütləvi informasiya vasitələri nümayəndələrinə yaradılan şərait, namizədləri təmsil edən şəxslər və müşahidəçilərin hüquqlarının qorunması məsələləri də qardaş ölkə mediasının məlumatlarında yer alıb.

Ümumiyyətlə, Seçki Məcəlləsinə əsasən, ölkəmizdə yerli özünüidarəni həyata keçirən bələdiyyələrin üzvləri nisbi çoxluq sistemi əsasında çoxmandatlı seçki dairələri üzrə seçilirlər. MSK isə dekabrın 23-də açıqladığı məlumatda bəyan etdi ki, ümumilikdə seçkilər sakit şəraitdə keçib, seçicilərin öz iradələrini ifadə etmələri üçün hər cür şərait yaradılıb, onlar da bundan lazımi qaydada istifadə edib istədikləri namizədə səs veriblər.

Artıq 20 ildir ki, fəaliyyətdə olan yerli özünüidarəetmə orqanı kimi bələdiyyələrin dekabrın 23-də səsvermə nəticəsində yeni tərkibi formalaşdı, minlərlə vətəndaş ölkənin yerli özünüidarəetmə orqanlarında təmsil olunaraq regionların idarə olunmasında, sosial və iqtisadi problemlərinin həllində, bütövlükdə dayanıqlı inkişafın təmin edilməsi prosesində yaxından iştirak etmək imkanları qazandı. Onların sırasında gənclərin xüsusi yer turması da sevindirici haldır.

Onu da diqqətə çatdıraq ki, bələdiyyə seçkilərindən əvvəl və onun gedişində aqressiv müxalifət öz ənənəsinə sadiq qalaraq bu seçkiləri də gözdən salmaq, yerli idarəetmənin strukturundakı rolunu şübhə altına almaq istiqamətində uğursuz təbliğat aparmağa cəhdlər göstərdi. Lakin əhalinin seçkilərə göstərdiyi maraq və ictimai fəallıq onların cəmiyyətlə ayaqlaşa bilmədiklərini və xalqın arasında nüfuzunu tam olaraq itirdiyini bir daha sübut etdi.

Əlavə edək ki, gələn ildən ölkəmizdə bələdiyyələrə ayrılan dotasiya və subvensiyanın da həcmi artırılıb. Büdcədə bələdiyyələrə ayrılan dotasiya və subvensiyanın həcmi 6,2 milyon manat olub. Bu məbləğin 5 milyon manatı dotasiya, 1,2 milyon manatı isə subvensiya təşkil edib. Qeyd edək ki, ötən il ayrılan məbləğin həcmi 5,5 milyon manat idi.

Bir sözlə, əminliklə deyə bilərik ki, ölkədə keçirilən növbəti bələdiyyə seçkiləri Azərbaycanın seçki demokratiyasının daha da təkmilləşməsinə öz töhfəsini verəcək.

***Rəşad BAXŞƏLİYEV,***
***“Azərbaycan”***

# Vacib olan diqqət və qayğıdır

***Əvvəli 1-ci səh.***

Dövlət uzun sürən müharibənin vətəndaşlarına vurduğu ağır maddi və mənəvi ziyanları aradan qaldırmaq məqsədilə şəhid ailələri, Qarabağ müharibəsi əlilləri və veteranlarına, işğaldan əziyyət çəkən məcburi köçkünlərə xüsusi qayğı ilə yanaşır.

Prezident İlham Əliyev həmişə qeyd edir ki, iqtisadi imkanlarımız yaxşılaşdıqca, düzgün iqtisadi siyasət yeridildikcə əlavə gəlirlər yaranır, daha səlis və daha mükəmməl sosial siyasəti reallaşdırmaq asanlaşır və sosial problemlər sistemli həllini tapır: “Bu il 4 milyon 200 mindən çox Azərbaycan vətəndaşı - əhalinin təxminən 40 faizdən çoxu böyük sosial paketlə əhatə olunub. Maaşlar, pensiyalar, müavinətlər, tələbə təqaüdləri, problemli kreditlərin həll edilməsi - bütün bunlar böyük vəsait tələb edir. Biz bu işlərə milyardlarla manat vəsait yönəltmişik və çox düzgün addım atmışıq. Çünki bu, lazım idi. Sosial təminat bizim üçün ən başlıca vəzifədir”.

Dekabrın 24-də Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində olan Dayanıqlı və Operativ Sosial Təminat Agentliyinin Xəzər rayonunda yerləşən 2 saylı DOST mərkəzinin açılışı da insanların sosial qayğılarının həllinin asanlaşdırılması istiqamətində atılan uğurlu addımlardandır. Bu mərkəz gün ərzində 250-300 vətəndaşı qəbul edə biləcək. Mərkəz il ərzində Bakının Xəzər və Pirallahı rayonlarının 70 mindən artıq sakininə “bir pəncərə” prinsipi ilə məşğulluq, əmək, əlillik və sosial müdafiə sahələrində 132 xidmət göstərəcək.

Azərbaycan Prezidentinin “Əhalinin məşğulluğu, əmək, sosial müdafiə və təminat sahələrində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında” 2018-ci il avqustun 9-da imzaladığı fərmanla Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində yaradılan DOST Agentliyinin məqsədi də məşğulluq, əmək, əlillik və sosial müdafiə sahələrində xidmətlərin keyfiyyətinin yüksəldilməsi, bu xidmətlərdə şəffaflığın artırılması, innovativ həllərin tətbiqi və vətəndaş məmnunluğunun təmin edilməsinə nail olmaqdır. DOST Agentliyi Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın dövlət sosial xidmətlərinin vahid platformadan, “bir pəncərə”dən, tam şəffaf, operativ, vətəndaş rahatlığı, nəzakətlilik prinsipi və sadə prosedurlar əsasında təqdim olunması təşəbbüsünün nəticəsidir. Mərkəzin açılışında iştirak edən dövlət başçısı DOST mərkəzlərinin yaradılmasının sosial siyasətin mahiyyətini açıqladığını vurğuladı: “Siyasətimizin mərkəzində Azərbaycan vətəndaşıdır. Azərbaycan vətəndaşının sosial təminatı, rifah halı və rahatlığı bizim üçün prioritet məsələdir. Təsadüfi deyil ki, son illərdə bu sahədə çox böyük işlər görülüb. Həm DOST, həm də “ASAN xidmət” mərkəzləri bizim intellektual məhsulumuzdur. İndi “ASAN xidmət” öz intellektual məhsulunu ixrac edir, artıq bir neçə ölkədə bu layihələr icra olunur”.

Azərbaycan islahatlar və uğurlarla zəngin növbəti bir ilə yekun vurur. Dövlət başçısının əlil olmuş şəxslərin və şəhid ailələrinin sosial-məişət şəraitinin yaxşılaşdırılması ilə bağlı əlavə tədbirlər və aztəminatlı ailələrə birdəfəlik yardım göstərilməsi haqqında imzaladığı sonuncu iki sərəncam bir daha onu təsdiq edir ki, ölkəmizdə aparılan bütün islahatlar sosialyönümlüdür. Birinci sərəncamda Qarabağ müharibəsi əlilləri və şəhid ailələri üçün fərdi evlərin tikintisi məqsədilə iyirmi milyon altı yüz on min manat Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə ayrılır. İkinci sərəncamda isə Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramı münasibətilə 2019-cu il 30 dekabr tarixinə ünvanlı dövlət sosial yardımı alan ailələrin hər birinə 100 (bir yüz) manat məbləğində birdəfəlik yardımın ödənilməsinə qərar verilmişdir. Bu məqsəd üçün Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsində ünvanlı dövlət sosial yardımı üçün nəzərdə tutulmuş vəsaitdən 7,6 milyon manat vəsait ayrılır.

Bu gün bütün ölkə miqyasında aparılan islahatların son məqsədi düzgün iqtisadi siyasət yeritmək, şəffaflığa, dürüstlüyə nail olmaq, korrupsiya və rüşvətxorluğa qarşı aparılan mübarizəni gücləndirmək və son nəticədə iqtisadi və struktur islahatlarında ciddi gəlirlər əldə etməkdir. Məhz belə dərin düşünülmüş köklü islahatlar ona imkan verdi ki, sosial sahəyə böyük vəsaitlər ayrılsın.

***Bahadur İMANQULİYEV,***
***“Azərbaycan”***

# Heydər Əliyev Fondunun təşəbbüsü ilə aztəminatlı ailələrə bayram sovqatları verilir





Heydər Əliyev Fondu tərəfindən 31 dekabr - Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il münasibətilə respublika üzrə ünvanlı dövlət sosial yardımı alan ailələrə bayram sovqatlarının paylanılmasına başlanılıb.



AZƏRTAC xəbər verir ki, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın təşəbbüsü ilə həyata keçirilən layihə çərçivəsində fondun əməkdaşları və "Regional İnkişaf" İctimai Birliyinin könüllüləri dekabrın 21-dən etibarən respublika üzrə aztəminatlı ailələrə bayram sovqatları çatdırır.

Müxtəlif ərzaq məhsullarından ibarət bayram sovqatları dekabrın 28-dək bütün rayon və şəhərlər üzrə ünvanlı dövlət sosial yardımı alan ailələrə təqdim olunacaq.

# Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il bayramı ilə əlaqədar şəhid övladları üçün tədbir keçirilib





Müdafiə Nazirliyinin təşkilatçılığı ilə dekabrın 25-də şəhid övladları üçün 31 dekabr - Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il bayramı ilə əlaqədar tədbir keçirilib.



Nazirliyin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, tədbirdə Şəxsi Heyət Baş İdarəsinin Qadınlar və Hərbi Qulluqçuların Ailələri ilə iş üzrə şöbəsinin kollektivi, Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin, Bakı Şəhər Mədəniyyət Baş İdarəsinin yaradıcı kollektivləri, şəhid ailələri, müharibə veteranları və ictimaiyyətin nümayəndələri iştirak ediblər. Əvvəlcə Ümummilli Lider Heydər Əliyevin və vətənimizin müstəqilliyi, ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Dövlət himni səsləndirilib.

Mərasimdə çıxış edən Şəxsi Heyət Baş İdarəsinin Qadınlar və Hərbi Qulluqçuların Ailələri ilə İş üzrə şöbəsinin müdiri Zümrüd Səmədova 31 dekabr - Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il bayramı ilə əlaqədar tədbir iştirakçılarını təbrik edərək bildirib ki, bu tarix xalqımızın birlik günüdür. Bu günü dünyanın 70-dən çox ölkəsində yaşayan 50 milyondan çox azərbaycanlı böyük ruh yüksəkliyi ilə qeyd edir. Şöbə müdiri çıxışını Ulu Öndərin "Azərbaycanlılar! Harada olursan ol, hansı ölkədə yaşayırsan yaşa, ancaq Azərbaycan haqqında, Azərbaycanın müstəqilliyi, ərazi bütövlüyü haqqında, Azərbaycan xalqının bu günü və gələcəyi haqqında düşünməlisən" sözləri ilə bitirib.

Sonra çıxış edənlər Dünya Azərbaycanlılarının Həmrəylik Gününün tarixi əhəmiyyətindən danışaraq hər kəsi həmrəyliyə, birliyə çağırıb.

Tədbir iştirakçıları şəhid ailələrini daim yad etdiklərinə və göstərilən diqqətə görə dövlət başçısı İlham Əliyevə və Müdafiə Nazirliyinin rəhbərliyinə minnətdarlıqlarını bildiriblər.

Tədbirin sonunda vətənpərvərliyi, qəhrəmanlığı vəsf edən mahnılar səsləndirilib.

# Azərbaycan 2020-ci ildə daha böyük nailiyyətlər qazanacaq

*Əvvəli 1-ci səh.*

Hər bir ölkə üçün, əslində, sınaq olan bu hadisə Azərbaycandan da yan ötməmişdi. Lakin görülən operativ tədbirlər nəticəsində respublikamızda böhranın fəsadları minimum səviyyəyə endirilmişdi. Bu baxımdan böhran ilkin dövrdə mənfi təzahürləri ilə yadda qalsa da, operativ tədbirlərin və islahatların keçirilməsi nəticəsində, əslində, Azərbaycanın iqtisadi inkişafında yeni mərhələnin başlanğıcı oldu. Mövcud durum dərindən təhlil edilərək, yeni vəzifələr müəyyənləşdirildi. Bu vəzifələr əsasən qeyri-neft sektorunun inkişafından, istehsalda geriləməyə yol verilməməsindən, əlverişli istehsal və biznez mühitinin yaradılmasından, investisiyaların təşviqindən, bank-maliyyə sektorunun sağlamlaşdırılmasından ibarət idi. Təbii ki, bütün bunlar, Prezident İlham Əliyevin imzaladığı fərman və sərəncamlar yeni iqtisadi islahatlara və nəticə etibarilə yeni iqtisadi göstəricilərə yol açdı. Sabitləşmədən sonra ilkin inkişaf təzahürləri özünü keçən il büruzə verdi.

Bu il isə makroiqtisadi göstəricilər daha genişmiqyaslıdır və müsahibəsində Prezidentin diqqətə çatdırdığı rəqəmlər bunu təsdiq edir. Belə ki, bu il qeyri-neft iqtisadiyyatımız təqribən 3,5 faiz artıb. Qeyri-neft sənayesi sahəsində artım təxminən 14 faiz, kənd təsərrüfatında 7 faizdən çoxdur. 11 ayda Azərbaycanın qeyri-neft ixracı təqribən 14-15 faiz çoxalıb, xarici borcumuz ümumi daxili məhsulun 17 faizini təşkil edib və bu, dünyada 9-cu göstəricidir. Bu il ölkəmizin valyuta ehtiyatları 4,5 milyard dollar artıb və artıq 50 milyard dollara çatıb. Prezident İlham Əliyevin qeyd etdiyi kimi, bu, rekord göstəricidir və iqtisadi müstəqilliyimizi tam təmin edir, iqtisadi müstəqillik siyasi müstəqilliyin əsas şərtidir.

## Gəlirlərin əksəriyyəti sosial layihələrə yönəldiləcək

2019-cu il Azərbaycan üçün yeni sosial, iqtisadi və struktur islahatların həyata keçirilməsi ilə yadda qalır. Xüsusilə qeyd edilməlidir ki, Prezident İlham Əliyevin həyata keçirdiyi siyasətin mərkəzində dayanan əsas məsələlərdən biri insan amilidir. İnsanın həyatını yaxşılaşdırmağa xidmət etməyən heç bir iqtisadi inkişaf öz məqsədinə, yüksək amallarına nail ola bilməz. Bu mənada vətəndaşların sosial rifahının yaxşılaşdırılması, həyat tərzinin və keyfiyyətlərinin dəyişdirilməsi Prezident İlham Əliyevin həyata keçirdiyi siyasətin əsas məqsədlərindən biridir. Təsadüfi deyil ki, bu il başlanan islahatlar, ilk növbədə, əhalinin sosial rifahının daha da yaxşılaşdırılmasına mühüm töhfələr verdi. Maaşlar, pensiyalar, sosial müavinətlər, tələbələrin təqaüdləri artırıldı. Konkret ifadə etsək, müavinətlər orta hesabla 50 faiz, minimum əməkhaqqı 2 dəfə, minimum pensiya 70 faizdən çox artırıldı. Hazırda minimum pensiyanın alıcılıq qabiliyyətinə görə Azərbaycan MDB-də birinci yerdədir. Eyni zamanda, problemli kreditlər məsələsi yoluna qoyulmaqla, sosial sahədə olan məsələlər kompleks şəkildə öz həllini tapdı. Müsahibəsində bununla bağlı sualı cavablandıran İlham Əliyev deyib: "Bizim bütün işimizin məqsədində Azərbaycan vətəndaşının maraqları dayanır və ildən-ilə Azərbaycan vətəndaşı daha yaxşı yaşamalıdır. Bunun üçün həm sosial infrastrukturla bağlı olan layihələr icra edilməlidir, eyni zamanda vətəndaşların sosial təminatı yaxşılaşdırılmalıdır. Ona görə hesab edirəm ki, bu il biz bu sahədə çox ciddi addımlar atdıq".

Lakin İlham Əliyev bunları qaneedici saymır, maaşların və pensiyaların artımı davamlı olacaq. Bunun üçün isə iqtisadi sahədə artıma nail olmaq lazımdır. İqtisadi islahatların isə getdikcə daha böyük uğurlu nəticələr verəcəyi şübhəsizdir. Prezident həm də onu bir daha bəyan etdi ki, iqtisadi inkişafın, əlavə gəlirlərin böyük əksəriyyəti sosial layihələrə istiqamətləndiriləcək.

## Zamanında aparılan kadr islahatları

Cəmiyyət həyatının istənilən sahəsində inkişafın, fəaliyyət dinamizminin və ahəngdarlığın təmin edilməsi yeni yanaşmaların tətbiqini, daha dəqiq ifadə etsək, zamanın nəbzini tutan islahatların həyata keçirilməsini tələb edir. Təbii ki, daha sürətli inkişafa nail olmaq, zamanla, müasir çağırışlarla ayaqlaşmaq üçün islahatlar da kompleks xarakter daşımalı, dövlət idarəetməsinin bütün qollarını əhatə etməlidir. Cənab İlham Əliyev məsələyə bu prizmadan yanaşır və islahatların bütün hakimiyyət orqanlarına sirayət etməsini zəruri sayır. Məsələn, Azərbaycan Prezidentinin Administrasiyasının işinin təkmilləşdirilməsi və qarşıya qoyulan vəzifələrdən irəli gələrək strukturun tərkibi yenidən formalaşdırıldı. Bütün bunlar, o cümlədən Nazirlər Kabinetində, yerli icra hakimiyyəti orqanlarında, regional idarəetmə orqanlarında, ümumiyyətlə, dövlət və cəmiyyət həyatının bütün sahələrində aparılan struktur və kadr islahatları ictimaiyyət tərəfindən rəğbətlə qarşılanmaqdadır.

Prezidentin müsahibədə münasibət bildirdiyi məsələlərdən biri də kadr və struktur islahatları barədə oldu. İlham Əliyev kadr və struktur islahatlarının zamanında aparıldığını bildirdi: *"Hər bir addımın arxasında çox böyük təhlil və böyük məqsədlər dayanır. Beləliklə, kadr islahatları zamanında aparılır. Bəlkə beş il bundan əvvəl bu cür kadr islahatları aparmaq düzgün olmazdı, amma iki il bundan sonra da artıq gec olardı. Ona görə hesab edirəm ki, kadr islahatları, struktur islahatları zamanında aparılır. Ümumiyyətlə işə yanaşma tərzi dəyişir. Azərbaycan yeniləşir, Azərbaycanın yeni siması ortalığa çıxır, iqtidarın yeni siması ortalığa çıxır - müasir dövrə uyğun, cəmiyyətimizin gözləntilərinə uyğun və bizim inkişaf strategiyamıza uyğun. Hər şey buna bağlıdır. İlk növbədə, bizim milli maraqlarımız, dövlətçiliyimiz, vətəndaşların rahat yaşaması, sosial rifah və kadrlar bu məqsədlərə qulluq etməlidirlər".*

2019-cu il Azərbaycan üçün növbəti uğurlu mərhələ kimi tarixə düşür. Dünyada davam edən və yeni formaları meydana çıxan müxtəlif böhranlar şəraitində Azərbaycanın ili uğurla başa vurması həyata keçirilən siyasətin düzgünlüyündən xəbər verir. Sözsüz ki, hər bir sahə üzrə əldə olunan inkişaf yüksək templə davam etdiriləcək və ölkəmiz qarşıdan gələn 2020-cu ildə yeni inkişaf göstəricilərinə nail olacaq. Prezident İlham Əliyevin müsahibənin sonunda söylədiyi kimi, ölkəmiz bundan sonra da müstəqillik və inkişaf yolu ilə gedəcək və bizi bu yoldan heç bir qüvvə döndərə bilməz.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# Kənd Təsərrüfatı naziri İnam Kərimov Xaçmazda vətəndaşları qəbul edib

Azərbaycan Prezidenti İlham Əliyevin tapşırıq və tövsiyələrinə əsasən, mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri bölgələrdə vətəndaşların qəbulunu keçirir, onların müxtəlif məsələlərlə bağlı müraciətlərinin, ərizə və şikayətlərinin müsbət həll olunması üçün tədbirlər görürlər.

AZƏRTAC xəbər verir ki, tərtib edilən qəbul cədvəlinə müvafiq olaraq Kənd Təsərrüfatı naziri İnam Kərimov dekabrın 25-də Xaçmaz Dövlət Aqrar İnkişaf Mərkəzinin inzibati binasında Xaçmaz, Qusar və digər rayonlardan olan vətəndaşları qəbul edib, onların müraciətlərini dinləyib, ərizə və şikayətlərinə baxıb.

Nazirliyin idarə və tabeli qurumlarının rəhbərlərinin iştirakı ilə keçirilən qəbulda 38 nəfərin müraciətinə baxılıb. Qəbula gələn vətəndaşların müraciəti əsasən fermerlərə güzəştli şərtlərlə kreditlərin verilməsi, kənd təsərrüfatı texnikası və təsərrüfat suyu ilə təminat, ixtisasa uyğun işlə təmin edilmə və digər məsələlərlə bağlı olub. Nazir İnam Kərimov hər bir vətəndaşın müraciətini diqqətlə dinləyib, qaldırılan məsələlərin hərtərəfli öyrənilməsi və qanunvericiliyin tələblərinə uyğun qısa müddətdə həll edilməsi üçün müvafiq tapşırıqlar verib.

Vətəndaşların müraciətlərinin bir qismi yerindəcə həllini tapıb, qaldırılan bəzi məsələlər isə araşdırılması üçün nəzarətə götürülüb. Nazirliyin fəaliyyət dairəsinə aid olmayan müraciətlər müvafiq qurumlara çatdırılmaq üçün qeydiyyata alınıb.

# 2019-cu il icbari tibbi sığortaya keçidin son hazırlıq dövrü oldu

*Əvvəli 1-ci səh.*

Azərbaycan hər zaman və bütün sahələrdə olduğu kimi, icbari tibbi sığortaya keçiddə də tələskənliyə, yarımçıqlığa yol vermədi, necə deyərlər, yarı yolda qalmamaq üçün yüz ölçüb, bir biçdi və nəhayət, 2020-ci ildən bu addımı atmağa qərar verdi. Amma əvvəl 3 inzibati ərazidə - Mingəçevir şəhərində, eləcə də Yevlax və Ağdaş rayonlarında pilot layihə kimi onu sınaqdan keçirdi. Nəticə gözləntilərdən də uğurlu oldu.

Həmin nəticələr barədə İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyindən (İTSDA) aldığımız məlumatda bildirilir ki, bu iş pilot layihə şəklində Mingəçevir şəhəri və Yevlax rayonunda üçüncü, Ağdaş rayonunda ikinci ildir tətbiq edilir: "Pilot ərazilərdə İTSDA-nın tabeliyinə verilmiş tibb müəssisələrində tibbi xidmətlərin keyfiyyətini yüksəltmək və tibbi xidmətlərə əlçatanlığı artırmaq məqsədilə bir sıra tədbirlər görülüb. Təcili və təxirəsalınmaz tibbi yardım xidmətlərinin səmərəliliyini artırmaq üçün mərkəzi xəstəxanalarda müvafiq şöbələr yaradılıb. Qabaqcıl ölkələrdə belə xidmətlərin təşkilində geniş istifadə olunan "çeşidləmə" ("triaj") sisteminin tətbiqinə başlanılıb. Yeni tipli bu xidmətlər xəstənin ambulans üçün çağırışından başlamış onun tibbi xidmətin digər səviyyəsinə (ilkin səhiyyə xidməti, ambulator və ya stasionar tibbi xidmət), yaxud evə göndərişinə qədər olan mərhələləri əhatə edir. "Triaj" sistemi isə xəstələrin ehtiyaclarına uyğun çeşidlənməsinə, onlara göstərilən tibbi xidmətlərin səmərəliliyinin və keyfiyyətinin artırılmasına, xəstələrin lüzumsuz stasionar tibbi xidmətə qəbuluna, səhiyyə xərclərinin daha səmərəli istifadə olunmasına şərait yaradır.

Bunlardan əlavə, pilot layihələr çərçivəsində tibb müəssisələrinin idarəedilməsi strukturu dəyişdirilib, tibbi təchizatı yaxşılaşdırılıb və diaqnostik laboratoriyaların işi təkmilləşdirilib, mərkəzi xəstəxanalarda 24 saat fəaliyyət göstərən diaqnostik laboratoriyalarda müasir tibbi avadanlıqlar quraşdırılıb. Həmçinin laborator müayinələrin aparılması tamamilə avtomatlaşdırılıb. Eyni zamanda, pilot ərazilərdəki tibb müəssisələrindən xəstəxanadaxili bütün göndəriş, tibbi sərfiyyat, dərman təchizatı və həyata keçirilən bütün manipulyasiyaların qeydiyyatı vahid elektron idarəetmə proqramı vasitəsilə həyata keçirilib. Tibb müəssisələrinin fəaliyyətinin elektronlaşdırılması tam təmin edilib".

Məlumatda habelə qeyd olunur ki, pilot ərazilərdə Ailə Sağlamlıq mərkəzləri (ASM) yaradılıb: "Mingəçevir şəhəri üzrə sanitar-epidemioloji tələblərə cavab verən 2, Yevlax rayonunda 5, Ağdaş rayonunda 15 ASM qurulub. ASM-lərdə ailə həkimləri tərəfindən 18 adda tibbi xidmət göstərilir. Ağdaş rayonunda həmçinin 46 tibb məntəqəsi fəaliyyət göstərir".

Arayışda xüsusi vurğulanır ki, pilot layihənin başlanğıcında özündə 1829 adda tibbi xidməti birləşdirən icbari tibbi sığortanın baza zərfi hazırlanıb və bura daxil olan tibbi xidmətlərin tarifləri müəyyənləşib. Ən əsası, pilot ərazilərdə əhalidən sığorta haqqı toplanılmır. Belə ki, pilot ərazilərin 340 min nəfər sakini və burada rəsmi qeydiyyatda olan 30 min nəfərə yaxın məcburi köçkün baza zərfi çərçivəsində ödənişsiz tibbi xidmətlərdən istifadə etmək



hüququ əldə edib. Həmçinin baza zərfi ilə əhatə olunmayan tibbi xidmətlərin siyahısı (istisnalar zərfi - 1186 adda tibbi xidmət) və tarifləri müəyyənləşib. Məlumatda o da qeyd edilir ki, baza və istisnalar zərfləri Prezident tərəfindən təsdiqlənib.

Və nəhayət, pilot layihənin həyata keçirildiyi müddətdə yeni maliyyələşmə mexanizminin əsası qoyulub, tibb işçilərinin əməkhaqları artırılıb və beynəlxalq təcrübədə geniş tətbiq olunan adambaşına ödəniş metodu tətbiq edilib. Məlumatda bu barədə bildirilir ki, "Pilot layihə çərçivəsində həkimlərin, orta və kiçik tibb işçilərinin (heyətinin) əməkhaqlarına əlavələrin hesablanması və ödənilməsi" qaydaları müəyyən olunub: "Hazırda pilot layihələrin tətbiq olunduğu ərazilərdə həkimlər, orta və kiçik tibb işçiləri vahid tarif cədvəlinə uyğun olaraq əməkhaqlarını almaqda davam edirlər. Bununla yanaşı, pilot layihə müddətində həkimlərin göstərdikləri tibbi xidmətlər əvəzində əməkhaqlarına stimullaşdırıcı, orta və kiçik tibb işçilərinin əməkhaqlarına isə sabit əlavələr tətbiq olunur. Tibb işçilərinin fəaliyyətlərinin qiymətləndirilməsində tətbiq edilən yeni yanaşma nəticəsində pilot ərazilərdə əməkhaqqı fondu 2016-cı il ilə müqayisədə 2018-ci ildə ümumilikdə 1,8 dəfə artıb. Həkimlərin orta aylıq maaşı 2018-ci ildə ölkə üzrə orta aylıq əməkhaqqının 1,9 mislini təşkil edib".

Təbii ki, bütün bunlar əhalinin tibbi xidmətlərə əlçatanlığını artırıb və səhiyyə xərcləri ilə bağlı maliyyə yükünü azaldıb. İTSDA tərəfindən 2018-ci ildə pilot ərazilərdə ümumi əhali və tibb işçiləri arasında keçirilən sorğuların nəticələrinə nəzər salaq: əhalinin 84, tibb işçilərinin isə 87 faizi (həkimlər və orta tibb işçiləri) icbari tibbi sığortanın tətbiqi istiqamətində aparılmış islahatlardan məmnunluğunu bildiriblər. Sorğuların nəticələrinə əsasən, icbari tibbi sığortanın tətbiqindən sonra cərrahi əməliyyat olunanlar arasında tibbi xidmətlərin əldə edilməsi ilə bağlı maddi sıxıntı keçirənlərin sayı kəskin azalıb. Sorğudan o da məlum olub ki, əhalinin baza zərfi çərçivəsində göstərilən tibbi xidmətlərə əlçatanlıq səviyyəsi Mingəçevir və Yevlax üzrə 77, Ağdaş rayonu üzrə 62 faiz təşkil edib.

Onu da qeyd edək ki, pilot layihə dövründə həyata keçirilən islahatlar, qazanılan nəticələr və təcrübə Prezident İlham Əliyev tərəfindən yüksək qiymətləndirilmiş və dövlət başçısı 2018-ci ilin sonlarında mühüm fərmanlar imzalamış, tapşırıqlar vermişdir. Prezidentin "Azərbaycanda icbari tibbi sığortanın tətbiqinin təmin edilməsi ilə bağlı bir sıra tədbirlər haqqında" 2018-ci il 20 dekabr tarixli fərmanına əsasən, xidmətlər zərfi və tibbi xidmətlərin tarifləri barədə təkliflərin hazırlanması, icbari tibbi sığortanın tətbiqi üçün lazım olan normativ hüquqi aktların, tibbi protokolların və digər sənədlərin tətbiqi, dövlət tibb müəssisələrinin elektronlaşdırılması, icbari tibbi sığortanın məlumat bazasının yaradılması və xəstəxanaların həmin məlumat bazasına inteqrasiyası, tibb müəssisələrinin tam idarə olunmasını təmin edəcək proqram təminatının hazırlanması və fərmandan irəli gələn digər məsələlərin həlli İTSDA-ya tapşırılmışdır. Fərmanla həmçinin "Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi" (TƏBİB) publik hüquqi şəxs yaradılmış və bir çox dövlət tibb müəssisələri TƏBİB-in tabeliyinə verilmişdir.

2019-cu ilin dekabr ayında "Tibbi sığorta haqqında" qanuna olunan dəyişikliklərə əsasən isə icbari tibbi sığortanın xidmətlər zərfi baza və əlavə hissələrdən ibarət olmayacaq. Zərf vahid toplu şəklində ambulator-poliklinika və stasionar şəraitdə göstərilən tibbi xidmətləri əhatə edəcək. Digər dəyişikliyə görə, 2020-ci ilin yanvar ayının 1-dən etibarən mərhələlərə bölünməklə dövlət büdcəsinin vəsaiti hesabına bütün əhali üzrə təqvim ili üçün adambaşına 90 manat icbari tibbi sığorta haqqı ayrılacaq.

Bu barədə İTSDA-nın məlumatında daha sonra bildirilir: "Dövlət və neft sektorunda çalışan işəgötürən və işçilərdən aylıq hesablanmış əməyin ödənişi fondunun 8000 manata qədər olan hissəsindən 2, 8000 manatdan yuxarı olan hissəsindən 0,5 faiz miqdarında icbari tibbi sığorta haqqı tutulacaq. Bu o deməkdir ki, misal üçün, vətəndaş aylıq olaraq, 8500 manat əməkhaqqı alırsa, 8000 manatın 2, qalan 500 manatın 0,5 faizi miqdarında icbari tibbi sığorta haqqı hesablanacaq. Qeyri-dövlət və qeyri-neft sektorunda çalışan işəgötürən və işçilərdən aylıq hesablanmış əməyin ödənişi fondunun 8000 manata qədər olan hissəsindən 1, 8000 manatdan yuxarı olan hissəsindən 0,5 faiz icbari tibbi sığorta haqqı ödəniləcək. 2021-ci ildən etibarən isə sözügedən sektor üzrə işəgötürən və işçilərdən aylıq hesablanmış əməyin ödənişi fondunun 8000 manata qədər olan hissəsindən 2 faiz icbari tibbi sığorta haqqının tutulması müəyyən olunub".

Sözügedən qanuna olunan digər dəyişikliklər də əhalinin xeyrinədir. Belə ki, yeniliyə əsasən dövlət büdcəsi hesabına (tütün məmulatları, alkoqollu və energetik içkilərə tətbiq edilən sığorta haqları istisna olmaqla) və digər icbari tibbi sığorta haqlarının 1 aprel 2020-ci ildən toplanılması nəzərdə tutulur. 2023-cü ildən etibarən isə qanunun 15-2.3.6-cı maddəsinə əsasən, müstəqil ödəyicilər üzrə təqvim ili üçün minimum aylıq əməkhaqqının 48 faizi miqdarında icbari tibbi sığorta haqqı nəzərdə tutulub. Məsələn, hazırda ölkədə minimum aylıq əməkhaqqının məbləği 250 manatdır. Həmin məbləğin 48 faizi miqdarında (təqvim ili üçün 120 manat) icbari tibbi sığorta haqqı hesablanır.

Qanunda başqa bir vacib məqamsa bütün əhalinin sığortaolunan hesab edilməsi və xidmətlər zərfində nəzərdə tutulmuş tibbi xidmətlərdən yararlanmaqda bərabər hüquqa malik olmasıdır.

* * *

Təbii ki, bir yazıda icbari tibbi sığortaya keçidlə bağlı görülən tədbirlərin hamısını əhatə etmək mümkün deyil. Amma yəqin bunlar da kifayət edər ki, ölkədə tətbiqinə başlanılan və əhalinin bütün təbəqələrini əhatə edən bu vacib sosial tədbirin də uğurlu gələcəyinə şübhə qalmasın.

***Raqif MƏMMƏDLİ,***
***"Azərbaycan"***

# Moskvada Leyla Əliyevanın təşəbbüsü ilə Dünya Azərbaycanlılarının Həmrəyliyi Gününə həsr edilən tədbir keçirilib

Moskvada Heydər Əliyev Fondunun vitse-prezidenti, Rusiya Azərbaycanlı Gənclər Birliyinin (RAGB) sədri Leyla Əliyevanın təşəbbüsü ilə Dünya Azərbaycanlılarının Həmrəyliyi Gününə həsr edilən tədbir keçirilib.



AZƏRTAC xəbər verir ki, tədbirdə Rusiya və Azərbaycanın gənclər birliklərinin, diaspor təşkilatlarının təmsilçiləri, media nümayəndələri iştirak ediblər.

RAGB-nin idarə heyətinin üzvü Emin Hacıyev təşkilatın sədri Leyla Əliyevanın adından qonaqları Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə təbrik edib, 2019-cu ildə görülən işlər barədə məlumat verib. O, RAGB-nin üzvlərinin sayının ilbəil artdığını vurğulayaraq deyib ki, təşkilat Rusiyada fəaliyyət göstərən digər ictimai birliklər və ali təhsil müəssisələri ilə uğurla əməkdaşlıq edir: "Biz birlikdə çox böyük yol keçmişik. Fəaliyyətimizə ən böyük qiyməti Leyla xanım Əliyeva verib. RAGB-nin 10 illiyi ilə bağlı keçirilən tədbirdə Leyla xanım təşkilatın zəngin keçmişinin, eləcə də parlaq gələcəyinin olduğunu söyləyib".

Emin Hacıyev Rusiyada yaşayan və təhsil alan azərbaycanlı gənclər adından dekabrın 24-də doğum gününü qeyd edən Azərbaycan Prezidenti İlham Əliyevi təbrik edib: "Azərbaycan gəncləri harada yaşamasından asılı olmayaraq, hər zaman dövlətimizin və Prezidentimizin diqqətini və dəstəyini hiss edib. Biz buna görə cənab Prezidentə təşəkkürümüzü bildiririk".

Daha sonra RAGB-nin fəal üzvlərinə gənclər təşkilatının inkişafına verdiyi töhfələrə görə fəxri fərmanlar təqdim edilib.

Tədbir Rusiyada fəaliyyət göstərən incəsənət nümayəndələrinin ifasında milli musiqi və rəqslərdən ibarət konsert proqramı ilə davam etdirilib.

# Fövqəladə Hallar Nazirliyi Yeni il bayramı ilə əlaqədar əhaliyə müraciət edib

Fövqəladə Hallar Nazirliyi (FHN) Yeni il bayramında yanğın təhlükəsizliyi qaydaları ilə əlaqədar əhaliyə müraciət edib.

FHN-dən AZƏRTAC-a bildiriblər ki, müraciətdə Yeni il bayramı ilə əlaqədar yanğın təhlükəsinin xeyli artdığı qeyd olunub. Buna görə də təhlükəsizlik qaydalarına dəqiq əməl edilməsinin vacibliyi diqqətə çatdırılıb. Bildirilib ki, evlərdə və şənliklərin keçirildiyi məkanlarda bəzədilən küknar ağacı yerə möhkəm bərkidilməli, ağacın budaqları tavana və divarlara toxunmamalıdır. İşıqlandırmada saz və standarta uyğun elektrik qurğu və cihazından istifadə edilməli, ağac tezalışan oyuncaqla bəzədilməməli, qapalı məkanda atəşfəşanlıq edilməməlidir. Bayram şənliyi ikinci mərtəbədən yuxarıda keçirilməməli, şənlik keçirilən otağın divar, tavan və döşəməsi odadavamlı olmalı, pəncərədə dəmir barmaqlıq olmamalıdır. Məkanın iki çıxışı, ehtiyat qapı üzərində "Çıxış" sözünün yazıldığı yaşıl işıqlı elektrik lövhə olmalıdır. Eləcə də otağın qapıları mütləq bayıra açılmalı, məkanda nəzərdə tutulan saydan artıq insan olmamalı, şənlikdə işıq tam söndürülməməli, tezalışan materialdan paltar geyinilməməli, məkan ilkin yanğınsöndürmə vasitələri ilə təmin edilməlidir.

"Unutmayın ki, qaydalara biganəlik həyatımıza təhlükədir. Təhlükə zamanı 112-yə zəng edin", - deyə müraciətdə vurğulanıb.

AzerGold
QAPALI SƏHMDAR CƏMİYYƏTİ

# Tacikistanın "Aprelevka" müştərək mədən müəssisəsinin nümayəndələri Azərbaycanda səfərdə olublar

Tacikistan Respublikasının "Aprelevka" müştərək mədən müəssisəsinin nümayəndələri 16-22 dekabr tarixlərində Azərbaycanda səfərdə olublar. Səfərin ilk günü "AzerGold" Qapalı Səhmdar Cəmiyyətinin (QSC) inzibati binasında görüş keçirilib. Görüşdə "AzerGold" QSC-nin İdarə Heyətinin sədri Zakir İbrahimov, idarə heyətinin digər üzvləri və aidiyyəti şöbələrin rəhbərləri, Tacikistanın Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Rustam Soli, "Aprelevka" müştərək mədən müəssisənin baş mühəndisi Farrux Boboev, baş geoloqu Baxador Talbonov və nümayəndə heyətinin digər üzvləri iştirak ediblər.



Qonaqları salamlayan Z.İbrahimov "AzerGold" QSC-nin fəaliyyəti, görülən işlər və öndə duran vəzifələr haqda qısaca məlumat verib, təcrübə mübadiləsinin əhəmiyyətindən və əməkdaşlıq perspektivlərindən danışıb.

Tacikistanlı nümayəndə heyəti təcrübə mübadiləsi üçün yaradılan şəraitə görə təşəkkür edib, bu səfərin əməkdaşlıq baxımından səmərəli olacağını bildirib.

Səfər çərçivəsində qonaqlar "AzerGold" QSC-nin Daşkəsən rayonunda yerləşən Çovdar Filiz Emalı Sahəsində olublar. "Aprelevka" müştərək mədən müəssisənin mütəxəssisləri Çovdar mədənin qırma-ələmə, topa qələviləşdirmə sahələrində mövcud maddi-texniki baza ilə tanış olublar, adsorbsiya desorbsiya və emal zavodu, laboratoriyaya baxış keçiriblər. Qonaqlara hasilat prosesi ilə yanaşı, işçilərin sağlamlığının qorunması və əməyin təhlükəsizliyinin təmin edilməsi, eləcə də asudə vaxtın səmərəli keçirilməsi üçün yaradılan şərait və ətraf mühitin mühafizəsinə dair görülən işlər barədə də məlumat verilib.

Səfərin davamında nümayəndə heyəti cəmiyyətin Ağyoxuş və Tülallar sahələrinə də baş çəkərək geoloji kəşfiyyat, buruq-qazma işlərində istifadə edilən texnika və avadanlıqlarla tanış olub, kəşfiyyat işləri zamanı götürülmüş kern nümunələrinin saxlanıldığı anbarlara baxış keçiriblər. Cəmiyyətin mütəxəssisləri hasilat prosesinin bütün mərhələləri barədə ətraflı məlumat verib və qonaqları maraqlandıran sualları cavablandırıblar.

Daha sonra tərəflər geoloji kəşfiyyat və hasilat proseslərinin həyata keçirilməsində, eləcə də müasir texnologiyaların tətbiqi istiqamətində birgə fəaliyyətə dair fikir mübadiləsi aparıblar. Tanıtım-təcrübə səfəri tacikistanlı qonaqlarda dərin təəssürat yaradıb.

***"Azərbaycan"***





Yeni nəşrlər

# Paytaxt məktəblilərinin müəllifi olduğu yeni kitab çap edilib



Bu ilin əvvəlində Bakı Şəhər İcra Hakimiyyəti və Təhsil Nazirliyinin təşkilatçılığı ilə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin doğum gününə həsr olunmuş paytaxt məktəbliləri arasında "Heydər Əliyev və Azərbaycan tarixi" mövzusunda elmi-praktiki konfranslar keçirilmiş və bu konfranslarda şagirdlər Azərbaycan tarixinin müxtəlif dövrləri barədə öz elmi məqalələri ilə çıxışlar etmişlər. Yekun konfransında rayonlar üzrə təqdim olunan işlərin ən yaxşıları seçilərək kitab şəklində çap olunması qərara alınmış və Bakı Şəhər İcra Hakimiyyətinin dəstəyi ilə "Heydər Əliyev və Azərbaycan tarixi" adlı kitab işıq üzü görmüşdür.

Bakı Şəhər İcra Hakimiyyətinin iclas zalında Bakı Şəhər İcra Hakimiyyəti və paytaxt üzrə təhsil idarəsinin məsul nümayəndələri, konfranslarda qalib seçilmiş məktəblilər, onların elmi rəhbərləri, paytaxt RİH-lərinin məsul əməkdaşları və bir sıra orta məktəblərin rəhbərləri, KİV nümayəndələrinin iştirakı ilə şagirdlərin özlərinin sədrlik etdiyi təqdimat mərasimi keçirilmişdir.

Təqdimat mərasimində çıxış edən Bakı Şəhər İcra Hakimiyyəti başçısı Aparatının İctimai-siyasi, humanitar məsələlər və dini qurumlarla iş şöbəsinin müdiri Elmin İmanov, Bakı Şəhəri üzrə Təhsil İdarəsinin müdiri Rəşad Tağıyev, Səbail rayonu 6 nömrəli məktəbin direktoru, Əməkdar müəllim Gülşən Orucova, Sabunçu Rayon İcra Hakimiyyəti başçısı Aparatının şöbə müdirinin müavini Ədalət Teymurov, 132-134 nömrəli Təhsil Kompleksinin müəllimi Aygün Əfəndiyeva, Binəqədi rayonu 297 nömrəli orta məktəbin şagirdi Əntiqə Niftəliyeva və başqaları rayonlarda keçirilən konfranslar, şagirdlərin hazırladıqları referatlar barədə məlumat verərək bildiriblər ki, əsas məqsəd orta məktəb şagirdləri arasında tariximizə, mədəniyyətimizə, keçmişimizə və tarixi şəxsiyyətlərimizə, milli-mənəvi dəyərlərimizə diqqət və marağı artırmaq, şagirdlərə elmi araşdırma və tədqiqat aparmaq, tarixi faktları analiz edib müəyyən nəticəyə gələ bilmək bacarığı aşılamaqdır. Konfranslarda şagirdlər Azərbaycan tarixinin müxtəlif dövrləri, o cümlədən Ulu Öndər Heydər Əliyevin və Prezident İlham Əliyevin Azərbaycan tarixində rolu barədə elmi məqalələri ilə çıxışlar ediblər. Son nəticədə isə belə bir kitab işıq üzü görmüşdür.

Qeyd olundu ki, Bakı şəhər məktəblərində keçirilən konfranslarda Azərbaycan tarixinin müxtəlif dövrlərinə həsr olunan, 1116 nəfər şagirdin hazırladıqları monoqrafiyaların paytaxtın hər rayonundan 5 referat olmaqla ümumilikdə 60 iş komissiya tərəfindən seçilərək Bakı Şəhər İcra Hakimiyyətinin dəstəyi ilə çap olunan yeni kitaba daxil edilib.

Tarix konfransları və yekunda kitab çap edilməsinin ənənəvi olması qərara alınmışdır.

***Elçin CƏFƏROV, "Azərbaycan"***

# Həmrəylik günü Yevlaxda bayram coşqusu ilə qeyd edildi





Yevlax şəhərinin mərkəzi meydanında 31 dekabr Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibəti ilə respublikanın tanınmış sənət adamlarının iştirakı ilə təntənəli bayram konserti keçirilmişdir.

Yevlax Şəhər İcra Hakimiyyətinin başçısı Anar Tağıyev, rayondakı idarə, təşkilat, elm və təhsil müəssisələrinin, aqrarsektorda çalışanların, gənclər, veteranlar və rayon ictimaiyyətinin nümayəndələrinin, minlərlə Yevlax sakininin iştirakı ilə keçən konsertdə əsl bayram ab-havası yaşanmışdır.

Qeyd olundu ki, 31 dekabr azərbaycanlıların ümumdünya birlik günüdür. 1991-ci il dekabrın 16-da Naxçıvan Muxtar Respublikasının Ali Məclisinin Sədri Heydər Əliyev dekabrın 31-ni Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü elan edib. Beləliklə, 31 dekabr tarixi bütün azərbaycanlılar üçün əziz olan Dünya Azərbaycanlılarının Həmrəylik Günü kimi qeyd edilir. Ümummilli Lider Heydər Əliyevin siyasi kursunun layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyev hazırda Ulu Öndərin bu estafetini də uğurla davam etdirir. Hazırda dövlət başçısının gördüyü işlər, həyata keçirilən siyasət Azərbaycan həqiqətlərinin bütün dünyaya çatdırılmasında mühüm rol oynayır.

Tanınmış müğənni Sevda Yəhyayeva və gənc incəsənət xadimlərinin, rəqs kollektivlərinin iştirakı ilə 2 saatdan çox davam edən konsert proqramında ifa edilən mahnı və rəqslər hər bir yevlaxlıda xoş ovqat yaratmışdır. Sevinc və coşqu içində olan yevlaxlılar ölkə rəhbərliyinin Yevlax rayonuna göstərdiyi diqqəti vurğulayaraq gördüyü işləri bir daha dəstəklədilər və ona uğurlar arzuladılar.

Tədbir əzəmətli atəşfəşanlıqla başa çatmışdır.

***Xəyalə MURADLI, "Azərbaycan"***

# Mənəviyyatın, saflığın və müqəddəsliyin nümunələri

## "Ulu yurdum-nur ocağım" toplusunda inanc və ibadət yerləri, dini-tarixi abidələr barədə, seyid və övliyaların ömür yolları haqqında dolğun məlumatlar əks olunub

Hər yeni nəşr özündə müəyyən tarixi dövrləri, zamanın gerçəkliklərini ədəbi-bədii dildə gələcək nəsillərə çatdırmaq məqsədi daşıyır. Bir neçə belə toplunun müəllifi olan Həşim Həsənoğlunun yeni işıq üzü görən "Ulu yurdum-nur ocağım" kitabı da bu baxımdan diqqətçəkəndir.

Kitabda respublikamızda, eləcə də vaxtilə Azərbaycan əraziləri olmuş Zəngəzur mahalında yaşamış, qədim tarixi köklərə malik seyid və övliyaların həyatları, el ağsaqqalı və ağbirçəklərinin nümunəyə çevrilmiş ömür yollarından, adət-ənənələrdən həmin bölgənin (bu gün isə Ermənistan adlandırılan) etnoqrafiyası, inanc, ibadət yerləri və dini-tarixi abidələrindən soraq verilir.




Nəşrin redaktoru, AMEA-nın müxbir üzvü, filologiya elmləri doktoru, BDU-nun İlahiyyat fakültəsinin dekanı və Qafqaz Müsəlmanları İdarəsi Elmi-dini şurasının sədri olmuş, mərhum professor Hacı Vasim Məmmədəliyev ön söz yerində qeyd edir ki, müasirlərimizə örnək olan belə nümunələr oxucuda mənəvi yüngüllük, paklıq, ruhi sakitlik yaradır, Tanrını dərk etmək, sevgili peyğəmbərimizi sevmək, müqəddəs "Qurani-Kərim"i uca tutmaq, seyid-peyğəmbər övladlarına hörmətlə yanaşmaq kimi dərin hisslər aşılayır: "...Müəllifin böyük zəhməti hesabına ərsəyə gələn kitab məhz bu baxımdan güclü mənəvi-psixoloji təsir qüvvəsinə malikdir..."

Kitab boyu təqdim edilən materiallar müqəddəs kitabımızın ayətləri ilə nurlanmış, yer üzünün sonuncu peyğəmbərinin və imamlarımızın hədis və kəlamları ilə zinətlənmiş, klassik şairlərimizin şeirlərindən nümunələrlə, qiymətli və müdrik nəsihətlər, kəlamlar, ibrətamiz rəvayət və deyimlərlə zənginləşmişdir.

Toplunun dəyərini artıran çox səbəblər var ki, onlardan biri də mənbələrin müxtəlifliyi və çox olmasıdır. Bunlardan öncə isə imperiyaların şovinist, Ermənistanın isə məkrli, çirkin niyyətli siyasətinin qurbanları - Qarabağ və qədim, ulu türk yerləri olmuş Zəngəzur ellərində darmadağın edilmiş dini-tarixi abidələrimiz haqqında da bu kitabdan məlumatlar əldə etmək mümkündür.

***Məhəmməd NƏRİMANOĞLU, "Azərbaycan"***

# Hərbi Hava Qüvvələrinin hərbi hissəsində növbəti yaşayış binası istifadəyə verilib

Azərbaycan Ordusunun şəxsi heyətinin sosial-məişət şəraitlərinin yaxşılaşdırılması ilə əlaqədar Prezident İlham Əliyevin göstərişinə əsasən Hərbi Hava Qüvvələrinin aviabazasının ərazisində yerləşən növbəti yaşayış binası hərbi qulluqçuların istifadəsinə verilib.









Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, xidməti mənzillərin açarlarının təqdimetmə mərasimində uçuş və texniki heyət, eləcə də onların ailə üzvləri ilə görüşən Müdafiə nazirinin müavini - Hərbi Hava Qüvvələrinin komandanı general-leytenant Ramiz Tahirov nazirliyin rəhbərliyi adından mərasim iştirakçılarını təbrik edib.

Nazir müavini bildirib ki, hərbi qulluqçuların sosial-məişət şəraitinin yaxşılaşdırılması məqsədilə son illər onların daimi və xidməti mənzillə mütəmadi təmin olunması dövlət başçısının ordumuza göstərdiyi qayğının bariz nümunəsidir.

Tədbir zamanı məlumat verilib ki, beşmərtəbəli bina 70 tam təmirli mənzildən ibarətdir və bütün kommunikasiya xətləri ilə təchiz olunub.

Hərbi qulluqçuların ailə üzvlərinin səmərəli istirahətini təmin etmək məqsədilə bütün lazımi şəraitin yaradıldığı bina üçün yarımstansiya tikilib, qaz, su, işıq sayğacları qoyulub, mənzillər mətbəx, qonaq, uşaq və yataq mebelləri və istilik sistemi ilə təmin edilib. Əraziyə asfalt döşənib, 100 kubluq su çəni qoyulub və yaşıllaşdırma işləri həyata keçirilib.

Mənzillərin təqdim edildiyi hərbi qulluqçular göstərilən qayğıya görə Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevə minnətdarlıqlarını bildiriblər.

Sonra Hərbi Hava Qüvvələrinin komandanı general-leytenant R.Tahirov burada yaradılan şəraitlə tanış olub və hərbçilərin ailə üzvləri ilə çay süfrəsi ətrafında söhbət edib.

# Paytaxt Yeni ili qarşılayır







Foto Fərman BAĞIROVUNDUR

## Azercell abunəçilərinin nəzərinə

Mövcud xidmətdə yeni brend siyasətinə uyğun olaraq daha rəqəmsal yanaşma və dəyişikliklərin tətbiq olunması ilə əlaqədar olaraq 26.01.2020 tarixindən etibarən "Azercell Telekom" MMC-nin GəncOL tarifi daxilində təqdim olunan təklif və güzəştlərin istifadəsi dayandırılacaq.

## "Şahmat 2" ani lotereyası

AZƏRLOTEREYA

"Azərlotereya" ASC-nin son layihələrindən olan "Şahmat 2" ani lotereyası 2020-ci ilin yanvar ayından etibarən lotereya həvəskarlarının ixtiyarına veriləcəkdir. "Şahmat 2" ani lotereyasının şərtləri və oynanılma qaydası haqqında məlumatı sizə təqdim edirik.




"Şahmat 2" ani lotereya biletinin qiyməti 1 (bir) manat, ümumi tiraj isə 3 milyon ədəd təşkil edir. Lotereyanın uduş fondunun oynanılma qaydası belədir: lotereya biletinin üzərində "şahmat" lövhəsi və "bonus" xanası əks olunub. Lövhədə 9 (doqquz) xana (3 üfüqi sıra və 3 şaquli sütun) var. Lotereya biletinin uduşlu olması, eyni fiqurun təsviri üfüqi, şaquli və ya diaqonal xətt üzrə müəyyən olunur. Oyun lövhəsinin və "bonus" xanasının qoruyucu səthlərini pozmaq lazımdır. Oyunun mahiyyəti: "üstüörtülü" oyun xanalarını pozduqdan sonra üfüqi, şaquli və ya diaqonal xətt üzrə 3 (üç) ədəd eyni şahmat fiqurunun təsviri əks olunarsa, bilet uduşlu sayılır və sahibi uyğun xətdə göstərilən uduş məbləğini qazanmış olur. Bilet bir neçə oyun xətti üzrə uduşlu olarsa, uduşlar cəmlənir. "Bonus" xanası oyun zonalarında udulan məbləği dəfələrlə artırmaq şansını verir (x1, x2, x4, x5). Toplam uduş uduşlu xətt üzrə qeyd olunmuş uduş məbləğinin "bonus" xanasında qeyd olunmuş rəqəmə vurulması ilə müəyyənləşir.

"Şahmat 2" ani lotereyasında çoxsaylı pul mükafatları lotereya iştirakçılarının yolunu gözləyir. Həmçinin "Şahmat 2" ani lotereyasında 30 ədəd 1000 manat, 12 ədəd 5000 manat və 6 ədəd 25 000 manat pul mükafatı şanslı qalibini gözləyir.

Azərbaycan Respublikasının ərazisində "Azərlotereya" ASC-nin təşkil etdiyi lotereyalarda 18 (on səkkiz) yaşına çatmış şəxslər könüllü şəkildə lotereya oyununda iştirak edə bilər.

"Azərlotereya" ASC hər bir lotereya iştirakçısına uğurlar arzulayır.

Lotereya biletlərini əldə edin, şanslı lotereya iştirakçısına çevrilin və qalib olun!

**Sizin "Azərlotereya"**

# Beynəlxalq aləm

## İraq parlamenti yeni seçki qanunu qəbul etdi

İraq parlamenti seçkilər haqqında yeni qanun qəbul etmişdir. Bu barədə "əl-Hədəs" telekanalı xəbər verir.

Yeni qanunun qəbulu etirazçıların əsas tələbi idi. Onlar parlamenti buraxmağı və növbədənkənar seçkilərin keçirilməsini israr edirdilər. Amma qanunvericilər yeni qanun qəbul olunanadək parlamenti buraxmaqdan boyun qaçırırdılar. Uzun-uzadı müzakirələrdən sonra deputatlar sənədin bütün maddələrini bəyənmişlər.

Qanunun qəbul edilməsi yolunda əsas maneə namizədlərin irəli sürülməsi prinsipi idi. Nəhayət, deputatlar namizədlərin təkcə partiya siyahıları ilə yox, həm də fərdi qaydada irəli sürülməsini təmin edən müddəanı qəbul etdilər. Əvvəlki qanunda deputatların yalnız proporsional qaydada seçilməsi təsbit olunmuşdu.

Bundan başqa, yeni qanunda belə bir müddəa yer almışdır ki, hər bir seçilmiş deputat ayrıca götürülmüş seçki dairəsinin maraqlarını təmsil edə bilər, halbuki qanunun köhnə redaksiyasında parlamentarlar qrupunun bütün vilayəti təmsil etməsinin vacibliyi əksini tapmışdı. Yeni qanunda həmçinin seçki komissiyalarının nümayəndələrinin müəyyənləşdirilməsi prinsipləri təsbit olunmuşdur.

## Boliviya Meksikadan keçmiş nazirləri təhvil verməyi tələb edir

Boliviya polisi Meksika hakimiyyət orqanlarından Meksikanın La-Pasdakı səfirliyində sığınacaq tapmış sabiq hökumət üzvlərini təhvil verməyi tələb etmişdir. Hazırda diplomatik nümayəndəliyin binasına keçmiş Mədəniyyət, Ədliyyə və Müdafiə nazirləri sığınmışlar.

Meksika Xarici İşlər Nazirliyi Boliviyadakı səfirliyin binasının yanında Boliviya xüsusi xidmət orqanlarının çoxsaylı nümayəndələrinin olması ilə əlaqədar narahatlığını ifadə etmişdir. Diplomatlar nümayəndəliyin ərazisinə müdaxilədən ehtiyatlanırlar.

Bu il oktyabrın 20-də Boliviyada prezident seçkiləri keçirilmişdir. Seçicilərin əksəriyyəti ovaxtkı dövlət başçısı Evo Moralesə səs vermişdi. Səsvermənin nəticələri elan olunan kimi Moralesin rəqibləri etiraz aksiyaları təşkil etmiş, ölkədə iğtişaşlar başlamışdır. Üç həftə davam etmiş etiraz aksiyalarından sonra Morales və bir neçə yüksək vəzifəli məmur istefaya çıxmışdır.

*Təkrar*

## "Azərişıq" ASC müxtəlif növ KTM-lərin satın alınması məqsədilə *açıq tender elan edir*

Tender 1 (bir) LOT üzrə keçirilir:

**LOT-1** Müxtəlif növ KTM-lərin satın alınması - 400 manat

**"Azərişıq" ASC**
**Hesab №: AZ83AIIB33020029441802068118**
**VÖEN: 9900069391**
**Benefisiarın Bankı: Kapital Bankın Gənclik filialı**
**Kod: 200189**
**VÖEN: 9900003611**
**Müxbir hesab №: AZ37NABZ01350100000000001944**
**SWIFT Code: AIIBAZ2X**

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi texniki və maliyyə imkanlarına malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər LOT üzrə göstərilən məbləğdə iştirak haqqını qeyd olunan hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, Ə.Qayıbov küçəsi, 8 ünvanında yerləşən "Azərişıq" ASC-nin inzibati binasından ala bilərlər.

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

Əlaqələndirici şəxs - Zaur Abdullayev (telefon: 440-39-93 daxili (23-32))

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*

Sənədlər Azərbaycan dilində 2 (iki) nüsxədə (1 ədəd əsli və 1 ədəd surəti) tərtib olunmalıdır (xarici dildə olan məlumatlar Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq həyata keçiriləcəkdir (https://etender.gov.az/).

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **22 yanvar 2020-ci il saat 16:00-a** qədər, ixtisas uyğunluğu prosedurunu keçmiş iddiaçılar isə tender təklifi və bank təminatını möhürlənmiş ikiqat zərfdə **30 yanvar 2020-ci il saat 16:00-a** qədər Bakı şəhəri, Ə.Qayıbov küçəsi, 8 ünvanına təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim edilmiş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri **31 yanvar 2020-ci il saat 16:00-da** Ələsgər Qayıbov küç., 8 ünvanında "Azərişıq" ASC-nin inzibati binasında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

## bakcell abunəçilərinin nəzərinə

"Bakcell" MMC ilə abunəçilər arasında imzalanmış, özündə "wireless internet at home solution" cihazı vasitəsilə müvafiq internet trafikinin təmin edilməsini əks etdirən "Wi-Fi evinizdə" müqavilələrinə bu müqavilələrin 3.2.5-ci maddəsinə əsasən 15 yanvar 2020-ci il tarixdən xitam verilir.

"Bakcell" MMC "wireless internet at home solution" cihazının abunəçilərin istifadəsində qalması şərtilə yeni şərtlərlə müqavilə bağlamağı təklif edir. Yeni müqavilə bağlanmadığı halda "wireless internet at home solution" cihazını "Bakcell" MMC-yə geri qaytarmaq abunəçilərdən xahiş olunur.

## B İ L D İ R İ Ş

"Bakı Metropoliteni" QSC tərəfindən 19.12.2019-cu il tarixdə keçirilmiş müxtəlif növ kondisionerlərin açıq tender üsulu ilə satın alınmasına dair müsabiqədə "CONTEK LTD" tamamilə xarici investora məxsus müəssisə qalib elan olunmuşdur.

Qalib gəlmiş təşkilat ilə 24.12.2019-cu il tarixdə ƏDV daxil 194061,62 (yüz doxsan dörd min altmış bir manat 62 qəpik) manat məbləğində müvafiq satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

***Azərbaycan Dövlət Pedaqoji Universiteti 2020-ci il üçün internet xidmətinin kotirovka sorğusu üsulu ilə satın alınmasını həyata keçirir***

Maraqlanan təşkilatlar **012 598-12-61** telefon nömrəsi ilə əlaqə saxlaya bilərlər.

Kotirovka sorğusunda iştirak etmək üçün sənədlər 28.12.2019-cu il saat 17:00-dək qəbul olunur.

**Ünvan: Üzeyir Hacıbəyli, 68.**

***Tender komissiyası***

## «AZƏRBAYCAN» qəzetinin reklam xidməti

## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev Bakı şəhər Baş Polis İdarəsinin rəisi Mirqafar Seyidova əzizi

**NEMƏT SEYİDOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin rəisi Kamran Əliyevə əzizi

**QƏNBƏR TAĞIYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

"Azərenerji" ASC-nin prezidenti Baba Rzayev Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin rəisi Kamran Əliyevə əzizi

**QƏNBƏR TAĞIYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

"Azərenerji" ASC-nin prezidenti Baba Rzayev Bakı şəhər Baş Polis İdarəsinin rəisi Mirqafar Seyidova əzizi

**NEMƏT SEYİDOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC-nin rəhbərliyi Azərbaycan Respublikası Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin rəisi Kamran Əliyevə əzizi

**QƏNBƏR TAĞIYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

İsmayıllıdan Mirdaməd Sadıqov ailəsi ilə birlikdə Gəncə şəhəri Nizami rayon qeydiyyat şöbəsinin rəisi Şəlalə Cəfərovaya atası

**ƏJDƏR NƏBİYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin rəhbərliyi və kollektivi Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Sahil Babayevə əzizi

**MAARİF İSMAYILOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyinin rəhbərliyi və kollektivi Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin rəisi Kamran Əliyevə əzizi

**QƏNBƏR TAĞIYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Sumqayıtdan Zakir Fərəcov Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin rəisi Kamran Əliyevə əzizi

**QƏNBƏR TAĞIYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Dövlət Kontrakt Korporasiyası "Azərkontrakt" Səhmdar Cəmiyyətinin rəhbərliyi və kollektivi cəmiyyətin "Azərlizinq" şirkətinin baş direktoru Əhliyət Əliyevə qardaşı

**NÜSRƏT ƏLİYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikasının Mənzil İnşaatı Dövlət Agentliyinin rəhbərliyi və kollektivi Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin rəisi Kamran Əliyevə əzizi

**QƏNBƏR TAĞIYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Auditorlar Palatasının rəhbərliyi Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin rəisi Kamran Əliyevə əzizi

**QƏNBƏR TAĞIYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan
AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail: secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az



Telefonlar
Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1
"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet
Tiraj 8886
Sifariş 4335
Qiyməti 40 qəpik